RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 243 (9988) 15 noyabr 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Biz təkcə dost və qardaş ölkələr deyilik

## Həm də yaxın ticarət tərəfdaşıyıq

Dövlətimizin başçısı ilk növbədə qeyd edib ki, Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik vahid tarixi, mədəni, coğrafi və geosiyasi məkanı formalaşdırır. Xəzər dənizi ölkələrimizi fiziki olaraq ayırsa da, əslində, mühüm birləşdirici amildir. Belə ki, bu gün Xəzər sadəcə coğrafi anlayış deyil, eləcə də xalqlarımızın strateji birliyinin, iqtisadi potensialının və tarixi əməkdaşlığının rəmzidir. Ölkələrimizi bu coğrafiya ilə yanaşı, həm də tarixi-mədəni əlaqələr, ortaq dini və mənəvi dəyərlər, adət-ənənələr birləşdirir. Azərbaycan regiondakı bütün ölkələrlə ən yüksək səviyyədə əməkdaşlığın hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir.

Özbəkistan və Azərbaycana gəldikdə isə qısaca deyək ki, bunlar bir-birinə qardaş ölkə və etibarlı müttəfiqdir. Dövlətlərarası münasibətlərimiz möhkəm təməl üzərində uğurla inkişaf edir. Əlaqələrin daha da inkişaf etməsində iqtisadi inkişafın da mühüm rolu var. İqtisadi-ticari əməkdaşlığın dinamikası tam məmnunluq doğurur və perspektivlər də mövcuddur. İndiyədək ölkəmizdə təxminən 120 Özbəkistan investisiyalı kommersiya təşkilatı qeydiyyatdan keçib. Onlar iqtisadiyyatın sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat və xidmət sahələrində uğurla fəaliyyət göstərirlər.

Azərbaycanla Özbəkistan arasında ticarət sürətli templə inkişaf edir. Keçən il əmtəə dövriyyəsi iki ölkə arasında 252 milyon dollar təşkil edib və cari ilin yanvar-sentyabr aylarında bu göstərici 87,5 faiz artaraq 319 milyon dollara çatıb. Həmçinin sərmayələr sahəsində əməkdaşlıq davam edir. Xatırladaq ki, iki il əvvəl həm ölkələrimizin daxilində, həm də üçüncü ölkələrdə sərmayə qoyuluşunu nəzərdə tutan, ümumi kapitalı 500 milyon dollar olan Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti yaradılıb. Daha bir önəmli hadisə isə Xankəndidə birgə müəssisənin - tikiş fabrikinin yaradılmasıdır.

5

# Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında səmərəli əməkdaşlıq mövcuddur

## Prezident İlham Əliyev Asiya İnkişaf Bankının nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Asiya İnkişaf Bankının prezidenti Masato Kandanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında səmərəli əməkdaşlığa toxunuldu, birgə layihələrin uğurlu icrası qeyd edildi. 1999-cu ildən indiyədək Asiya İnkişaf Bankı tərəfindən nəqliyyat, su təchizatı, enerji, maliyyə, təhsil, səhiyyə və digər sahələri əhatə edən 145 kredit, qrant, investisiya və texniki yardım layihələri üzrə Azərbaycana 5,5 milyard dollar dəyərində maliyyə dəstəyinin göstərildiyi vurğulandı.

Asiya İnkişaf Bankının Azərbaycan dövləti ilə yanaşı, özəl sektorla da uğurlu əməkdaşlıq etdiyi qeyd olundu. Bu xüsusda neft-qaz, elektrik enerjisi, yol, dəmir yolu, kənd təsərrüfatı, su təchizatı, çirkab suların axıdılması və digər istiqamətlərdə icra olunan birgə layihələrə toxunuldu.

Söhbət zamanı Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlərin regionun nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi üçün də böyük imkanlar yaratdığı diqqətə çatdırıldı.

Görüşdə Mərkəzi Asiya-Azərbaycan-Avropa marşrutu üzrə bağlantıların önəmi qeyd edildi. Həmçinin ölkəmizlə bank arasında yeni layihələrə toxunuldu, bu xüsusda dəmir yolu, metro şəbəkəsinin genişləndirilməsi və su təchizatı ilə bağlı əməkdaşlıq məsələləri müzakirə olundu.

# Volodimir Zelenski İlham Əliyevə zəng edib



Noyabrın 14-də Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Volodimir Zelenski Rusiyanın raket zərbəsi nəticəsində Azərbaycanın Ukraynadakı səfirliyinin inzibati binasının növbəti dəfə raket zərbəsinə məruz qalmasını qınayıb və bu hadisə ilə bağlı ciddi narahatlığını bildirib.

Dövlətimizin başçısı da öz növbəsində ölkəmizin Ukraynadakı səfirliyinin binasının növbəti dəfə raket zərbəsinə məruz qalmasını pisləyib və bununla əlaqədar ciddi narahatlığını ifadə edib, beynəlxalq hüququn norma və prinsiplərinə əsasən, diplomatik nümayəndəliklərə qarşı bu cür hücumların qəbuledilməz olduğunu vurğulayıb.

Telefon söhbəti zamanı Volodimir Zelenski ölkəmizin Ukraynaya humanitar dəstəyinə görə təşəkkürünü bildirib.

Dövlət başçıları həmçinin ikitərəfli əlaqələrə dair fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

**◆ 17 Noyabr Milli Dirçəliş Günüdür**

# Xalqımızın azadlıq mübarizəsinin başlanğıcı



Noyabrın 17-də Bakının Azadlıq meydanında başlayan kütləvi etirazlar sovet məkanında analoqu olmayan bir hadisə idi. Bu, rejimə qarşı bir xalqın kütləvi etirazı idi. İnsanlar yalnız ağacların qırılmasına yox, öz hüquqlarının tapdanmasına, torpaqlarının işğalına, soydaşlarının didərgin salınmasına, ədalətsizliyə və susdurulmaya etiraz edirdilər. Əslində, 17 Noyabrda başlanan meydan hərəkatı azadlıqa təşnə olan bir xalqın "biz varıq" deyə yeni tarixə imza atdığı gün oldu. 1988-ci ilin noyabrında başlayan mitinqlər günlərlə, həftələrlə davam etdi. Yüz minlərlə insanın toplaşdığı meydanda əllərində üçrəngli bayrağımızı tutan insanların dillərində azadlıq şüarları vardı. Bu nümayişlər təkcə daxili etiraz yox, Kremlin diktəsinə qarşı milli müqavimət hərəkatı idi.

5

# Azərbaycandan verilən sülh mesajları

Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paraddakı çıxışı zamanı bu məsələyə diqqət çəkən Prezident İlham Əliyev söylədi ki, Azərbaycan heç vaxt işğalla barışmaq fikrində deyildi: "Biz sülh danışıqlarını aparаrkən eyni zamanda bəyan edirdik ki, əgər bu danışıqlar nəticə verməsə, Azərbaycan istənilən yollarla, o cümlədən hərbi yolla öz tarixi, əzəli torpaqlarını azad edəcək".

7



# Nəqliyyat xətlərinin təhlükəsizliyi sahəsində əməkdaşlığımız qardaş dövlətlərin iqtisadi inkişafının zəmanətidir

## "Beynəlxalq nəqliyyat xətlərinin təhlükəsizliyinin təmin olunmasında xüsusi xidmət orqanlarının rolu" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi "Beynəlxalq nəqliyyat xətlərinin təhlükəsizliyinin təmin olunmasında xüsusi xidmət orqanlarının rolu" mövzusunda beynəlxalq konfransın açılışı münasibətilə Xankəndidə səmimi-qəlbdən salamlayıram.

Qardaş ölkələri təmsil edən xüsusi xidmət orqanlarının nümayəndələrinin bu tədbirdə iştirakı təhlükəsizlik və əməkdaşlığın gücləndirilməsinə olan ümumi baxışımızın bariz göstəricisidir.

Bugünkü tədbirin ölkələrimiz və bütövlükdə region üçün strateji əhəmiyyət daşıyan beynəlxalq nəqliyyat xətlərinin təhlükəsizliyinin təmin olunması mövzusuna həsr olunması təsadüfi deyil. Son zamanlar dünyanın müxtəlif bölgələrində müşahidə olunan qarşıdurmalar beynəlxalq və regional təhlükəsizliyi ciddi şəkildə təhdid edən müxtəlif çağırışların artmasına səbəb olur. Bu mənada ölkələrimizin ərazisindən keçən, Avropa ilə Asiyanı birləşdirən geniş nəqliyyat şəbəkəsinin mühafizə olunması üçün xüsusi xidmət və təhlükəsizlik orqanları arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi böyük önəm daşıyır.

Bu gün bizim ölkələr "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin inkişaf etdirilməsində aparıcı rola malikdirlər. Azərbaycan müasir dəmir və avtomobil yolları, eləcə də hava və dəniz limanları infrastrukturuna böyük sərmayələr yatırır. Biz bu nəqliyyat və kommunikasiya xətlərini təkcə iqtisadi rifah mənbəyi kimi deyil, eyni zamanda türk dövlətlərinin siyasi, mədəni, təhlükəsizlik və müdafiə sahələrində daha sıx inteqrasiyası üçün vacib təməl kimi görürük.

Zəngəzur dəhlizinin açılması ölkələrimiz arasında birbaşa və maneəsiz əlaqələrin qurulmasında mühüm rol oynayacaqdır. Bu layihənin reallaşması nəticəsində yükdaşıma həcminin çoxalması regionun rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artıracaqdır. Bununla belə nəqliyyat qovşaqlarımızın artan rolu onları destruktiv qüvvələrin hədəfinə çevirir. Nəqliyyat və kommunikasiya xətlərimiz beynəlxalq terrorçuluqla, transmilli mütəşəkkil cinayətkarlıqla, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə, qaçaqmalçılıqla, eləcə də kritik nəqliyyat infrastrukturunun idarəetmə sistemlərinin iflicinə yönəlmiş kibertəhdidlərlə üzləşir.

Nəhəng regional layihələrin icrasına mane olmaq məqsədi daşıyan xarici müdaxilə və sabitliyi pozma cəhdləri də xüsusi qeyd edilməlidir. Məhz buna görə də xüsusi xidmət orqanları arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi həyati zərurətə çevrilmişdir. Əsas nəqliyyat obyektlərinə, marşrutlara və ümumiyyətlə, dövlətlərimizə qarşı planlaşdırılan pozuculuq aktları barədə fasiləsiz və operativ məlumat mübadiləsinin aparılması və birgə profilaktik tədbirlərin görülməsi olduqca vacibdir.

Müvafiq kontekstdə tranzit xətlərimizdən istifadə etməyə cəhd göstərən terrorçu təşkilatların və cinayətkar qrupların destruktiv fəaliyyətinin qarşısının alınması üçün əlaqələndirilmiş əməliyyat tədbirlərinin hazırlanması və reallaşdırılması da prioritet fəaliyyət istiqamətləri sırasında yer almalıdır. Bu əməkdaşlıq kibertəhdidlərdən müdafiə, eləcə də nəqliyyat axınlarına nəzarət və monitorinq üçün qabaqcıl texnologiyaların tətbiqi sahəsində təcrübə mübadiləsini də əhatə etməlidir.

Nəqliyyat və kommunikasiya xətlərinin təhlükəsizliyi sahəsində əməkdaşlığımızın effektivliyi qardaş dövlətlərin iqtisadi inkişafının və uzunmüddətli sabitliyinin zəmanətidir. Əminəm ki, bugünkü tədbir və ən əsası xüsusi xidmət orqanlarının daimi birgə işi ölkələrimizin təhlükəsizliyi, sabitliyi və rifahı ilə bağlı ümdə məsələlərin həllinə kömək edəcək, xalqlarımızın dinc və firavan inkişafına töhfə verəcəkdir.

Bütün tədbir iştirakçılarını bir daha Qarabağda ürəkdən salamlayır, konfransın praktiki əhəmiyyətli nəticələrlə yekunlaşmasını arzulayıram!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 noyabr 2025-ci il*

## "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Texniki təhlükəsizlik haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Texniki təhlükəsizlik haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 dekabr tarixli 695 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1245 (Cild I); 2024, № 2, maddə 147) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamə"nin 8.11-ci bəndinə "obyektlərin" sözündən sonra "vahid" sözü əlavə edilsin.

2. "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858 (Cild I); 2024, № 5 (I kitab), maddələr 515, 529, № 7, maddə 797; 2025, № 8, maddə 771) 5.23.1-ci yarımbəndinə "obyektlərin" sözündən sonra "vahid" sözü əlavə edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515, № 7, maddə 809, № 8, maddələr 943, 948, № 11, maddə 1199, № 12 (II kitab), maddə 1364; 2025, № 3, maddə 224, № 4 (I kitab), maddə 330, № 5, maddə 459, № 6, maddə 541, № 8, maddə 771) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 8-ci hissəsinin "Göstərdiyi xidmətlər" sütununun 3-cü bəndinə "obyektlərin" sözündən sonra "vahid" sözü əlavə edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 2231 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 956 (Cild I) ilə təsdiq edilmiş "Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyası haqqında Əsasnamə"nin 1.1-ci bəndindən ", Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 78.2-ci maddəsinə" sözləri çıxarılsın.

5. "Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 sentyabr tarixli 3488 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1066 (Cild I) 1-ci hissəsinin "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri" abzasının sonundan nöqtə işarəsi çıxarılsın və həmin abzasdan sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 noyabr 2025-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2011-ci il 20 iyul tarixli 472 nömrəli, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli və "AYNA" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1031 (Cild I); 2024, № 8, maddə 948, № 11, maddə 1199; 2025, № 3, maddə 227, № 9, maddə 820) ilə təsdiq edilmiş "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi"nin 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1.8-ci yarımbənddə hər iki halda "icazə" sözü "İcazə" sözü ilə əvəz edilsin;

1.2. 3.1.9-cu və 3.1.10-cu yarımbəndlərdə "illik və qısamüddətli icazələri" sözləri "qısamüddətli (aylıq) və çoxtərəfli illik "İcazə" blankları" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1466 (Cild I); 2024, № 8, maddə 937) ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.0.3-cü yarımbəndə "aparılmasını" sözündən sonra "və operatorlara kvota ilə müəyyən edilmiş, xarici ölkələrin ərazisində beynəlxalq avtomobil daşımalarını yerinə yetirmək üçün elektron qaydada mübadilə edilən xarici ölkələrin "İcazə" blanklarının və əldə edilən Beynəlxalq Nəqliyyat Forumunun çoxtərəfli qısamüddətli (aylıq) və çoxtərəfli illik "İcazə" blanklarının (jurnallarının) elektron qaydada verilməsini" sözləri əlavə edilsin;

2.2. 5.1.10-cu yarımbəndə "uçotu" sözündən sonra "və operatorlara verilən "İcazə" blankları (jurnalları)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 noyabr 2025-ci il*

## Baş nazir Əli Əsədov Asiya İnkişaf Bankının prezidenti ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 14-də Asiya İnkişaf Bankının prezidenti Masato Kanda ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında uzunmüddətli səmərəli tərəfdaşlığın mövcud olduğu bildirilib.

Ötən müddət ərzində bankın Azərbaycan iqtisadiyyatının müxtəlif sektorlarının inkişafına dəstək verdiyi bildirilib. Eyni zamanda nəqliyyat, su təchizatı, enerji, maliyyə, təhsil, səhiyyə və digər sahələri əhatə edən birgə layihələrin uğurla həyata keçirilməsindən məmnunluq ifadə olunub.

Azərbaycanın Asiya İnkişaf Bankının az inkişaf etmiş ölkələrə yardım göstərilməsi təşəbbüsünün iştirakçısı olduğu, ölkəmizin bankın Asiya İnkişaf Fonduna ianələr ayırdığı diqqətə çatdırılıb.

Həmçinin ölkəmizdə yaradılan əlverişli investisiya və biznes mühitinə toxunulub, işğaldan azad edilmiş ərazilərin bərpası və iqtisadi dirçəlişi istiqamətində həyata keçirilən proqramlar, həmçinin bu ərazilərin investisiya potensialı barədə məlumat verilib.

Görüşdə Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında cari ilin iyulunda təsdiqlənmiş 2025-2029-cu illər üzrə Ölkə Tərəfdaşlıq Strategiyası çərçivəsində prioritet istiqamətlər üzrə əməkdaşlıq imkanları, o cümlədən metro şəbəkəsinin genişləndirilməsi, dəmir yolu infrastrukturunun təkmilləşdirilməsi, su təchizatı sisteminin yaxşılaşdırılması və ikitərəfli gündəlikdə duran bir sıra digər perspektivli layihələr müzakirə olunub.

## "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 333**

**Bakı şəhəri, 7 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, ölkədə aparılan struktur islahatlarının nəticəsində yaradılan yeni təşkilatların və xidmətlərin fəaliyyətə başlaması, bəzilərinin ləğv edilməsi və ya birləşdirilməsi ilə bağlı onların maliyyə təminatının həyata keçirilməsi, dövlət maliyyə inzibatçılığının və hesabatlılığın gücləndirilməsi, şəffaflığın artırılması, həmçinin büdcə vəsaitlərindən təyinatı üzrə istifadənin tam təmin edilməsi üçün vahid büdcə təsnifatının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594; № 7, maddələr 706, 714, 716; № 8, maddə 800; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il10 sentyabr tarixli 257 nömrəli, 16 sentyabr tarixli 263 nömrəli, 17 sentyabr tarixli 270 nömrəli və 22 sentyabr tarixli 279 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

1. "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatı" üzrə:

1.1. "6.3.0. "Sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar" köməkçi bölməsi"ndə və "6.4.0. "Sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər" köməkçi bölməsi"ndə "6.3.0." və "6.4.0." rəqəmləri müvafiq olaraq "6.8.0." və "6.9.0." rəqəmləri ilə əvəz edilsin;

1.2. "9.3.0. "Meliorasiya" köməkçi bölməsindən sonra" 9.4.0. "Balıqçılıq və balıq ovu" köməkçi bölməsi əlavə edilsin;

1.3. "10.6.0. "Balıqçılıq və ovçuluq" köməkçi bölməsinin adı aşağıdakı redaksiyada verilsin:

"10.6.0. Ovçuluq və heyvanların mühafizəsi";

1.4. "10.6.1. "Balıqartırma və balıq mühafizəsi" və "10.6.2. "Ovçuluq və heyvanların qorunması" paraqrafları ləğv edilsin.

2. "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə" üzrə:

2.1. "1.1.2. "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların və icra səlahiyyətlərini həyata keçirən orqanın fəaliyyəti" paraqrafına "qurumlar," sözündən sonra "Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti," sözləri əlavə edilsin;

2.2. "6.0.0. "Sosial müdafiə və sosial təminat" bölməsində "6.3.0." və "6.4.0." rəqəmləri müvafiq olaraq "6.8.0." və "6.9.0." rəqəmləri ilə əvəz edilsin;

2.3. "9.0.0. "Kənd təsərrüfatı" bölməsi"nə" 9.3.0. Meliorasiya"," sözlərindən sonra "9.4.0. Balıqçılıq və balıq ovu"," sözləri əlavə edilsin;

2.4. "9.3.0. "Meliorasiya" köməkçi bölməsindən sonra aşağıdakı məzmunda yeni "9.4.0. "Balıqçılıq və balıq ovu" köməkçi bölməsi əlavə edilsin:

"9.4.0. "Balıqçılıq və balıq ovu" köməkçi bölməsinə balıqçılıq su obyektlərində həyata keçirilən fəaliyyət növləri, balıqçılıqla bağlı xidmətlərə rəhbərlik, balıq və digər su bioresurslarının mühafizəsi, artırılması, yetişdirilməsi, bərpası və səmərəli istifadəsi, balıq və digər su bioresurslarının ovlanması fəaliyyətinə nəzarətvə onların tənzimlənməsi, balıqçılıq sahəsində məlumatların yayılması üzrə xidmətlər, həmin xidmətlərin idarə edilməsi, balıqçılıqla bağlı layihələrin hazırlanması, akvakulturanın davamlı inkişafı, balıqartırma müəssisələrinin yaradılması, saxlanması və bu qəbildən olan digər xərclər daxildir.";

2.5. "10.0.0. "Ətraf mühitin mühafizəsi" bölməsində "10.6.0. Balıqçılıq və ovçuluq" sözləri "10.6.0. Ovçuluq və heyvanların mühafizəsi" sözləri ilə əvəz edilsin;

2.6. "10.6.0. "Balıqçılıq və ovçuluq" köməkçi bölməsinin adı və mətni aşağıdakı redaksiyada verilsin:

"10.6.0. "Ovçuluq və heyvanların mühafizəsi" köməkçi bölməsinə ovçuluq (balıq və digər su bioresursları istisna olmaqla) sahəsində həyata keçirilən fəaliyyət növləri, ovçuluqla bağlı xidmətlərə rəhbərlik, vəhşi heyvanların mühafizəsi, çoxaldılması və səmərəli istifadəsi, vəhşi heyvanların ovlanmasına və ovçuluq fəaliyyətinə nəzarət və onların tənzimlənməsi, ovçuluq sahəsində məlumatların yayılması üzrə xidmətlər, ərazilərdə heyvanların məskunlaşması və ya seleksiya məqsədi ilə ov aparılması, həmin xidmətlərin idarə edilməsi, ovçuluq məsələləri ilə bağlı ümumi xarakterli məlumatların, layihələrin hazırlanması və bu qəbildən olan digər xərclər daxildir.";

2.7. "10.6.1. "Balıqartırma və balıq mühafizəsi" və "10.6.2. Ovçuluq və heyvanların qorunması" paraqrafları ləğv edilsin;

2.8. "11.9.1. "Dövlət əmlakının özəlləşdirməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması" paraqrafına "yardımla" sözündən sonra ", dövlət əmlakının satıcısının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə" sözləri əlavə edilsin.

3. "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatı" üzrə:

3.1. "222350. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə rabitə xidmətləri haqlarının ödənilməsi" maddəsindən sonra "222390. "Digər telekommunikasiya və rabitə xidmətləri haqlarının ödənilməsi" maddəsi əlavə edilsin;

3.2. "263300. "Dövlət hesabına ali təhsil müəssisələrində təhsil xərcləri" paraqrafından "ali" sözü çıxarılsın;

3.3. "311000. "Torpaq, tikili və avadanlıqlar" köməkçi bölməsinin adından "Torpaq," sözü çıxarılsın;

3.4. "311900. "Sair torpaq, tikili və avadanlıqlar" və "312900. "Sair torpaq, tikili və avadanlıqların əsaslı təmiri" paraqraflarından "torpaq," sözü çıxarılsın.

4. "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə" üzrə:

4.1. "211300. "Diplomatik və ticarət nümayəndəliklərində çalışan işçilərin əməkhaqqı, təmsilçilik və birdəfəlik yerləşmə müavinəti" paraqrafına "xərcləri" sözündən sonra ", məzuniyyətə görə kompensasiyanın (istifadə edilməmiş məzuniyyətə görə kompensasiya daxil olmaqla) ödənilməsi ilə bağlı xərclər" sözləri əlavə edilsin;

4.2. "221100. "Dəftərxana və təsərrüfat xərcləri" paraqrafına "təmizlik" sözündən sonra ", təşkilatın təsərrüfat fəaliyyətində istifadə olunan antiseptik, dezinfeksiya" sözləri əlavə edilsin;

4.3. "221300. "Yanacaq və sürtkü materiallarının alınması" paraqrafına "və sürtkü materiallarının" sözləri " və sürtkü materiallarının və elektrik mühərrikli nəqliyyat vasitələri üçün enerji doldurma məntəqələrindən elektrik enerjisinin"sözləri əlavə edilsin;

4.4. "221400. "Dərman, sarğı ləvazimatlarının və materiallarının alınması" paraqrafından "təhsil müəssisələrində" sözləri çıxarılsın;

4.5. "221700. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə malların satınalınması" paraqrafına "sürtkü materiallarının," sözlərindən sonra "elektrik mühərrikli nəqliyyat vasitələri üçün enerji doldurma məntəqələrindən elektrik enerjisinin," sözləri əlavə edilsin;

4.6. "221900. "Digər malların alınması" paraqrafı üzrə "sayğacların alınması və quraşdırılması, yanğınsöndürən balonların alınması," sözləri çıxarılsın və "idman atları" sözlərindən sonra ", xidməti iş heyvanları və balıqlar" sözləri əlavə edilsin, həmçinin " bu qəbildən olan digər xərclər," sözləri "gübrə, pestisidlər və bitki mühafizə vasitələrinin alınması, təmizləyici qurğuların (su filtrasiyası və s.) sərfiyyatı üzrə məhlulların, duzların, qumların və bu qəbildən olan digər malların alınması," sözləri ilə əvəz edilsin;"

4.7. "222250. "İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi" maddəsinə "göstərilmiş" sözündən sonra ", o cümlədən mülki-hüquqi müqavilə əsasında qazanxananın istismarı üzrə" sözləri əlavə edilsin;

4.8. 222290. "Digər kommunal xidmətlərin haqqının ödənilməsi" maddəsinə "kommunal xətlərinin çəkilişi," sözlərindən sonra "kommunal xidmət şəbəkələrinə (su, qaz, elektrik enerjisi və s.) qoşulma (sayğacların quraşdırılması)," sözləri əlavə edilsin;

4.9. "222300. "Telekommunikasiya və poçt rabitəsi xidmətləri haqqının ödənilməsi" paraqrafında "222330. İnternet xidməti haqqının ödənilməsi" sözlərindən sonra "və" bağlayıcısı vergül işarəsi ilə əvəz olunsun, habelə "maddələrinin" sözündən əvvəl "və "222390. "Digər telekommunikasiya və rabitə xidmətləri haqlarının ödənilməsi" sözləri əlavə edilsin;

4.10. "222311. "Ölkədaxili telefon danışıq haqlarının ödənilməsi" yarımmaddəsi aşağıdakı redaksiyada verilsin:

"222311. "Ölkədaxili telefon danışıq haqlarının ödənilməsi" yarımmaddəsinə ölkənin daxilindəki telefon, faks, teleqraf xidmət haqlarının, abunə haqlarının, SMS xidmətlərinin dəyərinin ödənilməsi xərcləri və bu qəbildən olan digər xərclər daxildir.";

4.11. "222350. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə rabitə xidmətləri haqlarının ödənilməsi" maddəsindən sonra aşağıdakı məzmunda 222390-cı maddə əlavə edilsin:

"222390. "Digər telekommunikasiya və rabitə xidmətləri haqlarının ödənilməsi" maddəsinə 222310-222350-ci maddələrində nəzərdə tutulmayan digər telekommunikasiya və rabitə xidmətləri haqlarının ödənilməsi, habelə fiber - optik və optik kanallarının abunəsi və icarəsi haqlarının, kabel televiziyasının abunə haqqının, "Trank" radiorabitəsi və VLAN xidmətlərinin, mobil xüsusi dövlət rabitəsi cihazlarının GSM şəbəkəsinə qoşulma və abunəlik haqlarının, elektron poçt sistemindən istifadəyə və GPS/GSM nəzarət qurğusuna görə xidmət haqlarının ödənilməsi və bu qəbildən olan digər xərclər daxildir.";

4.12. "222920. "İstehlakyönlü müxtəlif xidmətlər" maddəsinə "əmlakın sığortalanması ilə bağlı xərclər," sözlərindən sonra "lövhələrin hazırlanması xərcləri," sözləri əlavə edilsin;

4.13. "222990. "Sair xərclər" maddəsinə "ödənilən məbləğlər," sözlərindən sonra "utilizasiyaya verilən nəqliyyat vasitəsi üçün tətbiq edilən güzəştin və birdəfəlik ödənişlərin məbləğləri, tibbi tullantıların invertarlaşdırılması və pasportların alınması xərcləri," sözləri əlavə edilsin;

4.14. "253300. Hüquqi şəxslərə digər subsidiyalar" paraqrafı aşağıdakı redaksiyada verilsin:

"253300. "Hüquqi şəxslərə digər subsidiyalar" paraqrafına məhsulların istehsalı ilə bağlı əvəzsiz verilən maliyyə vəsaiti, habelə lizinqə verilən və lizinq yolu ilə satılan kənd təsərrüfatı texnikası, suvarma sistemləri, damazlıq heyvanlara görə dövlət büdcəsinin vəsaiti hesabına verilən güzəştlər, həmçinin hüquqi şəxslərə dövlət dəstəyi ilə bağlı verilən digər subsidiyalar daxildir.";

4.15. "263000. "Dövlət sifarişi, dövlət öhdəlikləri və bu qəbildən olan digər öhdəliklərin ödənilməsi" köməkçi bölməsində hər iki halda "ali" sözü çıxarılsın;

4.16. "263300. "Dövlət hesabına ali təhsil müəssisələrində təhsil xərcləri" paraqrafın adından və mətnindən "ali" sözü çıxarılsın;

4.17. 271200. "Müavinət" paraqrafının birinci cümləsinə "üzrə" sözündən sonra ", habelə hərbi qulluqçuların və xüsusi rütbəsi olan əməkdaşların müalicə olunmaları ilə əlaqədar" sözləri əlavə edilsin;

4.18. "271290. "Digər müavinətlər" maddəsinə "maddəsinə" sözündən sonra "hərbi qulluqçuların və xüsusi rütbəsi olan əməkdaşların müalicə olunmaları ilə əlaqədar verilən pul müavinəti, habelə" sözləri əlavə edilsin;

4.19. "272000. "Sosial yardım" köməkçi bölməsində birinci halda "müavinət," sözündən sonra "hərbi təhsilə qəbul edilənlərin ailələrinə ödənilən aylıq müavinət," sözləri əlavə edilsin;

4.20. "272290. "Digər müavinətlər" maddəsinə "maddəsinə" sözündən sonra "hərbi təhsilə qəbul edilənlərin ailələrinə ödənilən aylıq müavinət, habelə" sözləri əlavə edilsin;

4.21. "272990. "Digər ödənişlər" maddəsinə "maddəsinə" sözündən sonra "hərbi təhsilə qəbul edilən heyətə birdəfəlik ödənişlər, yığım əmanət hesabına pul köçürmələri, ipoteka ödənişləri üzrə xərclər, habelə" sözləri əlavə edilsin;

4.22. "279900. "Digər müavinətlər" paraqrafına "paraqrafına" sözündən sonra "hərbi qulluqçulara tərxis olunarkən verilən birdəfəlik müavinətlər və xüsusi rütbəsi olan əməkdaşlara xidmətdən tərxis olunmaya görə ödənişlər, habelə" sözləri əlavə edilsin;

4.23. "311100. "Tikili və avadanlıqlar" və "312100. "Tikili və avadanlıqların əsaslı təmiri" paraqraflarının birinci cümləsinə "ötürücü qurğular" sözlərindən sonra "və onların struktur komponentləri" sözləri əlavə edilsin;

4.24. "311150. "Maşın və avadanlıqlar" maddəsinə "kassa aparatları" sözlərindən sonra ", sayğaclar" sözü əlavə edilsin;

4.25. "310000. "Qeyri-maliyyə aktivləri" bölməsinin ikinci cümləsindən və"311000. "Torpaq, tikili və avadanlıqlar" köməkçi bölməsinin adından və mətnindən "torpaq," sözü çıxarılsın;

4.26. "311900. "Sair torpaq, tikili və avadanlıqlar" paraqrafının adından və mətnindən "torpaq," sözü çıxarılsın və mətninə "hərbi təyinatlı inventarların" sözlərindən sonra ", yanğınsöndürən balonların, məişət tullantıları və həmçinin tibbi tullantıların saxlanılması üçün konteynerlərin" sözləri əlavə edilsin;

4.27. "312000. "Əsaslı təmir" köməkçi bölməsinin, "311130. "Qurğular (tikintilər)" və "311140. "Ötürücü qurğular" maddələrinin birinci cümləsinə, "312130. "Qurğuların (tikintilərin) əsaslı təmiri" və "312140. "Ötürücü qurğuların əsaslı təmiri" maddələrinə, "311141. "Ötürücü qurğuların" və "311142. "Ötürücü qurğuların tikilməsi" yarımmaddələrinə "qurğuların" sözündən sonra "və onların struktur komponentlərinin" sözləri əlavə edilsin;

4.28. "311131. "Qurğuların (tikintilərin) alınması" və "311132. "Qurğuların (tikintilərin) tikintisi" yarımmaddələrinə "qurğuların (tikintilərin)" sözlərindən sonra "və onların struktur komponentlərinin" sözləri əlavə edilsin;

4.29. "312000. "Əsaslı təmir" köməkçi bölməsindən və "312900. Sair torpaq, tikili və avadanlıqların əsaslı təmiri" paraqrafının adından "torpaq," sözü çıxarılsın.

5. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı" yeni redaksiyada verilsin (əlavə olunur).

6. Bu Qərarın 4.1-ci, 4.3-cü, 4.5-ci bəndləri və 5-ci hissəsi 2025-ci ilin 1 yanvar tarixindən, 1.1-1.4-cü, 2.1-2.8-ci, 3.2-ci, 4.2-ci, 4.6-4.8-ci, 4.12-4.24-cü, 4.27-ci, 4.28-ci bəndləri 2026-cı ilin 1 yanvar tarixindən tətbiq edilir, digər bəndləri 2027-ci ilin 1 yanvar tarixindən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Balakən Rayon İcra Hakimiyyətinin başçısı kollektivə təqdim olunub





Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Balakən Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Natiq Nuşravan oğlu Ağayev Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, Zeynal Nağdəliyev təqdimatda çıxış edərək, dövlət başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

N.Ağayev ona göstərilən etimada görə minnətdarlıq edib.

# Göygöl Rayon İcra Hakimiyyətinin başçısı kollektivə təqdim edilib





Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Göygöl Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Vüqar Vahid oğlu Novruzov Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, Zeynal Nağdəliyev təqdimatda çıxış edərək, dövlət başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

V.Novruzov ona göstərilən etimada görə minnətdarlıq edib.

# Xankəndi şəhərində türk dövlətlərinin təhlükəsizlik orqanlarının iclası keçirilmişdir

**2025-ci il noyabrın 14-də Xankəndi şəhərində "Beynəlxalq nəqliyyat xətlərinin təhlükəsizliyinin təmin olunmasında xüsusi xidmət orqanlarının rolu" mövzusunda Türk Dövlətlərinin Xüsusi Xidmət Orqanları Konfransının XXVII plenar iclası keçirilmişdir.**



Tədbirdə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-polkovnik Əli Nağıyev, Xarici Kəşfiyyat Xidmətinin rəisi general-polkovnik Orxan Sultanov, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstanın müvafiq xidmət rəhbərləri, həmçinin fəxri qonaq qismində Macarıstandan olan nümayəndə iştirak etmişlər.

Tədbiri açıq elan edən DTX-nin rəisi general-polkovnik Əli Nağıyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tədbir iştirakçılarına ünvanladığı müraciəti səsləndirdikdən sonra plenar iclasın mövzusu ilə bağlı geniş nitqlə çıxış etmişdir. Müasir dövrdə beynəlxalq sabitliyə çoxsaylı təhdidlərin dünyanın nəqliyyat və kommunikasiya xətlərinin təhlükəsizliyinə təsirsiz ötüşmədiyini və türk dövlətlərinin önəmli nəqliyyat şəbəkələrinin üzərində yerləşdiyini qeyd edən Xidmət rəisi bildirmişdir ki, həmin nəqliyyat marşrutlarının təhlükəsizliyinin təmin olunması üçün sözügedən ölkələr arasında müvafiq sahədə əməkdaşlıq əlaqələrinin davamlı şəkildə möhkəmləndirilməsi, birgə səylərin hər zaman səfərbər edilməsi, məlumat mübadiləsinin daha intensiv aparılması vacibdir.

General-polkovnik Əli Nağıyev beynəlxalq nəqliyyat və kommunikasiya xətlərinin təhlükəsiz fəaliyyətinin təminatında, onların beynəlxalq terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlıq, qaçaqmalçılıq və sair mənfi təzahürlü hallardan qorunmasında xüsusi xidmət orqanlarının oynadığı roldan da ətraflı söhbət açmışdır.

Vurğulanmışdır ki, Uzaq Şərqdən Avropaya qədər uzanan Orta dəhlizin vacib tərkib hissəsi olan Zəngəzur dəhlizinin reallaşdırılmasına bəzi destruktiv dairələr hər vəchlə maneçilik törətməyə çalışır və bu amil göstərilən istiqamətdə təhlükəsizliyin etibarlı təmin olunmasını mühüm vəzifələrdən biri kimi qarşıya qoyur.

Daha sonra tədbir digər iştirakçıların çıxışları və qarşılıqlı müzakirələrlə davam etmiş, sonda plenar iclasın yekun sənədi imzalanmışdır.

# *Heydər MƏMMƏDOV:* "Prokurorluq orqanlarına qulluğa qəbulla əlaqədar 27-ci müsabiqənin yazılı imtahan mərhələsində 171 hüquqşünas biliyini sınayır"

**Bunu Baş Prokurorluğun Müsabiqə Komissiyasının sədri, baş prokurorun müavini Heydər Məmmədov prokurorluq orqanlarında qulluğa qəbul olunmaq arzusunda olan şəxslər üçün vakant ştat vahidləri üzrə elan edilmiş növbəti - 27-ci müsabiqənin yazılı imtahan mərhələsi zamanı açılış nitqində deyib.**



"Müsabiqə yolu ilə qulluğa qəbul olunmuş hüquqşünasların əksəriyyəti halhazırda yuxarı təsnifatlı vəzifələrə irəli çəkilib. Baş Prokurorluğun müxtəlif strukturlarının rəhbərləri eləcə də rayon və şəhər prokuroru kimi fəaliyyət göstərirlər. Dövlət başçısı tərəfindən onlara ali xüsusi rütbələr verilib".

Heydər Məmmədov bildirib ki, bu gün 50 ştat vahidi üzrə 27-ci müsahibənin ikinci turu keçirilir:

"Birinci turda müvəffəqiyyət qazanmış namizədlərdən 171-i bu gün öz biliyini sınayır".

"Hər bir gənc prokurorluq əməkdaşının nailiyyəti birinci növbədə möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən aparılan uğurlu və rezultativ gənclər siyasətinin təcəssümüdür", - deyə baş prokurorun müavini qeyd edib.

# YAP-ın müasir dövlətçilik tarixində xüsusi rolu var









**"Konstitusiya və Suverenlik İli" çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının 33-cü ildönümünə həsr olunmuş "Yeni Azərbaycan Partiyasının müasir dövlətçilik tariximizdə yeri və rolu" adlı tədbir keçirilib.**

Tədbirdən öncə konservatoriyanın inzibati binasında müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq Ulu Öndərin əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin, həmçinin bir neçə gün öncə Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların xatirəsi birdəqiqəlik sükutla anılıb. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Azərbaycan Milli Konservatoriyasının rektoru Kamilə Dadaş-zadə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 33 il bundan əvvəl - 1992-ci ilin noyabr ayında Yeni Azərbaycan Partiyasının yaradılmasının müasir dövlətçilik tariximizdə əlamətdar hadisə olduğunu qeyd edib. Rektor Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının ölkəmizi daim irəliyə apararaq və önəmli nailiyyətlərə imza ataraq ümumxalq etimadı qazandığını vurğulayıb.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Ümummilli Lider Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr verdiyini söyləyib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi tarixi nailiyyətləri, 2020-ci ildə qazandığı şanlı Zəfəri və 2023-cü ildə ölkəmizin suverenliyinin tam bərpa olunduğunu diqqətə çatdıraraq vurğulayıb ki, qazanılan uğurların əsasında dövlət başçısının milli maraqlara əsaslanan məqsədyönlü siyasəti və xalq-iqtidar birliyi dayanır.

Sonra çıxış edənlər ölkəmizdə mədəniyyət sahəsində görülən işlər və qazanılan uğurlardan, həmçinin ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının mənəvi dəyərlərə və dövlət mənafelərinə əsaslanan fəaliyyətindən bəhs ediblər.

Tədbirdə Yeni Azərbaycan Partiyasının sıralarına yeni qəbul olunmuş konservatoriya əməkdaşlarına üzvlük vəsiqələri təqdim edilib.

Daha sonra Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

Tədbirin sonunda bədii hissə təqdim olunub, xatirə şəkli çəkdirilib.

***"Azərbaycan"***

# Konstitusiya Məhkəməsində beynəlxalq konfransın iştirakçıları ilə görüş

Konstitusiya Məhkəməsində Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümünə həsr olunan "Konstitusiya və qanunun aliliyi müasir hüquq sistemlərində" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etmək üçün Bakı şəhərində səfərdə olan Qırğızıstan Konstitusiya Məhkəməsinin sədri Emil Oskonbayev, Türkiyənin Konstitusiya Məhkəməsinin hakimi Yıldız Seferinoğlu və Tailandın Konstitusiya Məhkəməsinin hakimi Noppadon Teppitakın sədrlik etdiyi nümayəndə heyətləri ilə görüş keçirilib.



Bu barədə AZƏRTAC-a Konstitusiya Məhkəməsindən məlumat verilib.

Bildirilib ki, görüşdə sədr Fərhad Abdullayev Konstitusiya Məhkəməsinin fəaliyyəti, qərar qəbuletmə proseduru, ölkəmizdə məhkəmə-hüquq sahəsində aparılan islahatlar və tətbiq edilən yeniliklər barədə məlumat verib, məhkəmələr arasında əməkdaşlığın vacibliyini vurğulayıb.

Sədr qeyd edib ki, səfər çərçivəsində keçirilən görüşlərdə təcrübə və fikir mübadiləsi ölkələrimiz arasında məhkəmə sahəsində əlaqələrin daha da dərinləşməsinə, məhkəmə-hüquq əməkdaşlığının daha da möhkəmlənməsinə və gələcək əməkdaşlığın inkişafına mühüm töhfə verəcək.

Qonaqlar Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyi münasibətilə bir daha öz təbriklərini ifadə edib, beynəlxalq konfransın uğurlu və səmərəli keçdiyini vurğulayıb, Konstitusiya Məhkəməsi ilə qarşılıqlı əlaqələrin inkişafında maraqlı olduqlarını qeyd edərək qonaqpərvərliyə və səmimi qəbula görə bir daha minnətdarlıqlarını bildiriblər.

Görüş zamanı geniş fikir mübadiləsi aparılıb.

Sonda qonaqlar Konstitusiya Məhkəməsinin binası ilə tanış olublar.

# Azərbaycan Rusiyaya nota verib

**Noyabrın 14-də Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə çağırılıb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı noyabrın 14-də təqribən gecə saat 1:00-da Ukraynanın paytaxtı Kiyev şəhərinə raket və dron hücumları nəticəsində "İsgəndər" tipli raketlərdən birinin səfirliyin ərazisinə düşməsi ilə bağlı kəskin etiraz bildirilib və səfirə müvafiq nota təqdim edilib.

Son partlayış nəticəsində səfirliyin ərazisinin hasarının bir hissəsinin tamamilə dağıldığı, konstruksiyaların, xidməti avtomobillərin, inzibati binanın və səfirliyin Konsulluq şöbəsinin zədələndiyi, həmçinin diplomatik nümayəndəliyin ərazisinə ciddi ziyan vurulduğu, xoşbəxtlikdən bu zərbənin insan tələfatına səbəb olmadığı qarşı tərəfə bildirilib.

Beynəlxalq hüququn norma və prinsiplərinə zidd olan bu kimi raket hücumlarının əvvəllər də baş verdiyi xatırladılıb. Xüsusilə 2022-ci il martın 10-da Azərbaycanın Xarkovdakı fəxri konsulluğunun binasına aviazərbə nəticəsində inzibati binanın ciddi dağıntılara məruz qaldığı və xidməti avtomobilin yararsız hala düşdüyü qeyd edilib.

Bununla yanaşı, 2024-cü il yanvarın 2-də Rusiya tərəfindən "Kinjal" raketi ilə həyata keçirilən hava zərbəsi nəticəsində səfirliyin inzibati binasından təqribən 35 addım məsafədə diametri təxminən 3 metr olan krater yarandığı və yer səthindən 8 metr dərinlikdə detonasiya baş vermədiyi üçün partlamamış sursat aşkar edildiyi bildirilib.

2025-ci il avqustun 28-də isə Azərbaycanın Ukraynadakı səfirliyinə təxminən 50 metr məsafədə endirilmiş hava zərbəsi nəticəsində səfirliyin inzibati binasının və Konsulluq şöbəsinin, səfirin iqamətgahının zədələndiyi, həmçinin diplomatik nümayəndəliyin ərazisinə ciddi ziyan dəydiyi diqqətə çatdırılıb.

Eyni zamanda 2025-ci il avqustun 8-18-də Odessa vilayətində SOCAR şirkətinin neft bazasına dron hücumları edildiyi, nəticədə işçilərin xəsarət aldığı, infrastruktura böyük zərər vurulduğu xatırlanıb. Bütün bu faktların raket hücumlarının məqsədli olması barədə suallar yaratdığı vurğulanıb. Eyni zamanda bütün bu faktlara dair Rusiya tərəfinə əvvəllər rəsmi notalarla məlumat verildiyi, həmçinin Ukraynadakı diplomatik təmsilçiliklərimizin yerləşdiyi binaların koordinatlarının hələ 2022-ci ilin aprelində Rusiya tərəfinə təqdim edildiyi, koordinatların Rusiya Müdafiə Nazirliyi tərəfindən nəzərə alınacağının bildirildiyi xatırlanıb.

Görüşdə diplomatik təmsilçiliklərimizə bu kimi hücumların qəbuledilməz olduğu diqqətə çatdırılıb, Rusiya tərəfindən məsələ üzrə müvafiq araşdırma aparılması və ətraflı izahat verilməsi tələb edilib.

# Leyla Əliyeva Mingəçevirdə şəhid ailəsini ziyarət edib, bir sıra sosial müəssisələrlə tanış olub








**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva noyabrın 13-də Mingəçevirə səfər edib.**

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Leyla Əliyeva əvvəlcə Vətən uğrunda canlarını fəda etmiş şəhid qardaşlar Əhmədovların ailəsini ziyarət edib. O, şəhidlərin xatirəsini ehtiramla yad edib, şəhid anası Sevinc Əhmədova ilə söhbət edib, qəhrəman oğulların həyatı, döyüş yolu, eləcə də ailənin qayğı və ehtiyacları ilə maraqlanıb.

Əli və İslam Əhmədov qardaşları Vətən müharibəsi zamanı eyni gündə şəhid olublar. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Əli Əhmədov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları, İslam Əhmədov isə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunublar.

Daha sonra Leyla Əliyeva Mingəçevir şəhərində yerləşən yaşlılar üçün "Yaşa" mərkəzinə gəlib. Mərkəzdə pensiya yaşında olan şəxslər müxtəlif əl işləri, dekorativ-tətbiqi sənət nümunələri və digər yaradıcılıq fəaliyyəti ilə məşğul olur, onlar üçün mütəmadi olaraq maarifləndirici və mədəni tədbirlər təşkil edilir. Leyla Əliyeva yaşlılarla səmimi söhbət edib, onların hazırladıqları əl işlərinə baxıb, məşğələlərin məzmunu və mərkəzin gələcək fəaliyyət planları barədə məlumat alıb.






Səfər çərçivəsində Leyla Əliyeva Mingəçevir Uşaq Nevroloji Sanatoriyasını ziyarət edib. Sanatoriyada daimi əsasda 20-yə yaxın uşaq müalicə və reabilitasiya alır. Müəssisədə yaradılan şərait, tibbi xidmətin təşkili, uşaqlar üçün reabilitasiya proqramları haqqında ətraflı məlumat verilib. Leyla Əliyeva balaca pasiyentlərlə maraqlanıb, həkim və tibb personalı ilə söhbət edərək onların fəaliyyətinə uğurlar arzulayıb. Leyla Əliyeva tərəfindən Uşaq Nevroloji Sanatoriyasına ayaq və əl reabilitasiyası üçün müxtəlif avadanlıqlar, o cümlədən robotik reabilitasiya əlcəkləri, həmçinin müxtəlif terapiya cihazları hədiyyə olunub.

Daha sonra Leyla Əliyeva Mingəçevirdə Üzeyir Hacıbəyli adına 1 nömrəli onbirillik musiqi məktəbində olub. Məktəbdə tar, kaman, qarmon və digər siniflər üzrə tədrislə tanış olan Leyla Əliyevaya təhsil ocağının şagirdlərinin müxtəlif yerli və beynəlxalq müsabiqələrdə uğurla iştirakı barədə məlumat verilib. Bildirilib ki, 70-dən çox yaşı olan musiqi məktəbində fortepiano, violin, tar, qarmon, kamança, nağara ifaçılığı və xanəndəlik ixtisasları tədris edilir. Mədəniyyət Nazirliyinin nəzdindəki tədris ocağı 2011-ci ildən onbirillik musiqi məktəbi kimi fəaliyyətini davam etdirir. Hazırda məktəbdə 600-dən çox şagird təhsil alır. Leyla Əliyeva tərəfindən 30-dan çox zəruri musiqi aləti - tar, kamança, qarmon, violin, royal, piano və s. tədris müəssisəsinə hədiyyə edilib.

Daha sonra məktəbin akt zalında şagirdlərin ifasında konsert proqramı təqdim olunub.

# Leyla Əliyeva Mingəçevirdə yerləşən avarçəkmə bazasında idmançılarla görüşüb

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Mingəçevir şəhərinə səfəri çərçivəsində avarçəkmə bazası ilə tanış olub.**



AZƏRTAC xəbər verir ki, Leyla Əliyevaya Kür çayı üzərində salınmış "Kür" Olimpiya Tədris-İdman Mərkəzinin fəaliyyəti, burada yaradılan infrastruktur, idmançıların hazırlıq prosesi və qazanılan nailiyyətlər barədə ətraflı məlumat verilib. Bildirilib ki, "Kür" Olimpiya Tədris-İdman Mərkəzi Avropada, eləcə də MDB məkanında bənzəri olmayan avarçəkmə bazalarından biridir.




Mərkəz avarçəkmə idman növü üzrə milli komandanın əsas hazırlıq bazalarından biri kimi fəaliyyət göstərir. Burada müxtəlif yaş qruplarına aid idmançıların peşəkar səviyyədə məşq etmələri üçün müasir standartlara cavab verən şərait yaradılıb, zəruri infrastruktur, idman avadanlıqları və təhlükəsizlik tələblərinə cavab verən sistemlər təmin olunub.

Görüş zamanı həmçinin gənclərin sağlam həyat tərzinə cəlb olunması, avarçəkmə idman növünün daha geniş təşviqi və regionda idman infrastrukturunun gücləndirilməsi istiqamətində görülən işlər diqqətə çatdırılıb.

Leyla Əliyeva avarçəkmə üzrə məşq prosesini izləyib və idmançılarla səmimi söhbət edib.

# Leyla Əliyeva Mingəçevirdə ekoloji aksiyalarda iştirak edib








**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Mingəçevirə səfəri çərçivəsində bir sıra ekoloji aksiyalarda iştirak edib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Leyla Əliyevanın iştirakı ilə Mingəçevir su anbarına 25 min sazan balığı buraxılıb. Aksiya su bioresurslarının bərpası, balıq ehtiyatlarının artırılması və su hövzələrinin ekoloji tarazlığının qorunmasına töhfə vermək məqsədi daşıyır.

Daha sonra Leyla Əliyeva Korçay Dövlət Təbiət Yasaqlığı ərazisində həyata keçirilən reintroduksiya prosesində iştirak edib. Yasaqlığa Şirvan Milli Parkının ərazisindən gətirilmiş 10 baş ceyran buraxılıb. Ceyranların yasaqlıq ərazisinə köçürülməsində məqsəd mövcud ceyran populyasiyası arasında gen dözümlülüyünü artırmaq, müxtəlif xəstəliklərin qarşısını almaq və bu ərazidə daha sağlam ceyran nəslinin formalaşdırılmasıdır. Hazırda Korçay Dövlət Təbiət Yasaqlığında ceyranların sayı 810 baş təşkil edir.

Səfər proqramı çərçivəsində həmçinin Mingəçevir şəhərində ağacəkmə aksiyası təşkil olunub. Aksiyada Leyla Əliyevanın iştirakı ilə 100 nəfər könüllü tərəfindən Eldar şamı və sərvdən ibarət 200 ağac əkilib. Eldar şamı və sərv quraqlığa davamlı, regionun torpaq-iqlim şəraitinə uyğun ağac növləri kimi ətraf mühitin mühafizəsi və yaşıllıq zolağının genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, bu ekoloji aksiyalar IDEA İctimai Birliyi tərəfindən Azərbaycanda ətraf mühitin mühafizəsi və biomüxtəlifliyin qorunması istiqamətində mütəmadi olaraq görülən işlərin tərkib hissəsidir.

# Azərbaycanın xarici siyasətinin uğurları



# Biz təkcə dost və qardaş ölkələr deyilik

## Həm də yaxın ticarət tərəfdaşıyıq

**Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında hərtərəfli əməkdaşlıq intensiv inkişaf edir. Bunu ali səviyyədə qarşılıqlı səfərlər, fəal siyasi dialoq və anlaşma şərtləndirir. Bu mənada Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün də özünəməxsus əhəmiyyəti var.**

Prezident İlham Əliyevin bu tədbirdə üçüncü dəfə iştirakı gözlənilir. Dövlətimizin başçısı bundan əvvəl - 2023-cü ildə Düşənbədə və 2024-cü ildə Astanada keçirilən Məşvərət görüşünə dəvət alıb. Növbəti görüş isə Özbəkistanda olacaq. Təsadüfi deyil ki, səfər ərəfəsində Prezidentimiz Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibə verib.

Dövlətimizin başçısı ilk növbədə qeyd edib ki, Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik vahid tarixi, mədəni, coğrafi və geosiyasi məkanı formalaşdırır. Xəzər dənizi ölkələrimizi fiziki olaraq ayırsa da, əslində, mühüm birləşdirici amildir. Belə ki, bu gün Xəzər sadəcə coğrafi anlayış deyil, eləcə də xalqlarımızın strateji birliyinin, iqtisadi potensialının və tarixi əməkdaşlığının rəmzidir. Ölkələrimizi bu coğrafiya ilə yanaşı, həm də tarixi-mədəni əlaqələr, ortaq dini və mənəvi dəyərlər, adət-ənənələr birləşdirir. Azərbaycan regiondakı bütün ölkələrlə ən yüksək səviyyədə əməkdaşlığın hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir.

Özbəkistan və Azərbaycana gəldikdə isə qısaca deyək ki, bunlar bir-birinə qardaş ölkə və etibarlı müttəfiqdir. Dövlətlərarası münasibətlərimiz möhkəm təməl üzərində uğurla inkişaf edir. Əlaqələrin daha da inkişaf etməsində iqtisadi unkişafın da mühüm rolu var. İqtisadi-ticari əməkdaşlığın dinamikası tam məmnunluq doğurur və perspektivlər də mövcuddur. İndiyədək ölkəmizdə təxminən 120 Özbəkistan investisiyalı kommersiya təşkilatı qeydiyyatdan keçib. Onlar iqtisadiyyatın sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat və xidmət sahələrində uğurla fəaliyyət göstərirlər.

Azərbaycanla Özbəkistan arasında ticarət sürətli templə inkişaf edir. Keçən il əmtəə dövriyyəsi iki ölkə arasında 252 milyon dollar təşkil edib və cari ilin yanvar-sentyabr aylarında bu göstərici 87,5 faiz artaraq 319 milyon dollara çatıb. Həmçinin sərmayələr sahəsində əməkdaşlıq davam edir. Xatırladaq ki, iki il əvvəl həm ölkələrimizin daxilində, həm də üçüncü ölkələrdə sərmayə qoyuluşunu nəzərdə tutan, ümumi kapitalı 500 milyon dollar olan Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti yaradılıb. Daha bir önəmli hadisə isə Xankəndidə birgə müəssisənin - tikiş fabrikinin yaradılmasıdır.

Prezident İlham Əliyev Azərbaycan və Özbəkistan arasında əməkdaşlığa dair Hökumətlərarası Komissiyanın iqtisadi əlaqələrin inkişafı və perspektivli işbirliyi istiqamətlərinin müəyyənləşdirilməsi sahəsindəki aktiv fəaliyyətini də xüsusi qeyd edib: "Artıq mütəmadi olaraq keçirilən Azərbaycan-Özbəkistan Regional Forumu bu istiqamətdə əməkdaşlığın təşviqi üçün səmərəli platformadır. Azərbaycan qardaş Özbəkistan ilə iqtisadiyyatın bütün sahələrində əməkdaşlığı daha da genişləndirməkdə maraqlıdır. Bunun üçün güclü siyasi iradə və əhəmiyyətli potensial mövcuddur. Bu günədək iqtisadi münasibətlərimizin daha da inkişafı üçün etibarlı hüquqi baza yaradan təxminən 200 sənəd imzalanıb. Azərbaycan hər iki tərəfin maraqlarına uyğun olan və xalqlarımız arasında dostluğun, tərəfdaşlığın möhkəmlənməsinə töhfə verən qarşılıqlı faydalı əməkdaşlığı bundan sonra da dəstəkləyəcək".

Əməkdaşlığın əsas istiqamətlərindən biri şaxələndirilmiş nəqliyyat və logistika infrastrukturunun inkişafı, tranzit imkanlarının genişləndirilməsidir. Belə ki, ölkələrimiz Orta Dəhliz Beynəlxalq Nəqliyyat Marşrutunda iştirak edir və bu çərçivədə Azərbaycan Özbəkistan və Mərkəzi Asiya dövlətləri üçün mühüm tranzit ölkə qismində çıxış edir. Müsahibədə son dövrlər Orta dəhliz vasitəsilə ixrac imkanlarının və daşımaların artmasının strateji əhəmiyyəti vurğulanıb.

Müsahibədən keçən il ölkələrimiz arasında tranzit daşımaların həcminin ondan əvvəlki illə müqayisədə 18 faizdən çox artaraq 1,3 milyon tonu keçdiyi də məlum olur. Cari ilin ilk doqquz ayında isə həmin rəqəm təxminən bir milyon tona çatıb ki, bu da nəqliyyat mübadilələrində dinamik artımı nümayiş etdirir.

"Azərbaycanda yaradılan müasir nəqliyyat infrastrukturu, o cümlədən ticarət donanması, yaxın illərdə gücü 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və ölkənin doqquz beynəlxalq hava limanı da daxil olmaqla, bütün bunlar Azərbaycanın qlobal nəqliyyat və logistika qovşağı kimi rolunu gücləndirən amillərdir" deyən dövlət başçısı bundan əlavə, Zəngəzur dəhlizinin (TRIPP) açılmasının bütün Mərkəzi Asiya ölkələrinə fayda gətirəcəyini də bir daha diqqətə çatdırıb.

Son illərdə energetika sektorunda əməkdaşlığımız da möhkəmlənir və şaxələnir. Prioritetlərdən biri "yaşıl enerji"nin inkişafıdır. 2024-cü ildə Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin inteqrasiyasına və bərpaolunan enerji mənbələrinin təşviqinə yönəlmiş bir sıra strateji sənədlər imzalayıblar. Bunlar özündə regionun davamlı inkişafını və enerji əməkdaşlığını gücləndirmək üçün yeni layihələrin reallaşmasını ehtiva edir. SOCAR Özbəkistana Azərbaycanın neft məhsullarını və neft-kimya məhsullarını ixrac edir. 2016-cı ildən uğurla fəaliyyət göstərən "Neftegaztexnologiya" birgə müəssisəsi də sözügedən əməkdaşlığın bəhrəsidir.

Hava nəqliyyatının inkişafı və şəhərlərimiz arasında uçuşların intensivliyi xüsusi əhəmiyyət kəsb edir. Bu, gediş-gəliş üçün əlverişli imkan yaradır. Beləcə, dostlar və qardaşlar bir-birinin evinə, dost və qardaş xalqlar isə bir-birinin ölkəsinə həmişə xoşməramlı səfərlər edir və məhəbbətlə qarşılanırlar.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Strateji müttəfiqliyin yüksəliş dövrü

## Azərbaycan-Özbəkistan münasibətləri möhkəm təməl üzərində uğurla inkişaf edir

**Qədim tarixi köklərə malik ənənəvi dostluq, qardaşlıq telləri ilə bir-birinə bağlı olan Azərbaycan və Özbəkistanın dövlətlərarası qarşılıqlı əlaqələri bu gün geniş spektr üzrə ardıcıl surətdə inkişafdadır. Bu qarşılıqlı fəaliyyət siyasi, ticari-iqtisadi, elmi-texniki, mədəni-humanitar və bir sıra başqa sahələri əhatə edir. Hər iki ölkə həm ikitərəfli əsasda, həm də beynəlxalq və regional təşkilatlar çərçivəsində faydalı əməkdaşlığın hərtərəfli genişlənməsinə daim diqqət yetirir. Hər iki ölkənin liderinin qarşılıqlı dövlət səfərləri və əldə edilən razılaşmalar inkişaf etməkdə olan münasibətləri daha da zənginləşdirir.**

Hazırda Azərbaycan-Özbəkistan əlaqələrinin yüksək səviyyəyə çatmasında Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin şəxsi münasibətləri həlledici rol oynayır. Təsadüfi deyil ki, hər iki prezident dövlət və rəsmi səfərlərdən əlavə, müxtəlif beynəlxalq tədbirlər çərçivəsində də tez-tez görüşürlər. Bu gün xalqlarımız arasında ikitərəfli əməkdaşlıq keyfiyyətcə yeni mərhələyə qədəm qoyub.

Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibə verən Prezident İlham Əliyev iki dost ölkə arasındakı münasibətləri yüksək dəyərləndirib, mövcud əlaqələr, iqtisadi münasibətlər və gələcək perspektivlərdən danışıb.

Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə əlaqələrini, əməkdaşlığın indiki səviyyəsini qiymətləndirən Prezident İlham Əliyev deyib ki, respublikamız və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik vahid tarixi, mədəni, coğrafi və geosiyasi məkanı formalaşdırır. İlk baxışda Azərbaycanı Mərkəzi Asiya ölkələrindən fiziki olaraq ayırsa da, Xəzər dənizi, əslində, mühüm birləşdirici amildir. Bu gün Xəzər dənizi sadəcə coğrafi anlayış deyil, o, hər şeydən əvvəl xalqlarımızın strateji birliyinin, iqtisadi potensialının və tarixi əməkdaşlığının rəmzidir. Ölkələrimizi təkcə coğrafiya deyil, həm də tarixi-mədəni əlaqələr, ortaq dini və mənəvi dəyərlər, adət-ənənələr birləşdirir: "Azərbaycan regiondakı bütün ölkələrlə ən yüksək səviyyədə əməkdaşlığın hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. Hesab edirəm ki, Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında ikitərəfli əsasda qurulan strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri, həmçinin fəal siyasi dialoqumuz və qarşılıqlı səfərlərimiz bu əməkdaşlıq formatının uğurunda mühüm rol oynayır" deyən İlham Əliyev vurğulayb ki, son bir neçə ildə dövlət başçıları arasında qarşılıqlı səfərlərin və təmasların dinamikası münasibətlərimizin yüksək səviyyəsini əyani şəkildə nümayiş etdirir. Belə ki, son üç ildə Mərkəzi Asiya dövlətlərinin başçıları Azərbaycana təxminən 30 səfər ediblər və İlham Əliyev də həmin müddətdə qardaş ölkələrdə 13 dəfə səfərdə olub.

Prezident Azərbaycan ilə Özbəkistan arasında diplomatik münasibətlərin qurulmasının hazırkı 30-cu ildönümündə ikitərəfli əlaqələrin vəziyyətini də xarakterizə edərək bildirib ki, Özbəkistan Azərbaycan üçün qardaş ölkə və etibarlı müttəfiqdir. Bizi ortaq köklər, mənəvi dəyərlər, dil, etnik yaxınlıq, zəngin tarixi və mədəni irs birləşdirir. Əsrlər boyu qardaş xalqlarımız bir-birinə dərin rəğbət və hörmət bəsləyiblər. Sevindirici haldır ki, dövlətlərarası münasibətlərimiz bu möhkəm təməl üzərində uğurla inkişaf edir.

"Bu gün Azərbaycan ilə Özbəkistan arasında münasibətlər ən yüksək - müttəfiqlik səviyyəsindədir. Münasibətlərimizin inkişafına təsir edən digər, əhəmiyyəti heç də az olmayan amil Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyev ilə aramızda yaranan şəxsi etimad və dostluq münasibətləridir. Prezidentin dövlətlərarası münasibətlərimizin inkişafına şəxsi töhfəsini, onun çoxşaxəli əməkdaşlığımızın ardıcıl olaraq gücləndirilməsinə daim diqqət yetirməsini xüsusi vurğulamaq istərdim.

Qardaş Özbəkistanın lideri, görkəmli dövlət xadimi və Azərbaycanın böyük dostu Prezident Şavkat Mirziyoyevi ölkəmizdə salamlamaq bizim üçün həmişə böyük şərəf və məmnuniyyətdir. Qeyd etdiyiniz kimi, son bir il yarım ərzində beş belə səfər olub. Bütün bunlar münasibətlərimizin yüksək dinamikasını əyani şəkildə göstərir".

Xatırladaq ki, keçən ilin avqustunda İlham Əliyevin Özbəkistana dövlət səfəri, bu ilin iyulunda isə Özbəkistan Prezidentinin Azərbaycana dövlət səfəri olub. Bu tarixi səfərlər zamanı onlarca mühüm sənəd, o cümlədən Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə, Müttəfiqlik münasibətləri haqqında Müqavilə, "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilənin həyata keçirilməsi üzrə 2025-2029-cu illər üçün Yol Xəritəsi" və digər sənədlər imzalanıb. Qısa müddət ərzində çox böyük işlər görülüb. Bütün bu qarşılıqlı səfərlər Azərbaycan-Özbəkistan münasibətlərinin həm ikitərəfli əsasda, həm də Mərkəzi Asiya və Xəzər regionu da daxil olmaqla, vahid coğrafi məkanda yeni tərəfdaşlıq imkanlarının reallaşdırılması baxımından bütün sahələrdə möhkəmləndirilməsinə əhəmiyyətli təkan verib.

Həmçinin 2023-cü ilin avqustunda təsis edilmiş Ali Dövlətlərarası Şura da münasibətlərimizin inkişaf strategiyasının müəyyənləşdirilməsində xüsusi rol oynayır. Prezident qeyd edib ki, şura artıq qarşılıqlı dövlət səfərləri çərçivəsində 2024-cü il avqustun 22-də Daşkənddə və 2025-ci il iyulun 2-də Bakıda iki iclas keçirib.

Ölkələrimiz arasında əməkdaşlıq təkcə ikitərəfli formatda deyil, həm də beynəlxalq platformalarda uğurla inkişaf edir. Azərbaycan və Özbəkistan Türk Dövlətləri Təşkilatının fəal üzvləridir və türk birliyinin möhkəmləndirilməsinə mühüm töhfələr verirlər. Bundan əlavə, münasibətlərimiz BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, AQEM və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf edir.

İqtisadi-ticari əməkdaşlığın dinamikası tam məmnunluq doğurur və onun səviyyəsinin daha da artmasına kömək edir. Prezident bildirib ki, hər iki tərəf qarşılıqlı əməkdaşlığı genişləndirmək üçün əhəmiyyətli səylər göstərir, yeni layihələr irəli sürür və birgə təşəbbüslərin həyata keçirilməsinə xüsusi əhəmiyyət verir. Bu gün Azərbaycanda təxminən 120 Özbəkistan investisiyalı kommersiya təşkilatı qeydiyyatdan keçib və iqtisadiyyatın müxtəlif istiqamətlərində - sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat və xidmət sahələrində uğurla fəaliyyət göstərir.

Azərbaycanla Özbəkistan arasında ticarət sürətli templə inkişaf edir. Belə ki, 2024-cü ildə əmtəə dövriyyəsi 252 milyon ABŞ dolları təşkil edib və 2025-ci ilin yanvar-sentyabr aylarında bu göstərici keçən ilin eyni dövrü ilə müqayisədə 87,5 faiz artaraq 319 milyon ABŞ dollarına çatıb.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

17 Noyabr Milli Dirçəliş Günüdür

# Xalqımızın azadlıq mübarizəsinin başlanğıcı

**17 noyabr 1988-ci il Azərbaycan tarixində yalnız bir təqvim günü deyil, min illərin tarixi sınaqlarından çıxmış bir xalqın azadlıq mübarizəsinin başlanğıcı, müllətin özünə qayıdış günüdür. Erməni separatçılarının Topxana meşəsində törətdiyi ekoloji vandalizmə etiraz olaraq başlayan 17 noyabr hərəkatı sonradan azadlıq mübarizəsinə, xalq iradəsinin nümayişinə çevrildi. Bu, təkcə təbiətimizin məhv edilməsi, ağacların kəsilməsi ilə bağlı deyildi, həm də xalqımızın səbir kasasını daşıran, illərlə içində saxladığı narazılığın üzə çıxması idi.**

Eyni vaxtda Moskvanın dəstəyi ilə Dağlıq Qarabağ Muxtar Vilayətində separatçılıq hərəkatı "miatsum" şüarı altında şiddətləndirilir, vilayətin qeyri-qanuni olaraq Ermənistana birləşdirilməsi tələbi səsləndirilirdi. Azərbaycanlılar isə öz yurdlarında təzyiqlərə, təhqirlərə, zorakılıqlara məruz qalırdılar. Bu proseslər xalqda milli özünüdərk hissini daha da gücləndirirdi. Azərbaycan yalnız öz gücü ilə ayaqda qala bilərdi.

Minlərlə insanın Bakının Azadlıq meydanına çıxması azadlığa, ədalətə, milli oyanışa çağırış, müstəqilliyə gedən yolun ilk addımı idi. Milli Dirçəliş Gününün mahiyyəti də məhz bundadır: xalq öz gücünə, birliyinə və iradəsinə inanmağa başladı.

Ayağa qalxan xalqımız SSRİ rəhbərliyinin hadisələrə "biganəliyinin", müşahidəçi mövqedə dayanmasının bir planın tərkib hissəsi olduğunu anlayırdı. Bu bir həqiqətdir ki, Azərbaycan xalqı ayağa qalxmasaydı, sözsüz ki, ermənipərəst Mixail Qorbaçov torpaqlarımızı Ermənistana peşkəş edəcəkdi.

Topxana meşəsində erməni separatçılarının qanunsuz tikinti aparmaq istəyi və təbiətin qəsdən məhv edilməsi sadəcə ekoloji terror deyildi, Azərbaycan xalqına qarşı illərdir davam edən düşmənçiliyin yeni dalğası idi. Xalqın səbir kasası dolmuşdu. 1988-ci il noyabrın 17-də Bakının Azadlıq meydanında minlərlə insanın bir araya gəlməsi ilə Azərbaycan xalqının uzun illər boğulmuş səsi yenidən dirçələrək tarix səhnəsinə qayıtdı.

Noyabrın 17-də Bakının Azadlıq meydanında başlayan kütləvi etirazlar sovet məkanında analoqu olmayan bir hadisə idi. Bu, rejimə qarşı bir xalqın kütləvi etirazı idi. İnsanlar yalnız ağacların qırılmasına yox, öz hüquqlarının tapdanmasına, torpaqlarının işğalına, soydaşlarının didərgin salınmasına, ədalətsizliyə və susdurulmaya etiraz edirdilər. Əslində, 17 noyabrda başlanan meydan hərəkatı azadlıqa təşnə olan bir xalqın "biz varıq" deyə yeni tarixə imza atdığı gün oldu. 1988-ci ilin noyabrında başlayan mitinqlər günlərlə, həftələrlə davam etdi. Yüz minlərlə insanın toplaşdığı meydanda əllərində üçrəngli bayrağamızı tutan insanların dillərində azadlıq şüarları vardı. Bu nümayişlər təkcə daxili etiraz yox, Kremlin diktəsinə qarşı milli müqavimət hərəkatı idi.

Mitinqlərdə Dağlıq Qarabağa edilən haqsızlıqlara qarşı vahid mövqe formalaşdı, ədalət və müstəqillik ideyası genişləndi, Azərbaycan xalqı öz gücünü dərk etdi. Millətdə oyanış yaratdı. Ən önəmlisi isə 17 Noyabr - Milli Dirçəliş Günü müstəqilliyə gedən yolun başlanğıcı oldu.

1990-cı ilin iyulunda Heydər Əliyevin Naxçıvana gəlişi Azərbaycanda milli azadlıq hərəkatında yeni bir mərhələnin başlanğıcı oldu. O zaman ölkədə hakimiyyət qorxaq və səriştəsiz, bölgələr isə təhdid altında idi. Ermənistan hakimiyyəti Qarabağda artıq müharibə ocağını alovlandırmışdı, qığılcımları Naxçıvanı blokada altında saxlayırdı. Bütün çətinliklərə baxmayaraq, Heydər Əliyevin Naxçıvana qayıdışı, Naxçıvan Ali Məclisinin Sədri seçildiyi ilk gündən xalqın milli mənafeyini müdafiə edən ardıcıl qərarlar qəbul etməsi ümidləri artırır, xalqın mübarizə əzminə güc qatırdı.

1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi üçrəngli bayrağı rəsmi dövlət atributu kimi təsdiqlədi. Bu tarixi qərar Sovet İttifaqının mövcud olduğu bir vaxtda verildiyi üçün böyük siyasi cəsarət tələb edirdi. Həmin gün qəbul edilən qərarla Naxçıvanda SSRİ-nin gerbi və bayrağı endirildi. Ulu Öndər daha sonra Azərbaycan Ali Sovetinə müraciət edərək bayrağın bütün ölkədə dövlət rəmzi kimi qəbul edilməsini tələb etdi. Qısa müddət sonra bu qərar qəbul edildi. Bununla da Azərbaycanda milli dövlətçiliyin ideoloji əsası qoyuldu.

Ulu Öndər azadlığa gedən yolun siyasi konsepsiyasını hazırlayırdı. 1991-ci il martın 17-də SSRİ-nin saxlanıb-saxlanılmaması haqqında ümumittifaq referendumu keçirildi. Ümummilli Lider bu zaman konkret mövqe nümayiş etdirdi, referendumun keçirilməməsi üçün qarşıya öz iradəsini qoydu. Bu referendum Naxçıvanda keçirilmədi. Sözsüz ki, bu qətiyyət SSRİ-dən ayrılmaq istəyinin ilk rəsmi təzahürü oldu. O zaman bu qərar bir çoxu üçün gözlənilməz, lakin tarix üçün zəruri addım idi. Çünki Azərbaycanın müstəqillik arzusu ilk dəfə dövlət səviyyəsində ifadə edilmişdi.

1991-ci ilin iyulunda Heydər Əliyevin Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etməsi müstəqillik yolunda verilən ən prinsipial qərarlardan biri idi. Bu addım həm ideoloji, həm siyasi baxımdan Azərbaycanın suverenliyi naminə atılmış çox cəsarətli imza idi.

Beləliklə, tarixi hadisələrin ardıcıllığı göstərir ki, 17 Noyabr xalqımızın tarixində müstəqillik ideyasının doğum günüdür. Bu gün milli şüurun oyanışı, insanların sovet rejiminin qorxusunu öldürdüyü, azadlıq ideyasının pöhrələndiyi və müstəqilliyin bünövrəsinin qoyulduğu gündür. 1991-ci ildə dövlət müstəqilliyinin bərpasına aparan yolun başlanğıcı məhz 17 Noyabrda Azadlıq meydanında qoyuldu. Sonrakı illərdə Heydər Əliyevin qətiyyəti ilə bu oyanış dövlət quruculuğuna, ərazi bütövlüyümüz uğrunda mübarizəyə və bugünkü güclü Azərbaycan dövlətinin formalaşmasına çevrildi.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider







**Düz beş il əvvəlin payızında Qarabağın səmalarında məğrur Azərbaycan qartallarının süzməyini seyr etdik. Tarixi Xudafərin körpüsünə qəhrəman oğullarımızın yol almalarının, qalibiyyət qalamız Şuşada bayrağımızı qürurla dalğalandırmalarının tamaşasına durduq. Sanki 2020-ci ilin payızından elimizə bahar nəfəsi yayıldı, yaz ətri çiləndi. 30 illik Qarabağ həsrətimizə son qoyuldu. İllərdir ki, röyalarımızın bəzəyi, ümidlərimizin zirvəsi olan bu arzuları Müzəffər Ali Baş Komandan İlham Əliyev düşmənin başına endirdiyi "dəmir yumruq" zərbəsi ilə çin etdi.**

## İlk səfər, ilk təməl

### Beş il əvvəl Prezident İlham Əliyev tərəfindən bünövrəsi qoyulan Zəfər yolu Qarabağ və Şərqi Zəngəzurun dirçəlişinin məhək daşı oldu

16 noyabr 2020-ci ildə qalib lider İlham Əliyevin işğaldan azad edilən torpaqlarımıza, Cəbrayıla, Füzuliyə qalibiyyət səfəri etməsi isə bir daha dünyaya "Qarabağ Azərbaycandır!" haqq nidasını çatdırdı.

Qələbə günündən 8 gün, Ermənistanın kapitulyasiya, məğlubiyyət aktını imzalamasından 6 gün keçəndən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin Füzuli-Şuşa avtomobil yolunun təməlini qoyması Qarabağ və Şərqi Zəngəzurun dirçəldiləcəyinin, onilliklərdir vətən həsrəti ilə yaşayan keçmiş məcburi köçkünlərimizin bu Zəfər yolu ilə tezliklə yurdlarına dönəcəklərinin müjdəsini verdi.

#### Bu yurdlarda əbədi yaşayacağıq!

16 noyabr 2020-ci ildə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində oldular, min illərin şahidi Xudafərin körpüsünə baş çəkdilər.

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva bu torpaqlarda yolboyu vandal düşmənin yurdumuza qarşı törətdiyi vəhşiliklərə ürək ağrısı və təəssüf hissi ilə baxdılar. Törədilən vandallıqları görən və qəzəb hissini boğa bilməyən dövlətimizin başçısı elə sükan arxasından söylədi ki, bütün dünya bunu görüb bilsin ki, necə bir düşmənlə üz-üzəyik: "Baxın, baxın Cəbrayıl şəhərini nə günə salıb mənfur düşmən. Bütün dünya bunu görsün, görsün və bilsin, hansı yaramaz düşmənlə biz üz-üzəyik. Bütün binaları dağıdıblar, talan ediblər. Onların məqsədi var idi ki, heç vaxt bundan sonra burada azərbaycanlı insanlar yaşamasınlar. Yaşayacağıq, əbədi yaşayacağıq! Hamısını bərpa edəcəyik, hamısını".

Prezident İlham Əliyev həmin vaxt Cəbrayıldan bu vəhşilikləri törədənlərin tezliklə beynəlxalq məhkəmələrdə cavab verəcəklərini bəyan etdi.

Hər kəs xatırlayır, Azərbaycan Kəlbəcər, Laçın və Ağdamı boşaltması üçün düşmənə vaxt vermişdi. Ancaq ermənilər ərazilərimizi tərk edən zaman öz çirkin xislətlərini yenidən göstərirdilər. Kəlbəcərdə meşələri yandırır, ağacları kəsib Ermənistana daşıyır, evlərə od vurur, alban məbədlərini talan edirdilər.

16 noyabr 2020-ci ildə Qarabağ və Şərqi Zəngəzura səfər edən Müzəffər Ali Baş Komandan Kəlbəcərdə ermənilərin törətdikləri yanğınların cavabının veriləcəyini dedi: "Mən demişəm, bir daha demək istəyirəm, beynəlxalq qurumlar, ekspertlər gələcək, bütün ziyan hesablanacaq, 30 il ərzində bizə vurulmuş zərər nəzərə alınacaq və onlara qarşı təzminat iddiası qaldırılacaq. Bu günlərdə Kəlbəcəri dağıdan, meşələri qıran, binaları, məktəbləri yandıran düşmən onun da cavabını verəcək. Onlar düşünürdülər ki, bu dağıntılardan sonra heç vaxt Azərbaycan əhalisi bura qayıtmayacaq. O məqsədlə buraları dağıdıblar. Amma səhv ediblər. Biz qayıtmışıq, durmuşuq burda, öz doğma torpaqlarımızda, Cəbrayıl şəhərində. Bütün buraları yenidən bərpa edəcəyik".

#### İşğaldan azad edilmiş torpaqlarda icra edilən birinci layihə

Sözügedən tarixdə Mehriban xanım Əliyeva ilə birgə Füzuli rayonundan Şuşa şəhərinə yol çəkilişi ilə bağlı layihənin icrasının gedişi ilə tanış olduqları zaman Prezident İlham Əliyev söylədi ki, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür: "Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır…

…Eyni zamanda bu layihə işğaldan azad edilmiş torpaqlarda icra edilən birinci layihədir".

Şuşa Zəfərindən cəmi bir həftə sonra qalib lider İlham Əliyev "doğma torpaq səsləyir bizi", deyərək düşmən caynağından qurtardığı yaralı yurdlarımıza üz tutdu. Qarabağın xilaskarı xalqımızın ürəyində bu yerlərin tezliklə dirçəldiləcəyinin, Qarabağ və Şərqi Zəngəzura həyatın qaytarılacağının böyük inamını yaratdı.

Həmin gün Füzuli şəhərində şanlı Azərbaycan bayrağını qaldıran dövlətimizin lideri dedi ki, biz bütün bu yerləri bərpa edəcəyik: "Mən demişdim, Füzulidə bir dənə də bina tapılmadı ki, orada Azərbaycan bayrağı ucaldılsın. Amma biz bərpa edəcəyik. İndi müvafiq göstərişlər verildi, planlı şəkildə bunu edəcəyik, beynəlxalq ekspertləri dəvət etmişik, onlar da gələcəklər. Bütün dəymiş ziyanı birlikdə hesablayacağıq. Ondan sonra şəhərsalma üzrə mütəxəssisləri - həm Azərbaycan mütəxəssislərini, həm xarici mütəxəssisləri dəvət edəcəyik. Onlar da gələcəklər, yeni bir şəhərsalma planı qurulacaqdır. Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası - bütün bu planlar var".

"Allahın köməyi ilə hamısını icra edəcəyik: "Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" - deyə, ölkəmizin rəhbəri böyük inamla söylədi.

Təməlinin qoyulmasının üzərindən cəmi bir il keçdikdən sonra - 7 noyabr 2021-ci ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərinə səfərləri çərçivəsində Füzuli rayonunda Zəfər yolunun açılışını etdilər.

Azadlığından sonra Qarabağ və Şərqi Zəngəzurda ilk icra olunan nəhəng layihə kimi tariximizə düşən və Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Zəfər yolu adlandırılan avtomobil yolu xalqımız, ölkəmiz üçün düşərli oldu. Qəhrəman Azərbaycan oğullarının misilsiz şücaət göstərərək azad etdikləri Şuşaya açdıqları Zəfər cığırı ilə salınan bu yolun ardınca Qarabağ və Şərqi Zəngəzurda elə bir quruculuq təntənəsi yaşandı ki, tam mübaliğəsiz deyirik ki, dünyada bunun analoqu yoxdur.

#### Biz qayıtmışıq…

Azərbaycan dövləti 44 günlük Vətən müharibəsində qazandığı parlaq Zəfərdən dərhal sonra işğaldan azad edilən ərazilərimizin bərpa və quruculuğuna başlayıb. Qarabağı və Şərqi Zəngəzuru öz iqtisadi imkanları hesabına yenidən quran dövlətimiz bu ərazilərdə meqalayihələr gerçəkləşdirir. Böyük qayıdış proqramının icrası üçün "ağıllı şəhər"lər, "ağıllı kənd"lər salınır. Modern infrastrukturun qurulduğu, yolların, körpülərin, tunellərin tikildiyi bu ərazilərdə artıq üç beynəlxalq hava limanı tikilərək istifadəyə verilib: Zəngilanda, Füzulidə və Laçında.

16 noyabr 2020-ci ildən etibarən Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzura saysız-hesabsız səfərlər edib. Azad edilən tarixi yurdlarımızda həyata keçirilən bərpa-quruculuq işlərinə elə ölkəmizin rəhbəri İlham Əliyevin bu ərazilərə mütəmadi səfərləri zamanı daha yaxından şahidlik edirik.

Qarabağın qurucu memarı İlham Əliyevin şəxsi nəzarəti altında görülən kompleks işlərin nəticəsidir ki, on minlərlə keçmiş məcburi köçkün artıq öz dədə-baba yurduna qayıdıb.

Paralel olaraq işğaldan azad edilən yurdlarımızda tarixi abidələr də bərpa olunaraq öz əvvəlki görkəmlərinə qaytarılır.

16 noyabr 2020-ci ildə Prezident İlham Əliyevlə birgə işğaldan azad edilən torpaqlara səfər edən, düşmənin törətdiyi vandallıqları gözləri ilə görən Birinci vitse-prezident Mehriban Əliyeva həmin il dekabrın 8-də rəsmi "İnstaqram" səhifəsindəki paylaşımında xalqımıza belə bir xoş müjdə çatdırdı: "Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayır".

Heydər Əliyev Fondunun Prezidenti paylaşımında vurğulayırdı ki, işğaldan azad olunmuş torpaqlarımızdakı hazırkı mənzərəni hər birimiz ürək ağrısı ilə seyr edirik: "Amma əminliklə bildirmək istəyirəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün Qarabağ bölgəsini Azərbaycanın ən gözəl bölgələrindən birinə çevirəcəyik. Burada yenidən həyat canlanacaq, bütün rayonlarımız bərpa olunacaq, vətəndaşlarımız öz doğma yurd-yuvalarında yaşayıb, yaradacaqlar".

Beləliklə, işğaldan azad edilən ərazilərimizdə tarixi, dini, mədəni abidələrimiz Heydər Əliyev Fondu tərəfindən yüksək səviyyədə bərpa olunmağa başlandı.

Bəli, indi 30 il ərzində viranəyə çevrilən yurdlarımızın hər birində quruculuq dastanı yaşanır. Qarabağ və Şərqi Zəngəzuru dardan qurtararaq işıqlığa çıxaran əzəli sahibləri indi onu abadlaşdırır, yenidən cənnətməkana çevirir.

16 noyabr 2020-ci ildə işğaldan azad edilən torpaqlara ilk səfərini edən və orada Zəfər yolunun timsalında quruculuğun ilk möhkəm təməl daşını atan qalib lider İlham Əliyevin həmin tarixdə anonsunu verdiyi kimi:

"Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək. Burada bütün inzibati binalar, ictimai binalar, məktəblər, tibb ocaqları yaradılacaq. Bütün infrastruktur yaradılacaq. Küçələr salınacaq, parklar, xiyabanlar salınacaq. Bütün şəhərlərdə qələbə abidələri ucaldılacaq və həyat qayıdacaq…

…Azərbaycan xalqı bir daha öz böyüklüyünü göstərəcək. Bir daha bütün dünyaya sübut edəcəyik ki, biz böyük xalqıq. Biz qayıtmışıq…"

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Zəngilanın Ağalı, Xocalının Şuşakənd və Xanyurdu kəndlərinə növbəti köç olub

**Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, Zəngilan rayonunun Ağalı kəndində ikinci mərhələ üzrə sakinlərin məskunlaşdırılması prosesi davam edir. Dünən yola çıxan ailələr artıq doğma yurdlarına qovuşublar.**







AZƏRTAC xəbər verir ki, Böyük qayıdışın ilk ünvanı olan Ağalı kəndi bu gün daha 41 ailə olmaqla, 110 nəfərə qucaq açıb.

Ağalı kəndinin ikinci mərhələsində istifadəyə veriləcək evlərin sayı 103 ədəddir. Bunlardan 55-i ikiotaqlı fərdi evlərdən, 3-ü isə üçmərtəbəli 2 bloklu "Townhouse" tipli binalardakı mənzillərdən ibarətdir. 36 ədəd birotaqlı, 12 ədəd isə ikiotaqlı mənzil inşa edilib. Kənddə bütün evlərə kommunikasiya xətləri çəkilib, yaşayış və qeyri-yaşayış binalarının hamısı qazla təmin edilib, evlərdə kombilər quraşdırılıb. Burada ümumi sahəsi 2 hektardan çox olan park salınıb.

Növbəti köç karvanı ilə Ağalı kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Zəngilan rayonunun Ağalı kəndinə köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr sevinclə açarları qəbul edərək, öz evlərində məskunlaşıblar.

Kəndə qədəm qoyan ailələr sevinc göz yaşları ilə öz doğma yurduna qovuşub və kənddə yaradılan gözəlliyi seyr ediblər. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

* * *

Noyabrın 14-də Ağdamdan yola salınan növbəti köç karvanı Xocalı rayonunun Şuşakənd və Xanyurdu kəndlərinə çatıb. Doğma yurda qayıdan ailələr bərpa edilmiş evlərinin açarlarını təhvil alaraq məskunlaşıblar.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu mərhələdə Şuşakəndə 55 nəfərdən ibarət 19 ailə, Xanyurdu kəndinə isə 12 ailə - 34 nəfər köçürülüb. Köçürülən ailələr uzun illər respublikanın müxtəlif bölgələrində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış vətəndaşlardan ibarətdir.

Şuşakənd və Xanyurduya qayıdan sakinlərə mənzillərin açarlarının təqdim edilməsi mərasimində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə xidmətinin icraçı direktor müavini Mahmud Əfəndiyev, digər rəsmi şəxslər və kənd sakinləri iştirak ediblər.

M.Əfəndiyev çıxışında sakinləri doğma torpaqlarına qayıtmaları münasibətilə təbrik edib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinin sürətlə aparıldığını, kəndlərdə bütün zəruri sosial infrastrukturun - yol, su, elektrik, qaz və digər kommunal xidmətlərin tam şəkildə təmin olunduğunu bildirib.

Sakinlər doğma yurdlarına qayıtmağın sevincini bölüşüblər.

# Azərbaycanın xarici siyasətinin uğurları

**Ötən həftə Azərbaycan Ordusunun növbəti möhtəşəm hərbi paradı ölkəmizin qüdrətinin, milli birliyinin və müasir dövlətçilik ideologiyasının parlaq təzahürü kimi tarixə yazıldı. Paytaxt Bakının mərkəzində keçirilən bu təntənəli tədbir həm daxildə xalqın qürur mənbəyi, həm də beynəlxalq arenada Azərbaycanın artan hərbi-siyasi nüfuzunun nümayişi oldu.**



## Çoxşaxəli, müasir və inteqrasiya olunmuş döyüş potensialı

### Azərbaycan Silahlı Qüvvələri buna görə regionda ön sıradadır

Paradda Azərbaycan Silahlı Qüvvələrinin müxtəlif qoşun növləri, o cümlədən quru qoşunları, hava hücumundan müdafiə sistemləri, raket-artilleriya hissələri, xüsusi təyinatlı qüvvələri və hərbi aviasiya bölmələri iştirak etdi. Meydandan keçən müasir texnika nümunələri, pilotsuz uçuş aparatları, zirehli maşınlar və yüksək dəqiqlikli silah sistemləri Azərbaycanın müdafiə sənayesinin və ordu quruculuğundakı böyük irəliləyişin bariz göstəricisi idi.

Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü və texnoloji cəhətdən ən inkişaf etmiş hərbi qüvvəsidir. 1990-cı illərin əvvəllərində müstəqilliyini yenicə bərpa edən Azərbaycanın hərbi imkanları məhdud olsa da, sonradan aparılan genişmiqyaslı islahatlar, hərbi texnika parkının yenilənməsi və müasir texnologiyaların tətbiqi nəticəsində ordumuz tamamilə yeni səviyyəyə yüksəlib.

Azərbaycan Ordusunun texnikası bu gün həm say, həm keyfiyyət, həm də müasir döyüş konsepsiyalarına uyğunluğu baxımından regionda ön sıradadır. Müasir texnologiyalar, peşəkar hərbi kadrlar, milli istehsal potensialı və strateji tərəfdaşlıqlar sayəsində Azərbaycan Silahlı Qüvvələri yüksək döyüş hazırlığı səviyyəsinə yüksəlib. Bu güc təkcə Azərbaycanın müdafiə qabiliyyətini deyil, həm də regionda sülhün və sabitliyin qorunmasında rolunu daha da möhkəmləndirir.

Bakıda Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş hərbi parad zamanı nümayiş etdirilən texnikalar isə Azərbaycan Silahlı Qüvvələrinin çoxşaxəli, müasir və inteqrasiya olunmuş döyüş potensialını aydın şəkildə əks etdirir. Paradda zirehli avtomobillərdən tutmuş uzaqmənzilli raket komplekslərinə, hava hücumundan müdafiə sistemlərindən tutmuş yüksəkdəqiqlikli pilotsuz uçuş aparatlarına, artilleriya sistemlərinə qədər geniş spektr müşahidə olunub. Bu müxtəliflik ordunun, eyni zamanda müdafiə, əməliyyat-taktiki hücum funksiyalarını effektiv həyata keçirməsinə imkan verir.

Hərbi paradda keçid zamanı təqdim olunan üzərində 12,7 millimetrlik NSV pulemyotları, tankəleyhinə idarəolunan SPIKE-ER (İ-AR) raketləri, 120 millimetrlik SPEAR minaatanları quraşdırılmış, "Sand-Cat-Stomer" zirehli idarəetmə, çevik hərəkət avtomobilləri göstərir ki, Azərbaycan Ordusu əməliyyatlarda çeviklik və mobilitetə böyük əhəmiyyət verir. Silahlanmaya yeni qəbul edilmiş Milli Müdafiə Sənayesinin məhsulu VAŞAQ xüsusi əməliyyat nəqliyyat vasitələri, silahlanmaya yeni qəbul edilmiş COBRA-II zirehli tibbi təxliyə avtomobilləri, Land Rover-110 xüsusi təyinatlı patrul avtomobilləri, SKİF - COBRA üzərində yerləşdirilmiş tankəleyhinə idarəolunan raket kompleksi, BTR-82A zirehli transportyorları, PDM-3 - Piyadaların Döyüş Maşınları, T-72M1 və T-90S tankları Azərbaycan Ordusunun döyüş qabiliyyətinin davamlılığının və strateji üstünlüyünün açıq nümayişidir.

Azərbaycan və Türkiyə pilotlarının iştirakı ilə aviasiya nümayiş uçuşları isə izləyicilər üçün unudulmaz olub. Parad çərçivəsində uçan Mİ-17 döyüş-nəqliyyat helikopterləri Azərbaycan, Türkiyə və Pakistan respublikalarının dövlət bayraqlarını daşıyıb, Mİ-17 helikopteri Ümummilli Lider Heydər Əliyevin portretini nümayiş etdirib. Həmçinin uzaqmənzilli hava-yer tipli raketlərlə təchiz olunmuş Mİ-17 döyüş-nəqliyyat helikopterləri, MFİ-17 təlim təyyarələri, L-39 təlim təyyarələri, İL-76 hərbi-nəqliyyat və silahlanmaya yeni qəbul edilmiş C-27J yük təyyarələri, silahlanmaya yeni qəbul edilmiş JF-17 (Cİ EF) çoxməqsədli qırıcı təyyarələr, Türkiyə Hərbi Hava Qüvvələrini təmsil edən F-16 çoxməqsədli qırıcı təyyarələr, modernizasiya olunmuş SU-25-Laçın hücum təyyarələri izləyicilərdə iftixar dolu hisslər yaşadıb. SU-25 hücum təyyarələri isə Azərbaycan bayrağının rənglərini paytaxt səmasında canlandırıb.

Onu da vurğulayaq ki, Vətən müharibəsinin 5 illik yubiley paradında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 5 min nəfərlik şəxsi heyəti, Türkiyə Respublikası Silahlı Qüvvələrinin 240 nəfərlik şəxsi heyəti, Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin 120 nəfərlik şəxsi heyəti iştirak edib. Həmçinin Azərbaycanın 50 aviasiya vasitəsi, 5 Türkiyə aviasiya vasitəsi, 39 ədəd xüsusi təyinatlı avtomobil texnikası və silah sistemi, 53 ədəd hava hücumundan müdafiə vasitəsi, 63 ədəd raket-artilleriya silahları, eləcə də 12 gəmi paradda nümayiş üçün cəlb olunub.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan 5 il öncə sahib olduğu hərbi qüdrətini daha da artırıb. Bunu İlham Əliyev paraddakı çıxışında bir daha vurğulayaraq deyib ki, Azərbaycan Silahlı Qüvvələrinin gücü getdikcə daha da artacaq və ordumuzun maddi-texniki bazası modern hərbi texnikalarla təchiz ediləcək.

Azərbaycan Ordusu dünyanın ən güclü silahlı qüvvələri sırasındakı mövqeyini daha da yaxşılaşdıracaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Azərbaycandan verilən sülh mesajları

**Ərazi bütövlüyümüzün, suverenliyimizin və konstitusiya quruluşumuzun tam təmin edilməsinin gətirdiyi qürur hissləri ilə Qarabağ Zəfərinin beşinci ildönümü ölkə boyu böyük təntənə ilə qeyd edildi. 8 Noyabr Zəfər Günündə Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradın keçirilməsi isə bu ehtişamın zirvəsi oldu.**

Dost və qardaş olan ölkələrin - Türkiyə və Pakistan rəhbərlərinin iştirakı ilə keçirilən bu hərbi paradda Azərbaycan siyasi, diplomatik gücünü bir daha ortaya qoydu, hərbi qüdrətini nümayiş etdirdi. Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şəriflə birgə qəbul etdiyi hərbi paradda Azərbaycanın bölgədə bərqərar etdiyi təhlükəsizlik və inkişaf vəd edən mühit özünü qabarıq şəkildə büruzə verdi, dünyaya sülh mesajları çatdırıldı.

### Normallaşmaya aparan yol

Azərbaycanın Vətən müharibəsində qazandığı şanlı qələbə illərdir bölgədə bitmək bilməyən münaqişəyə birdəfəlik son qoydu. Hələ torpaqlarının işğalı zamanı da hər zaman sülh tərəfdarı olan ölkəmiz münaqişənin danışıqlar yolu ilə həllinə çalışırdı. Lakin rəsmi Bakı bu olmasa, müharibə variantını irəli sürürdü və nəyin bahasına olursa-olsun torpaqlarını işğaldan azad edib ərazi bütövlüyünü bərpa etməyi hədəfləyirdi.

Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paraddakı çıxışı zamanı bu məsələyə diqqət çəkən Prezident İlham Əliyev söylədi ki, Azərbaycan heç vaxt işğalla barışmaq fikrində deyildi: "Biz sülh danışıqlarını aparарkən, eyni zamanda bəyan edirdik ki, əgər bu danışıqlar nəticə verməsə, Azərbaycan istənilən yollarla, o cümlədən hərbi yolla öz tarixi, əzəli torpaqlarını azad edəcək".

Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev onu da dedi ki, uzun müddət davam edən danışıqların nəticəsi sıfır olmuşdur: "Onun da əsas səbəbi o idi ki, Ermənistan öz xoşu ilə bir qarış torpağı azad etmək fikrində deyildi. Ermənistanın arxasında duran bəzi dövlətlər isə onlara siyasi, iqtisadi və hərbi dəstək göstərərək onlarla həmrəy idi. Onların fikri əzəli Qarabağ torpağımızı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək idi. Bizim isə siyasətimiz ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa etməkdən ibarət idi".

44 günlük Vətən müharibəsində və 23 saatlıq antiterror tədbirləri nəticəsində Azərbaycan öz milli hədəflərinə çatdı. Bununla da ölkəmiz Cənubi Qafqaz regionu üçün tamamilə yeni, özündə təhlükəsizliyi, normallaşmanı, davamlı sülhü və inkişafı ehtiva edən ssenari yazdı. Xüsusilə 2023-cü ildən sonra bölgədə inkişaf və əməkdaşlıq üçün yaranmış mühit dünyanın da diqqətini çəkdi və Azərbaycanın sülh səyləri təqdirlə qarşılandı.

8 avqust tarixində Vaşinqtonda normallaşma istiqamətində əldə olunan fundamental əsaslar bölgədə uzunmüddətli barış üçün yol açdı. Belə ki, həmin tarixdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə Ermənistan-Azərbaycan arasında Birgə Bəyannamə imzalandı. Dövlət rəhbərlərinin iştirakı ilə Azərbaycan və Ermənistan XİN rəhbərləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsi paraflandı.

Yeri gəlmişkən, onu da vurğulayaq ki, Ermənistan Konstitusiyasında Azərbaycan ərazilərinə qarşı hələ də ərazi iddiaları yer aldığı üçün Ağ Evdə sülh sazişi imzalanmadı.

### Qafqazda sülhün bərqərar olması bütün bölgənin rifahına xidmət edəcək

Vaşinqtonda Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə bağlı razılıq da əldə olundu ki, bu nəinki Cənubi Qafqazda, eləcə də daha geniş coğrafiyada əməkdaşlıq üçün mühüm əhəmiyyət daşıyır.

8 noyabrda Bakıda keçirilən hərbi paraddakı çıxışında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan vurğuladı ki, bu Zəfəri Qafqazda davamlı sülhə gedən yolun məhək daşı olaraq görürük: "Qafqazda sülhün bərqərar olmasının Asiyadan Avropaya qədər bütün bölgənin rifahına xidmət edəcəyi qənaətindəyik. Bunu da burada xüsusilə vurğulamaq istəyirəm ki, biz davamlı sülh məsələsində son dərəcə ümidvarıq, nikbinik. İlham Əliyev qardaşımın davamlı sülhün bərqərar olması üçün göstərdiyi səmimi fəaliyyəti təqdir edirik".

Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr edilmiş hərbi paradda çıxışı zamanı Pakistan Baş naziri Məhəmməd Şahbaz Şərif də bölgədə faktiki əldə olunmuş sülhə vurğu etdi və əsl qələbənin təkcə döyüş meydanında deyil, eləcə də sülh və anlaşma körpülərinin salınmasında olduğunu söylədi: "Əziz qardaşım Prezident İlham Əliyev, Azərbaycan ilə Ermənistan arasında ləyaqət və qarşılıqlı hörmətə əsaslanan sülhə aparan çətin yolda Azərbaycanı istiqamətləndirərək, Sizin müdrik rəhbərliyiniz mənə böyük təəssürat bağışlayır".

Pakistanın Baş naziri "Qarabağda möhtəşəm hərbi Qələbəni qazandıqdan sonra, cənab Prezident, Siz indi də bacarıqlı diplomatiyanız sayəsində sülhü qazandınız. Burada mən həmin sülh üçün uğur gətirmiş nümunəvi rəhbərlik keyfiyyətlərinə görə ABŞ Prezidenti Donald Trampa təşəkkürümü bildirməliyəm", - deyə əlavə etdi.

Bütün bunlar ölkəmizin yaratdığı reallıqların nəticəsidir ki, indi Azərbaycan və Ermənistan aralarındakı münaqişə səhifəsini bağlayaraq etimad quruculuğu istiqamətində mühüm addımlar atırlar. Ölkəmiz Ermənistana işğaldan bəri mövcud olan yüklərin tranziti məhdudiyyətlərini aradan qaldırıb. Bu sayədə artıq digər ölkələrdən taxıl yüklü qatarlar Azərbaycandan tranzit keçməklə Ermənistana gedir.

Oktyabrın 22-də İrəvanda iki ölkənin vətəndaş cəmiyyəti nümayəndələrinin heç bir vasitəçi olmadan ilk görüşünün keçirilməsi, Bakı ilə İrəvan arasında ilk çarter reysinin gerçəkləşdirilməsi də tərəflər arasında qarşılıqlı etimad mühitinin formalaşdırılması üçün vacib addımlardır.

Bir sözlə, Azərbaycanın liderliyi altında müvəffəqiyyətlə irəlilədilən və dünyada təqdirlə qarşılanan sülh prosesi artıq uğurlu bəhrələrini verir. Bu isə sülhün sadəcə sözdə, kağız üzərində deyil, əməldə də gerçəkləşdirilməsinin mühüm göstəriciləridir. Təbii ki, İrəvan da sülh müqaviləsinin bağlanması üçün üzərinə götürdüyü öhdəlikləri qısa zaman ərzində yerinə yetirərək normallaşma prosesinin daha da sürətli irəliləməsinə səy göstərməlidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Delimitasiya: sülhə aparan yol və qarşılıqlı etimad

## Nəhayət ki, rəsmi İrəvan gec də olsa, bunu anlamağa başlayıb

**Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası prosesi artıq yeni mərhələyə daxil olub. Bu, sadəcə xəritələr üzərindəki texniki iş deyil. Həmçinin regionda siyasi sabitliyin möhkəmlənməsi, iqtisadi əməkdaşlığın inkişafı və uzunmüddətli sülhün təmin olunması baxımından da strateji əhəmiyyət kəsb edir. Prosesin uğurla aparılması tərəflərin maraqlarının qorunmasına və regional əməkdaşlıq imkanlarının genişlənməsinə şərait yaradacaq.**

Son aylar iki ölkə arasında danışıqların intensivləşməsi, qarşılıqlı diplomatik görüşlər və Zəngəzur dəhlizi (TRIPP) kimi regional layihələrin gündəmə gəlməsi bölgədə yeni reallığın formalaşdığını göstərir. Artıq bu proseslər region üçün imkanlar yaradan bir dönüş nöqtəsi kimi diqqət çəkir. Sərhədlərin demarkasiyası insanların gündəlik həyatında, iqtisadi əlaqələrdə və təhlükəsizlik mühitində özünü göstərəcək bir hadisəyə çevrilir. Bu mərhələ həm də bir mesajdır: dialoq və əməkdaşlıq regionu dinc gələcəyə daşıyan ən güclü vasitədir. İndi Azərbaycan və Ermənistan üçün əsas vəzifə hazırkı tarixi fürsəti qaçırmayaraq ondan səmərəli istifadə etmək və bölgədə dayanıqlı sülhün əsasını qoymaqdır.

Məlumdur ki, əvvəllər Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi və delimitasiya-demarkasiya prosesi həll olunmaz hala gəlmişdi. Öncə Rusiyaya, sonra da Qərbə sığınan qonşumuz beynəlxalq hüquqdan uzaq dayanaraq hər hansı bir sənədə imza atmağı özünə rəva görmür, xüsusilə də delimitasiya-demarkasiya prosesinin həllinə yönəlik işləri uzatmağa çalışırdı. Ermənistan kənar qüvvələrin məsələyə cəlb olunmasını istəməklə vəziyyəti daha da çətinləşdirirdi. Anlamırdı ki, üçüncü, dördüncü qüvvələr öz maraqlarını güdürlər. Halbuki istər Avropa İttifaqı, istərsə də Rusiyanın vasitəçiliyi ilə keçirilmiş görüşlərdə Azərbaycan dəfələrlə sərhədlərin müəyyənləşdirilməsinin zəruriliyini bəyan edərək bildirmişdi ki, prosesin mümkün qədər tez başa çatdırılması naminə heç bir ilkin şərt olmamalıdır. Çünki sərhədlərin delimitasiya-demarkasiyası münasibətlərin normallaşması və tərəflər arasında yekun sülh sazişi üçün ilkin şərtdir.



Bu gün isə vəziyyət tamamilə fərqlidir. Əvvəllər uzadılan və çətinləşdirilən delimitasiya-demarkasiya prosesinə Ermənistan tərəfi artıq daha konstruktiv formada yanaşır. Qonşumuz əvvəlki mövqeyindən geri çəkilərək sərhədlərin müəyyənləşdirilməsində maraqlı olduğunu nümayiş etdirir və hətta prosesi planlaşdırmağa başlayıb. Bu dəyişiklik göstərir ki, regional sabitlik və normal qonşuluq münasibətləri üçün sərhədlərin dəqiq müəyyənləşdirilməsi qaçılmazdır və bunu Ermənistan da başa düşüb. Artıq prosesin yumşalması, tərəflərin dialoqa daha səmərəli formada daxil olması, delimitasiya-demarkasiyanın praktik addımlarla irəliləməsi bölgədə uzunmüddətli sülh və əməkdaşlıq üçün yeni imkanlar açır. Azərbaycan isə əvvəlki prinsipial mövqeyindən çıxış edərək bu fürsətdən maksimum istifadə etməyə hazır və prosesin hərtərəfli, şəffaf və səmərəli başa çatdırılmasını təmin etməkdə qətiyyətlidir.

Qeyd edək ki, Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası dedikdə ölkələr arasında dövlət sərhədinin ümumi mövqeyinin və istiqamətinin danışıqlar yolu ilə müəyyənləşdirilməsi nəzərdə tutulur. Azərbaycan-Ermənistan sərhədinin demarkasiyası isə mübahisə obyekti olan ərazilərdə müvəqqəti müəyyənləşdirilən xətt (zolaq) deməkdir. Demarkasiya xətti döyüşən tərəflər arasında xüsusi sazişlə müəyyənləşir.

Nəhayət, bu müəyyənləşmə yolunda Azərbaycan tərəfindən atılan addımları Ermənistan dəstəkləməyə başlayıb. Fakt: baş nazirin müavini və delimitasiya komissiyasının sədri Mger Qriqoryanın parlamentdəki "Hökumət saatı"nda çıxışı prosesin yeni mərhələyə qədəm qoyduğunu göstərir. O açıq bildirib ki, Sünik bölgəsində (Zəngəzur) bəzi sahələrin növbədənkənar delimitasiyası planlaşdırılır və bu addım Zəngəzur dəhlizi (TRIPP) layihəsinin reallaşdırılması üçün vacibdir. "Layihə-smeta işlərinə başlamaq üçün işlək baza lazımdır. Ola bilsin ki, TRIPP layihəsinin inkişafı üçün növbədənkənar delimitasiya sahələri müəyyən edilsin", - deyə Qriqoryan vurğulayıb. Bütün bunlar göstərir ki, delimitasiya sülhə aparan yoldur və regionda davamlı sabitliyin, qarşılıqlı etimadın və iqtisadi əməkdaşlığın əsasını qoyur. Azərbaycanın prinsipial mövqeyi və dialoq səyləri nəticəsində isə bu yol artıq real addımlarla irəliləməyə başlayıb.

Delimitasiya prosesinin önəmi beynəlxalq platformalarda da əksini tapır. Bunun bariz nümunəsi kimi bu il avqustun 8-də Vaşinqton Sammitinin sərhədlərin müəyyənləşdirilməsi məsələsini gündəmə gətirməsini qeyd edə bilərik. Sammit iştirakçı tərəfləri dialoqu davam etdirməyə və delimitasiya prosesini sürətləndirməyə çağırdı ki, bu da regionda sülh və stabilliyin möhkəmlənməsi üçün bir təkandır. Çağırışlar artıq nəticəsini verməyə başlayıb və tərəflər delimitasiya prosesini daha operativ və konkret şəkildə irəlilətmək üçün hazırlıqlara başlayıblar. Vaşinqton Sammiti Azərbaycan və Ermənistan arasında demarkasiya prosesini yenidən hərəkətə gətirdi. Danışıqlar artıq konkretləşib, tərəflər infrastrukturun mövqelərini, delimitasiya olunacaq sahələri və işlərin başlanması üçün zəruri bazanı müəyyənləşdirirlər. Növbədənkənar delimitasiya sahələrinin seçilməsi Zəngəzur dəhlizi (TRIPP) layihəsinin irəliləməsinə güclü təkan verəcək. Bu, Ermənistan ərazisindən keçən hissənin tikintisinin sürətləndirilməsi deməkdir və artıq müsbət xəbərlər gəlməkdədir. Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentdə çıxış edərək deyib: "Plan ilin ilk yarısında təsdiqlənəcək və TRIPP layihəsinin tikintisi 2026-cı ilin ikinci yarısında başlanacaq".

Politoqların da gəldiyi qənaət belədir ki, delimitasiya qarşılıqlı etimadın bərpası deməkdir. Sərhədlərin dəqiq müəyyənləşdirilməsi, diplomatik və inzibati əməkdaşlığın gücləndirilməsi sülhü reallığa çevirir. Ermənistan bu prosesi praqmatizm çərçivəsində davam etdirsə, Cənubi Qafqaz uzun illərin gərginliyindən sonra sabitliyin və əməkdaşlığın mərkəzinə çevrilə bilər. Unutmaq olmaz ki, sülh təkcə sənəd üzərində imzalanmır. O, konkret addımlarla, iqtisadi əlaqələrin inkişafı və sərhədlərin aydın şəkildə müəyyənləşdirilməsi ilə möhkəmlənir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsində böyük işlər görülüb

**"Xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanan və 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunan Konstitusiyamız müasir dünyanın sivil dəyərlərinə və qanun yaradıcılığı təcrübəsinə, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrinə, milli və ümumbəşəri prinsiplərə əsaslanır".**



Bunu açıqlamasında Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov bildirib.

"1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan dövlət müstəqilliyinə dair Konstitusiya Aktında Konstitusiyanın hazırlanmasını nəzərdə tutsa da, müstəqilliyimizin ilk illərində bu istiqamətdə heç bir addım atılmadı. Həmin illərdə ölkəmizdə siyasi hakimiyyətdə olan təsadüfi şəxslərin dövlət idarəçiliyi ilə bağlı heç bir təcrübələri yox idi. Bu da dərin siyasi-iqtisadi böhranın yaranmasına, ölkəmizin yenicə bərpa olunmuş müstəqilliyinin itirilməsi təhlükəsi ilə üzləşməsinə səbəb oldu", - deyə Şahin İsmayılov qeyd edib.

Şahin İsmayılov vurğulayıb ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev ölkəmizi ağır bəlalardan xilas etdi. Azərbaycanda cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu istiqamətində qətiyyətli addımlar atıldı. Ulu Öndərin dərin siyasi zəkası, idarəçilik təcrübəsi və prinsipial mövqeyi sayəsində parçalanmaq təhlükəsi ilə üzləşmiş Azərbaycan qısa müddətdə vahid siyasi iradə ətrafında birləşdi. Dövlət institutlarının fəaliyyəti bərpa edildi, ordu quruculuğuna başlanıldı, sosial-iqtisadi islahatlar həyata keçirildi. Ölkənin hüquqi əsaslarının möhkəmləndirilməsi istiqamətində atılan ən mühüm addımlardan biri isə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu oldu.

Komitə sədri bildirib ki, bu gün Azərbaycanda hökm sürən iqtisadi-siyasi sabitliyin, dayanıqlı tərəqqinin və ictimai həmrəyliyin etibarlı təminatçısı olan Konstitusiyamız ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratdı və onun inkişafına güclü təkan verdi, hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirdi. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq qoydu.

"Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi ilə ərazi bütövlüyünü və suverenliyini tam təmin edən Azərbaycan bütün sahələrdə, o cümlədən hüquqi dövlət quruculuğu, insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətlərində böyük nailiyyətlərə imza atıb. 44 günlük Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri zamanı qazanılan şanlı zəfərlər nəticəsində bu gün Əsas Qanunumuzda təsbit olunmuş hüquq və azadlıqlar ölkəmizin bütün suveren ərazilərində tam şəkildə təmin edilir və tətbiq olunur", - deyə Şahin İsmayılov vurğulayıb.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus təyyarədə həlak olanların dəfn mərasimində rəsmi şəxslər iştirak ediblər









**Gürcüstanda C-130 hərbi-nəqliyyat təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olan 20 hərbçidən üçünün noyabrın 14-də Ankarada keçirilən dəfn mərasimində Türkiyə rəsmiləri də iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, 20 şəhiddən 17-sinin cənazəsi Türkiyənin müxtəlif vilayətlərində dəfn olunacaq. Pilot Cüneyt Kandemir, hava nəqliyyatının idarə olunması üzrə zabit Ümit İnce və hava nəqliyyatı üzrə mütəxəssis Cem Dolapçı paytaxtdakı qəbiristanlıqlarda dəfn olunublar.

Hərbçilərin cənazə namazı Ankaradakı Ahmet Hamdi Akseki məscidində qılınıb. Tədbirdə yüzlərlə insan, o cümlədən Türkiyə Parlamentinin sədri Numan Kurtulmuş, vitse-prezident Cevdet Yılmaz, milli müdafiə naziri Yaşar Güler, xarici işlər naziri Hakan Fidan və digərləri iştirak ediblər.

Prezident Rəcəb Tayyib Ərdoğan daha əvvəl Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus təyyarə qəzasında həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verib.

# Tolerantlıq prinsiplərinə sadiqlik

**Azərbaycan tolerantlıq prinsiplərinə sadiq, multikultural mühitin formalaşdığı bir məkandır. Ölkəmizdə tolerantlıq, birgəyaşayış və qarşılıqlı hörmət dəyərləri ənənəyə çevrilib. Yüz illər öncə olduğu kimi, bu gün də respublikamızda mövcud olan müxtəlif mədəniyyətlər, fərqli inanc sahibləri mehriban ailə kimi yaşayırlar. Azərbaycan tolerantlıq və multikulturalizm dəyərlərini uca tutması ilə dünyaya nümunədir.**

Prezident İlham Əliyevin bildirdiyi kimi: "İctimai-siyasi quruluşdan asılı olmayaraq, Azərbaycan bütün dövrlərdə sülh, əməkdaşlıq, qarşılıqlı anlaşma məkanı olmuşdur və biz bu ənənələri yaşadırıq". Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələrinin bir ailə kimi sülh, mehribanlıq şəraitində yaşadığını, heç vaxt ölkəmizdə dini-milli zəmində qarşıdurma, yaxud da anlaşılmazlıq olmadığını diqqətə çatdıran dövlət başçısı qeyd edib ki bu, bizim böyük sərvətimizdir: "Bütün dinlərin tarixi abidələri dövlət tərəfindən qorunur, eyni zamanda dövlət öz vəsaiti hesabına bu abidələrin bərpasını təmin edir. Azərbaycanda məscidlər, kilsələr, sinaqoqlar tikilir, təmir edilir. Biz bütün dini bayramlarımızı birlikdə qeyd edirik. Bütün dini icmalar bunu birlikdə qeyd edir. Biz tariximizlə, mədəniyyətimizlə fəxr edirik. Bu gün dünyanın ən qədim məscidlərindən biri Azərbaycanda, Şamaxı şəhərində yerləşir. Şamaxı məscidi 743-cü ildə tikilmişdir və bərpa edilərək bu gün fəaliyyət göstərir. Eyni zamanda Şəki şəhərinin yaxınlığında Qafqazın ən qədim kilsələrindən biri - Qafqaz Albaniyası kilsəsi bir tarixi abidə kimi yaşayır. O tarixi abidə də bərpa edilərək bu gün xidmət göstərir və çoxlu turistləri cəlb edir. Bakının yaxınlığında qədim zərdüştlük, atəşpərəstlik məbədi bu gün qorunub saxlanılır".

Ölkəmizdə yaşayan bütün xalqların və etnik qrupların nümayəndələrinin hər zaman sevinci də, dərdi, kədəri də bir olub. Bu birliyi 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı, irimiqyaslı hücumu səbəbilə başlayan və 44 gün davam edən Vətən müharibəsində də bütün dünya bir daha gördü.

2020-ci il noyabrın 8-də Vətən müharibəsini böyük Zəfəri ilə başa vuraraq, Qarabağda, Şərqi Zəngəzurda Ermənistanın 30 ilə yaxın davam etdirdiyi işğala son qoyan Müzəffər Azərbaycan Ordusu 2023-cü il sentyabrın 19-20-də həyata keçirdiyi uğurlu antiterror tədbirləri nəticəsində də dövlət suverenliyimizi tam bərpa etdi.

Bu il - Azərbaycan Respublikası Prezidenti tərəfindən elan edilmiş "Konstitusiya və Suverenlik İli"ndə ölkəmizdə böyük qürur və sevinclə Konstitusiyanın qəbul edilməsinin 30 illiyi və şanlı Zəfərimizin 5 illiyi təntənəli tədbirlərlə qeyd olunur.

Ölkəmizin Qarabağ və Şərqi Zəngəzur torpaqları Ermənistanın işğal altında qaldığı müddətdə erməni vandalları həmin ərazilərdə azərbaycanlıların bütün tikililərini - yaşayış və inzibati binalarını, tarixi-mədəni, dini abidələrini uçurub dağıtdılar, məscidlərimizi tövlələrə, qəbiristanlıqlarımızı otlaqlara çevirməkdən çəkinmədilər. Dövlət başçısı İlham Əliyevin vurğuladığı kimi: "İşğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb. Bu barədə də faktlar var. ATƏT işğal edilmiş torpaqlara iki dəfə faktaraşdırıcı missiya göndərib və onların məruzələrində bu, açıq şəkildə göstərilir. Bütün şəhərlər yerlə yeksan edilib, infrastruktur, qəbirlər dağıdılıb. Onlar qəbirlərimizin üstünə buldozer salmışlar, dağıtmışlar. Məscidlərimiz dağıdılıb. Bakının mərkəzində erməni kilsəsi var. Biz o kilsəni bərpa etmişik. İndi o kilsədə erməni dilində 5 mindən çox kitab saxlanılır. Onlar isə bizim məscidlərimizi yerlə yeksan ediblər".

Vətən müharibəsindən qısa müddət sonra işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən "Böyük qayıdış" proqramı çərçivəsində dağıdılmış dini abidələrimiz, ibadətgahlarımız bərpa edilir, yenidən tikilir. Qeyd edək ki, tarixi-dini abidələrimizin bərpasına başlanılması və uğurla davam etdirilməsi Prezident İlham Əliyevin diqqəti və nəzarəti, Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə reallaşdırılır.

Dövlət başçısının qeyd etdiyi kimi, cəmiyyətimizdə yüz illər boyu təşəkkül tapmış mədəni müxtəlifliyin, yüksək humanizm prinsiplərinin, zəngin tolerantlıq ənənələrinin qorunub saxlanılması və təşviqi Azərbaycanda həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Və bu istiqamətdə məqsədyönlü işlər uğurla davam etdirilir.

Prezident İlham Əliyev noyabrın 13-də ABŞ-nin İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətini qəbul edib. Söhbət zamanı dövlət başçısı İlham Əliyevlə ABŞ-nin İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətinin əvvəlki görüşləri məmnunluqla xatırlanıb.

Qonaqlar ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırıblar. Dövlətimizin başçısı İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirib, Vaşinqtonda Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşmaların tarixi əhəmiyyət daşıdığını vurğulayaraq, onların regionun inkişafı üçün mühüm rol oynadığını qeyd edib.

İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyəti dövlətimizin başçısına Azərbaycan hökumətinin Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsini rəsmi qeydiyyata almasına görə minnətdarlığını bildirib. Qonaqlar bunu ölkəmizdə bütün dinlərin nümayəndələrinə göstərilən qayğının təcəssümü kimi dəyərləndiriblər.

Görüşdə Azərbaycanda mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi ilə bağlı dövlət səviyyəsində həyata keçirilən işlərdən söhbət açılıb, bu istiqamətdə ölkəmizdə mühüm beynəlxalq tədbirlərin təşkil edildiyi qeyd olunub. Tolerantlığın xalqımızın həyat tərzi olduğu deyilib, tarixən ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələrinin bir ailə kimi dinc və sülh şəraitində yaşadığı vurğulanıb.

Həmin gün - noyabrın 13-də ABŞ-nin İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin Bakı ofisinin açılış mərasimi keçirilib.

Xatırladaq ki, İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsi ötən il iyulun 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən Azərbaycanda rəsmi dövlət qeydiyyatına alınıb.

Onu da qeyd edək ki, İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsi (Mormon kilsəsi) xristian köklərinə əsaslanan, lakin bəzi doktrinal xüsusiyyətlərinə görə ənənəvi xristian məzhəblərindən fərqlənən dini mərkəzdir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# *Rusiyalı professor:* "Azərbaycan regionda təhlükəsizliyin qarantına çevrilir"

Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin Beynəlxalq biznes kafedrasının professoru, Rusiya Rektorlar Şurasının üzvü Aleksey Xarlanov hesab edir ki, "Şimal-Cənub" nəqliyyat dəhlizi Cənubi Qafqazın inkişafı üçün yeni məntiq formalaşdırır və Azərbaycanın strateji rolunu gücləndirir.

AZƏRTAC xəbər verir ki, A.Xarlanovun sözlərinə görə, bu gün "Şimal-Cənub" dəhlizi risklərin qarşısının alınması və bütün regional arxitekturanın dəyişdirilməsi üçün mühüm bir alət kimi çıxış edir.

"Bu dəhliz nəqliyyat axınlarını yenidən bölüşdürməyə və mövcud marşrutlardan asılılığı azaltmağa imkan verir. Xüsusi qeyd etmək lazımdır ki, bu gün dörd ölkə - Azərbaycan, Rusiya, Qazaxıstan və Türkiyə Türkmənistanla birlikdə onu ən strateji əhəmiyyətli dəhliz kimi qiymətləndirə bilər və bu dəhliz Rusiya və Azərbaycanın gələcək inkişafı ilə bağlı məsələlərin həllinə imkan yaradır", - deyə ekspert qeyd edib.

Azərbaycanın Avrasiyanın logistika sistemində mərkəzi mövqe tutduğunu vurğulayan professor bildirib ki, ölkə ərazisinin böyük hissəsi əsas logistika zonasıdır.

"Məhz bu zona yeni axınların yaradılmasını və yük dövriyyəsinin artımını təmin edə bilər. 2027-ci ildə biz 15 milyon tona qədər, 2030-cu ildə isə təqribən 20 milyon ton yük axını gözləyirik", - deyə ekspert məlumat verib.

2023-cü il oktyabrın 13-də Bakıda nəqliyyat, energetika və gömrük sahəsində əməkdaşlıq məsələlərinə həsr olunmuş üçtərəfli görüşün nəticələrini dəyərləndirən professor bildirib ki, tərəflər sabitliyə can atmaqda birlik nümayiş etdirirlər: "Bütün iştirakçılar sülh yolu ilə inkişafda maraqlıdırlar. Artan riskləri nəzərə alaraq formalaşan infrastruktur təhlükəsizlik və logistikanın əsas elementi olur".

A.Xarlanov həmçinin Azərbaycanın geniş Avrasiya konfiqurasiyasındakı rolunu vurğulayıb: "Rusiya bu gün yeni marşrut modelini formalaşdırır və bu modeldə Azərbaycan aparıcı rollardan birini oynayır. Bakının çoxvektorlu enerji və logistika siyasəti geosiyasi risklərin qarşısını almağa və dəhlizləri real yüklərlə dolduran yeni ticarət tərəfdaşlarını cəlb etməyə imkan verir", - deyə o bildirib.

Trans-Xəzər və Zəngəzur istiqamətlərindən danışan ekspert onların artan əhəmiyyətini qeyd edib: "Azərbaycan regionda təhlükəsizliyin qarantına çevrilir. Cənubi Qafqaz Azərbaycan və Rusiya əməkdaşlığı sayəsində formalaşan yeni Avrasiya arxitekturasına daxil olur".

Professor Azərbaycanın "yumşaq güc"ünün təsirini də xüsusi vurğulayıb. "Ölkənin logistika arxitekturası Mərkəzi Asiya, Qafqaz və Avropaya Azərbaycanın "yumşaq güc"ünü nəzərə almağa imkan verir. İbrahim İbrahimovun "Effektiv təsir strategiyası. 21-ci əsrdə Azərbaycanın xarici siyasəti, "yumşaq gücü" və enerji diplomatiyası" adlı kitabında qeyd etdiyi bu "yumşaq güc" Avrasiya problemlərinin həllinə, Aİ ilə ziddiyyətlərin yumşaldılmasına və enerji tədarükü üçün alternativ marşrutların formalaşdırılmasına kömək edir", - deyə alim qeyd edib.

# Əqli mülkiyyət sahəsindəki dövlət siyasətimiz örnək göstərildi

**Moskvada Rusiya Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət İdarəçiliyi Akademiyasında (RANEPA) "Rusiyanın dövlət idarəçiliyi üçün elm" mövzusunda II Beynəlxalq Konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, konfransda Avrasiya məkanında əqli mülkiyyətin dövlət idarəçiliyində rolu haqqında məruzələr edilib və Azərbaycan Respublikasının əqli mülkiyyət sahəsindəki dövlət siyasəti xüsusilə örnək göstərilib.

Tədbirdə çıxış edən Rusiya Federasiyasının Əməkdar hüquqşünası, birinci dərəcəli dövlət müşaviri, Əqli Mülkiyyət üzrə Federal Xidmətin (Rospatent) sabiq rəhbəri, hazırda Avrasiya Patent İdarəsinin prezidenti Qriqori İvliyev Avrasiya məkanında əqli mülkiyyət məsələlərinin regional tənzimlənməsi ilə bağlı məruzəsində müəllif hüquqları və əlaqəli hüquqların, eləcə də sənaye mülkiyyəti hüquqlarının idarəçilik funksiyalarını cəmləşdirən, əqli mülkiyyət sahəsində dövlət siyasətini formalaşdıran və zəruri tədbirləri hazırlaya bilən vahid icra orqanının təsis edilməsinin vacibliyini vurğulayıb. Q.İvliyev Rusiyada belə bir vahid qurumun olmadığına diqqət yetirərək, bu sahədə Azərbaycan Respublikasının uğurlu təcrübəsindən yararlanmağı tövsiyə edib.

"Avrasiya məkanında əqli mülkiyyət məsələlərinin regional tənzimlənməsi" adlı məruzəsində o, Azərbaycan Respublikasını nümunə göstərərək, 2018-ci ildə Azərbaycanda yaradılan Əqli Mülkiyyət Agentliyinin əqli mülkiyyətin bütün sahələrində uğurlu idarəetmə təcrübəsindən söz açıb. Qriqori İvliyev Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun nüfuzlu beynəlxalq "Promışlennaya sobstvennost" ("Sənaye mülkiyyəti") jurnalında dərc olunan "Müasir əqli mülkiyyət idarəsinin formalaşdırılması və fəaliyyəti haqqında" məqaləsinə istinad edərək bildirib ki, Azərbaycan dövlətinin başçısı İlham Əliyev tərəfindən həyata keçirilən genişmiqyaslı institusional islahatlar çərçivəsində əqli mülkiyyət fəaliyyətinin səmərəliliyini artırmaq və innovasiya prosesinə daxil etmək məqsədilə 2018-ci ildə ləğv olunan Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin nəzdindəki Patent Mərkəzi ilə Müəllif Hüquqları Agentliyinin birləşdirilməsi nəticəsində Azərbaycan Əqli Mülkiyyət Agentliyi yaradılıb. Beləliklə, əqli mülkiyyətin hər iki qolunu idarə etmək üçün vahid qurum təsis olunub və bu qurum Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə icra hakimiyyəti orqanlarına bərabər müstəqil status alıb.

"Azərbaycanın dövlət siyasətinin təcrübəsinə əsasən, əqli mülkiyyətin idarə edilməsi sistemi yaradılarkən ənənəvi hüquqi anlayışla yanaşı, iqtisadi və sosial-mədəni aspektləri də əhatə edən əqli mülkiyyətin müasir anlayışını nəzərə almaq vacibdir və burada sənaye mülkiyyətinin və müəllif hüquqlarının tək bir çətir altında cəmləşməsinin zəruriliyi aydın görünür", - deyə Q. İvliyev qeyd edib. Məruzəçi statistikaya istinad edərək bildirib ki, hazırda 98 ölkədə əqli mülkiyyət idarələri vahid bir qurum altında fəaliyyət göstərirlər: "Bunlardan 37 ölkədə əqli mülkiyyət idarələri daha yüksək statusa malik digər qurumlara daxil deyil və onlara tabe olmur. 37 inkişaf etmiş ölkə arasında Azərbaycan xüsusi yer tutur. Bu uğurlu təcrübə Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar çərçivəsində Azərbaycanda əqli mülkiyyət sisteminin təkcə hüquqi funksiyaları deyil, həm də iqtisadi, sosial-mədəni funksiyaları yerinə yetirməsindən irəli gəlir".

Tədbirdə həmçinin Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Çernışenko, Rusiya Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət İdarəçiliyi Akademiyasının rektoru Aleksey Komissarov, Rusiya Federasiyası Prezidentinin İcra Aparatının Prezident Kitabxanasının baş direktoru Yuri Nosov və başqaları iştirak ediblər.





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!



# Gücün formulu: Bakı Zəfəri yenidən yaşadı

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun Vətən müharibəsində qazandığı tarixi Qələbənin beşinci ildönümü münasibətilə Bakıda keçirilən Hərbi parad təkcə hərbi güc nümayişi deyildi, regionun təhlükəsiz gələcəyinə dair mühüm mesajlarla diqqəti çəkirdi. Paytaxtın mərkəzində təşkil olunmuş möhtəşəm parad bu dəfə Azərbaycan Ordusunun modernləşmiş simasını, ölkəmizin beynəlxalq müttəfiqləri ilə sarsılmaz birliyini, Prezident İlham Əliyevin lider qətiyyəti ilə regionda yaranmış yeni reallıqları əyani şəkildə ortaya qoydu.**

## Azərbaycan-Türkiyə-Pakistan birliyi

Hərbi paradın ən mühüm məqamlarından biri Türkiyə və Pakistanın da tədbirdə ali səviyyədə təmsil olunması idi. Hər iki ölkənin dövlət rəhbərinin Prezident İlham Əliyevlə birlikdə tribunada yer alması Bakıdan qlobal mərkəzlərə verilən açıq mesaj kimi diqqəti çəkirdi. Bu məqam belə bir həqiqəti növbəti dəfə təsdiqləmiş oldu ki, Azərbaycan-Türkiyə-Pakistan vəhdəti regionda yeni təhlükəsizlik sisteminin əsas dayaqlarındandır.

Analitiklərin də fikrincə, artıq bu üç ölkənin əlaqələri sadəcə dostluq çərçivəsindən çıxaraq faktiki hərbi-siyasi ittifaq modelini xatırladır. Ortaq hərbi təlimlər, qarşılıqlı müdafiə sənayesi layihələri, kəşfiyyat məlumatlarının mübadiləsi və enerji-logistika dəhlizləri üzərində koordinasiya bu əməkdaşlığın strateji dərinliyini göstərir.

Bu mənada Türkiyə və Pakistan liderlərinin Bakıdakı Hərbi paradda iştirakı həm də 2025-ci ilin əvvəlində Laçında keçirilmiş tarixi üçtərəfli görüşün siyasi davamı təsirini bağışladı. Yada salaq ki, həmin görüşdə üç ölkənin lideri müdafiə sənayesində konsorsium modelinə keçid, terrorizmə qarşı vahid platforma, Orta dəhlizin genişləndirilməsi, Cənubi Qafqazda uzunmüddətli təhlükəsizlik mexanizmlərinin qurulması kimi məsələlər üzrə müəyyən razılaşmalar əldə etmişdir. Bakı paradı isə bu razılaşmaların real əməkdaşlıqla möhkəmləndiyini nümayiş etdirdi.

Paytaxtımızdan dünyaya səsləndirilən çağırışlar göstərdi ki, Azərbaycan regional güc kimi öz mövqelərini kifayət qədər möhkəmləndirib. Türkiyə-Azərbaycan-Pakistan ittifaqı Cənubi Qafqazın yeni təhlükəsizlik modelidir. Ölkəmiz beynəlxalq tərəfdaşlar üçün etibarlı müttəfiqdir. Azərbaycan dövləti ordu quruculuğunu davamlı və strateji xətt üzrə aparmaqdadır. Zəfərimiz həm tarix, həm də müasir dövrün reallığı kimi təsbit olunub.

Zəfərimizin 5 illiyi münasibətilə dünyanın müxtəlif ölkələrindən göndərilən təbrik məktubları ölkəmizə verilən yüksək dəyərin təsdiqidir. Azərbaycan Prezidenti İlham Əliyevə ABŞ-dən Asiyaya, Avropadan Yaxın Şərqə qədər geniş coğrafiyadan dövlət və hökumət başçıları təbrik ünvanlamışlar. Məktubların ümumi məzmununda bir neçə əsas məqam özünə yer alır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün tam bərpası beynəlxalq miqyasda qəbul olunmuş reallıq kimi təsdiqlənir, ölkəmizin daha da artmaqda olan hərbi-siyasi nüfuzuna hörmət ifadə olunur, Prezident İlham Əliyevin liderliyinin Cənubi Qafqaz regionunun sabitliyinə verdiyi töhfə xüsusi vurğulanır, Azərbaycanla ikitərəfli əməkdaşlığın genişləndirilməsi arzusu bildirilir. Təsadüfi deyil ki, diplomatik dairələrdə bu təbriklərin miqyası "Azərbaycanın beynəlxalq nüfuzunun son illərdə ən yüksək səviyyəyə çatmasının göstəricisi" kimi şərh olunur.

## Paradın beynəlxalq formatı

Zəfərlə bağlı möhtəşəm tədbirdə dünyanın müxtəlif regionlarından gəlmiş yüksəksəviyyəli rəsmi nümayəndələrin iştirakı da maraq doğururdu. Türkiyə və Pakistanın ali nümayəndə heyətləri ilə yanaşı, Slovakiya Baş nazirinin müavini və müdafiə naziri, Səudiyyə Ərəbistanı müdafiə nazirinin müavini, Serbiyanın Baş Qərargah rəisi, Qırğızıstan və Qazaxıstanın müdafiə nazirləri, Özbəkistan müdafiə nazirinin müavini də Bakıda idi. Bu nümayəndə heyətlərinin Bakıya səfəri ölkəmizin regional güc kimi qəbul edilməsinə işarə idi. Bir çox ölkənin Azərbaycanla hərbi-texniki əməkdaşlığı dərinləşdirmək niyyəti də müşahidə etdiyimiz reallıqdır.

Paradın ən çox izləyici rəğbəti qazanan məqamlarından biri də Xüsusi Təyinatlı Qüvvələrin keçidi oldu. 4 mindən çox xüsusi təyinatlının iştirak etdiyi yürüş həm say, həm taktiki sinxronluq, həm də hazırlıq baxımından regionda misilsiz hadisə kimi qiymətləndirildi. Yada salaq ki, Vətən müharibəsi başlananda Azərbaycan Ordusunda 2 minə yaxın xüsusi təyinatlı vardı. İndi isə təkcə paradda yüksək təlimli 4 min xüsusi təyinatlı iştirak edirdi. Onlar xüsusi təyinatlı qüvvələrin yalnız müəyyən bir hissəsidir.

Ordu ekspertləri də haqlı olaraq bildirirlər ki, Hərbi paradında XTQ-nin bu miqyasda nümayişi Azərbaycanın son illərdə xüsusi əməliyyat qüvvələrinin qurulmasına verdiyi strateji əhəmiyyətin göstəricisidir. 2020-ci il Vətən müharibəsinin əsas qəhrəmanlarından olan bu birliklər beş il ərzində həm texniki, həm taktiki, həm də şəxsi heyət baxımından ciddi şəkildə genişləndirilərək inkişaf etdiriliblər. Bütün bunlar Azərbaycan Ordusunun artıq dünyanın ən güclü orduları sırasına daxil olduğunu göstərir.

## Texnika, modern silahlanma və yeni hərbi təqdimatlar

Parad boyunca Azərbaycan Ordusunun ən son aldığı hərbi texnika - pilotsuz uçuş aparatları, zirehli maşınlar, yeni nəsil raket sistemləri, rabitə-komanda vasitələri və müxtəlif tipli atəş sistemləri nümayiş olundu. Azərbaycan müdafiə sənayesinin istehsal etdiyi yeni modellər də tribuna önündən keçdi. Müşahidəçilərin fikrincə, Hərbi parad daha çox müasir müharibə modelinə uyğunlaşdırılan Azərbaycan Ordusunun dinamik inkişafını əks etdirdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin çıxışı isə Azərbaycan dövlətçiliyinin son 20 ildə keçdiyi yolun manifestinə çevrildi. Dövlətimizin başçısı həm tarixi Qələbənin mənbələrini, həm də gələcək onilliklər üçün yol xəritəsini aydın şəkildə ortaya qoydu.

Azərbaycan Prezidenti çıxışında Türkiyə və Pakistan liderlərinin paradda iştirakı haqqında xüsusi minnətdarlıq ifadə etdi. "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır!" - Prezidentin xatırlatdığı bu tarixi cümlə 2020-ci ilin bir çox siyasi prosesinə öz möhürünü vurmuşdu. Dövlət rəhbərimizin çıxışında həmin kəlmələr yenidən səsləndirildi və bu, qardaşlığın emosional deyil, strateji təməlini bir daha nümayiş etdirdi. Türkiyə hərbçilərinin paradda iştirakı da bu müttəfiqliyin hərbi-siyasi gücünü vizuallaşdırırdı.

İlk dəfə olaraq Pakistan hərbçilərinin Azadlıq meydanından keçidi, Prezidentin də vurğuladığı kimi, üç ölkənin - Azərbaycan, Türkiyə və Pakistanın - getdikcə daha güclü formalaşan strateji oxunun simvolu idi. Bu birlik artıq sadə diplomatik jestlərdən çıxaraq regionun təhlükəsizlik arxitekturasında yeni modelin yaranmasına işarə edir.

## Xalqın iradəsi, tarixi yaddaş və uzun illərin mübarizəsi

Prezidentin çıxışının mühüm bir hissəsi də Ermənistanın 30 ilə yaxın davam edən işğal siyasətinin nəticələri və Azərbaycanın bu işğalla heç vaxt barışmaması üzərində quruldu. Çıxışda 1990-cı illərin dərsləri, Xocalı soyqırımı, etnik təmizləmə və bir milyon qaçqın-köçkünün taleyi xronoloji ardıcıllıqla yada salındı. Dövlət rəhbərimizin çıxışının bu hissəsində iki mühüm məqam vardı. Azərbaycan heç vaxt işğalla barışmamış, danışıqlar nəticə verməsə, torpaqlarını hərbi yolla azad edəcəyini əvvəldən bəyan etmişdi. Ermənistan və onu dəstəkləyən qüvvələr status-kvonu əbədi etmək istəyirdilər, lakin Azərbaycan buna imkan vermədi.

Prezidentin "Biz öz ərazi bütövlüyümüzü, tarixi ədaləti, beynəlxalq hüququ və milli ləyaqətimizi özümüz bərpa etdik" cümləsi bu günün siyasi fəlsəfəsinin mahiyyətini əks etdirir.

Cənab İlham Əliyevin Hərbi paradda çıxışında Azərbaycanın Zəfərə aparan illər boyunca həyata keçirdiyi dövlət strategiyasından da bəhs olundu. Burada üç prinsipial istiqamət önə çıxdı. Bunlardan birincisi, siyasi sabitlik və xalq-iqtidar birliyi, digəri siyasi gücün təməli kimi ölkəmizin iqtisadi müstəqilliyi, üçüncüsü isə ordu quruculuğudur. Prezident xüsusi olaraq qeyd etdi ki, ordu quruculuğu bütün dövrlərdə əsas prioritet olub. Silahlanma, texniki modernizasiya, şəxsi heyətin hazırlığı və beynəlxalq hərbi tərəfdaşlıqlar məhz bu dəmir prinsipi formalaşdırıb.

Azərbaycan Prezidenti bu gün də Ermənistanda şəxsi maraqları naminə revanşist meyilləri ayağa qaldırmaq istəyən Sarkisyan, Köçəryan, Ohanyan kimi bədnam fiqurların və onlara bağlı ünsürlərin vaxtilə səsləndirdikləri "tanklarımız Bakı küçələrində olacaq", "Bakıda çay içəcəyik" avantüralarını da yada saldı: "Onlar bizi yeni müharibə ilə hədələyirdilər. Hətta deyirdilər ki, onlar yeni torpaqlar uğrunda yeni müharibə aparacaqlar və Azərbaycanı tam işğal edəcəklər. Deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq. Deyirdilər ki, onlar Bakıda çay içəcəklər. Əslində, onların bu arzuları həyata keçdi. Onları biz gerçəkləşdirdik. Onların tankları bu gün Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Erməni hərbi cinayətkarları bu gün Bakıda məhkəmə qarşısında cavab verirlər və istintaq təcridxanasında Azərbaycan çayını içirlər".

Dövlət rəhbərimiz tarixi Zəfərimizdən sonra Qarabağda, Şərqi Zəngəzurda gedən bərpa və yenidənqurma işlərinə də diqqət yönəltdi və bir çox rəqəmi nəzərə çatdırdı. Qeyd etdi ki, artıq 60 mindən çox vətəndaşımız öz dogma yurdlarına geri qayıdıb. Azad edilmiş torpaqlarımızda məktəblər, xəstəxanalar, sənaye zonaları, yollar, su anbarları tikilir, Böyük qayıdış proqramı mərhələli şəkildə reallaşır.

Bu, Azərbaycanın torpaqları azad etməklə bərabər, onları sürətlə dirçəltməsi faktının da nümayişidir. Ümumilikdə cənab İlham Əliyevin Hərbi paradda çıxışının strateji mahiyyətində üç əsas amil ifadə olunurdu: Azərbaycan artıq güc mərkəzinə çevrilib, siyasi sabitlik, iqtisadi suverenlik və güclü ordu formulu ölkəmizin regional liderliyini möhkəmləndirir; Azərbaycan Türkiyə və Pakistanın iştirakı ilə qurulan yeni təhlükəsizlik blokunun əsas üzvlərindəndir; sülh dövrünün əsas prioritetlərindən biri Qarabağın, Şərqi Zəngəzurun bərpa-quruculuğu və inkişafıdır.

Zəfərimizin 5-ci ilinə həsr olunmuş hərbi parad bütün cəhətləri ilə Azərbaycanın dövlətçilik tarixində mühüm səhifəyə çevrildi. Bir daha təsdiqləndi ki, Azərbaycan təkcə beş il əvvəlki Zəfərin simvolunu yaşatmır, həm də gələcək onilliklərin siyasi-hərbi reallığını formalaşdırır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Tarix yazan oğullar

# Cəsarəti ilə əbədilik qazandı

**Ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüş əməliyyatlarında iştirak edən və şəhidlik zirvəsinə ucalan oğullarımızdan biri də Azərbaycan Ordusunun giziri Səbuhi İbrahim oğlu Səmədov olub. Onun döyüş yolu qısa olsa da, əməliyyatlar zamanı böyük igidlik və qəhrəmanlıq göstərib. Hərbçi kimi üzərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəlib.**



27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda onların bölüyünü Cəbrayıl rayonunun azadlığı uğrunda gedən döyüşlərə cəlb ediblər. Əməliyyatların elə ilk günlərindən gizir Səbuhi Səmədov komandirin verdiyi bütün döyüş tapşırıqlarını böyük cəsarət və hünərlə yerinə yetirib. Dəqiq atəş zərbələri ilə erməni işğalçılarını məhv edib. Vətən yolunda canını fəda edən qəhrəmanımız oktyabrın 9-da Cəbrayıl rayonunun ərazilərinin azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Şəhid adı hər birimiz üçün uca, əziz və müqəddəsdir. Şəhidlik Vətənə olan sonsuz sevginin nəticəsidir. Şəhidlik həm də şərəf, qeyrət və çoxlarının çata və yetə bilmədiyi ucalıq zirvəsidir. Bu zirvəyə yetişmək hər insana nəsib olmur. Bu yüksək məqama yalnız və yalnız seçilmişlər çata bilirlər. İkinci Qarabağ müharibəsinin od-alovunda bu zirvəyə ucalan, müqəddəs amallar uğrunda cəsarətlə vuruşan, qorxunu heç vaxt özünə yaxın buraxmayan tank komandiri gizir Səbuhi İbrahim oğlu Səmədov da belə oğullardan biridir.

## Səbuhi Aprel döyüşlərində də iştirak edib

Səbuhi İbrahim oğlu Səmədov 23 iyun 1985-ci ildə Neftçala rayon Xıllı qəsəbəsində dünyaya göz açıb. 1991-ci ildə qəsəbədəki Rafiq Gözəlov adına 1 nömrəli tam orta məktəbin 1-ci sinfində oxumağa başlayıb. 2002-ci ildə həmin məktəbi müvəffəqiyyətlə başa vurub. 18 yaşı çatanda ordu sıralarına çağırılıb. Vətən qarşısındakı müqəddəs borcunu yerinə yetirdikdən sonra alnıaçıq, başıuca doğmalarının yanına qayıdıb. Bir müddətdən sonra isə ömrünü orduya bağlayıb. 2010-cu ildə müvafiq kursu uğurla keçərək müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi fəaliyyətə başlayıb. Təcrübəsini nəzərə alan komandanlıq onu tank komandiri vəzifəsinə təyin edib. Arxada qalan illər ərzində nümunəvi xidmətinə görə dəfələrlə komandanlıq tərəfindən fəxri fərman və medallara layiq görülüb. Səbuhi Aprel döyüşlərində iştirak edərək igidlik və qəhrəmanlıq göstərib.



Şəhidin atası İbrahim Səmədov deyir ki, Səbuhi indi sadəcə mənim deyil, Azərbaycan xalqının övladıdır. Bir evin oğlundan bir elin oğluna çevrilib. Ata olaraq onun Vətən, torpaq, xalq sevgisi ilə fəxr edirəm. Oğlumun igidliyi ilə yüksəldiyi şəhidlik elə bir zirvədir ki, hər kəs bu mərtəbəyə ucalıb əbədilik, ölümsüzlük qazana bilmir. Peyğəmbərimiz şəhidlik haqqında demişdir ki, cənnətə girən şəxs, yer üzünün bütün nemətləri ona verildiyi təqdirdə belə, dünyaya qayıtmaq istəməz. Təkcə şəhiddən başqa. Şəhid on dəfə dünyaya gəlib, on dəfə də şəhid olmaq istər. Şəhidlər Vətən, millət, dövlət yolunda ölümün üzərinə gözlərini belə qırpmadan yürüyə bilirlər.

Şəhidin atası bildirdi ki, sonuncu dəfə oktyabrın 7-si səhər saatlarında oğlu ilə telefon əlaqəsi saxlayarkən onun ovqatının yüksək olduğunu hiss edib: "Danışığımız zamanı Səbuhi hər şeyin qaydasında olduğunu dedi. Bildirdi ki, erməni işğalçılarını addım-addım torpaqlarımızdan qovub çıxarırıq. Tezliklə şanlı ordumuz uzun illərdən bəri işğalda qalmış bütün torpaqlarımızı düşmənlərdən azad edəcək".

Xidmət yoldaşlarının dediklərinə görə, Cəbrayıl rayonunun əraziləri uğrunda gedən şiddətli döyüşdə Səbuhinin komandiri olduğu tank vurulur. O, qəlpə yarası alsa da, bu barədə heç kəsə bir söz demir, döyüşdən çıxmır. Səhəri gün - oktyabrın 8-də Səbuhi döyüş meydanına başqa bir tankla, həm də Azərbaycanın Milli Qəhrəmanı Şükür Həmidovla birlikdə çıxır. Onlar çox böyük ruh yüksəkliyi, Qələbə ovqatı ilə işğalda olan tarixi torpaqlarımızda müqəddəs bayrağımızı dalğalandıracaqlarından danışırlar.

Növbəti gün düşmənin atdığı minaatan mərmisi Səbuhinin komandiri olduğu tankın lap yaxınlığına düşür. Güclü zərbədən tank yuxarı qalxıb yerə çırpılır. Aldığı bu qəfil zərbədən tank komandiri Səbuhi Səmədov şəhid olur.

## O, Qarabağda Zəfər bayrağının dalğalanmasını görmək istəyirdi

Əlləri əsə-əsə oğlunun şəkillərinə toxunan Əsli ana dedi ki, Səbuhinin uşaqlıq illərindən söhbət açdı:

- Qardaşları ilə taxtadan tapança, avtomat düzəldərək bağda xəzəllərin arasında dava-dava oynayardılar. Həmişə də sinəsinə döyüb deyərdi ki, "düşmən" gülləsi məni öldürə bilməz... Vətən qarşısındakı əsgəri borcunu başa vurduqdan bir müddət sonra da ordu sıralarında xidmətini davam etdirmək istədiyini bildirdi. Valideynlərinin xeyir-duası ilə xidmətə getdi. Ən böyük arzusu torpaqlarımızın düşmən tapdağından azad olunmasını, üçrəngli bayrağımızın Qarabağda dalğalanmasını görmək idi. Amma təəssüflər olsun ki, döyüş yolu yarımçıq qaldı. Hərbçi yoldaşları onun yarımçıq qalmış döyüşlərini uğurla davam etdirərək Qarabağda Zəfər bayrağını ucaltdılar. Səbuhinin ruhu da bundan şad oldu.

Əsli ana oğlunun ona olan sonsuz sevgisindən də danışdı. Daim deyərdi ki, ay ana, cənnət anaların ayaqları altındadır. Mən səndən ayrı düşməmək üçün cənnəti qazanmalıyam: "Qazandı da. Mənim balam, badam gözlüm məndən öncə cənnətə getdi. Mən elə bir igid, vətənsevər oğulun anası olmağımla fəxr edirəm".

Söhbət zamanı valideynlərindən onu da öyrəndik ki, Səbuhinin rəssamlıq qabiliyyəti də var imiş. Asudə vaxtlarında daha çox komandiri olduğu tankın rəsmlərini çəkərmiş. Müharibədən öncə anası ilə özünün bir yerdə rəsmini çəkməyə başlayıb. Təəssüflər olsun ki, bu gün ananın əzizləyərək çərçivəyə salıb evin baş tərəfindən asdığı həmin rəsm əsəri tamamlanmayıb...

Şəhid gizirin oğlu İbrahimin hərb sənətinə, hərbi geyimə olan sevgisi sonsuzdur. Nəvəsinin xahişi ilə nənəsi şəhid atasının formalarından birini dərzidə onun bədəninin ölçüsünə düzəltdirib. İndi bu forma onun ən sevimli geyimidir. İbrahim deyir ki, bu formadan atamın qoxusu gəlir. Elə bilirəm mən onu geyinəndə atamın ruhu şad olur. Mən də böyüyəndə atam kimi hərbçi, tank komandiri olacam. Vətənimizi göz-bəbəyimiz kimi düşmənlərdən qoruyacam.

## İgidliyinə, qəhrəmanlığına görə ali mükafatlara layiq görüldü

Şəhidin qardaşı Ələkbər söhbət zamanı dedi ki, Səbuhi qısa, amma şərəfli bir ömür yaşadı. Xidməti ilə əlaqədar tez-tez görüşə bilməsək də, telefon əlaqəsi saxlayırdıq, daim zəngləşirdik. Qardaşım sağlığında bəzi xüsusiyyətləri ilə fərqlənirdi, heç kimə bənzəmirdi. Səbuhi ölümü - şəhadəti ilə də başqalarından seçildi. Axı Vətənin azadlığı uğrunda şəhadətə yüksəlmək, bütöv bir xalq tərəfindən qürurla anılmaq hər kəsə qismət olmur. Bunu yalnız qardaşım kimi cəsur oğullar bacarırlar.

Səbuhinin digər qardaşı Elçin üzündəki kədəri gizlətməyə çalışaraq mülayim səslə söhbətimizə qoşuldu:

- Vətən səngərdən başlayır. Qardaşım sübut etdi ki, tutduğu vəzifəsindən asılı olmayaraq, əsl Azərbaycan övladının ürəyi əbədi-əzəli torpaqlarımızın azadlığı üçün döyünür. Qarabağı erməni işğalçılarından azad edən qüdrətli ordumuzla fəxr edirik. Çünki ordumuz xalqımıza uzun illər həsrətində olduğu qələbə sevincini yaşatdı. Mən qardaşımla qürur duyuram. Ölümündən bir gün əvvəl Səbuhi mənə zəng vurmuşdu. Söhbət zamanı dedi ki, Elçin, ürəyimə damıb ki, şəhid olacağam. Əgər başıma bir iş gəlsə, ata-anama deyərsən ki, haqlarını halal eləsinlər, başlarını daim dik tutsunlar. Mənim üçün deyil, Zəfər müjdəsi sevincinə göz yaşları axıtsınlar. Oğlumu öncə Vətənimə, sonra isə sizə əmanət edirəm...

Söhbəti şəhidin bacısı Gülzar davam etdirdi:

- Qardaş itirmək çox ağırdır. Amma düşünəndə ki, qardaşım Vətən, torpaq uğrunda şəhid olub, müqəddəs bir məqama yüksələrək ölümsüzlüyü qazanıb, onda təskinlik tapıram. Səbuhi çox vətənpərvər, mehriban, qayğıkeş, mərhəmətli bir insan idi. Onun kimi igid bir qardaşım olduğu üçün fəxr edirəm.

Səbuhinin bir zamanlar həyətlərində əkdiyi əzgil ağacı bu il meyvə gətirib. Yetişsə də, hələ bir dənəsi belə yerə düşməyib, heç kəs də onun meyvəsini dərməyə ürək eləmir, daha doğrusu, buna əli gəlmir. Əzgil ağacı sanki onu əkib-becərənin, Səbuhinin gəlişini gözləyir...

Gizir Səbuhi Səmədov İkinci Qarabağ müharibəsində göstərdiyi şücaətə və qəhrəmanlığa görə ölümündən sonra Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhidin həyat yoldaşı Rəsmiyə Səmədova Səbuhinin yadigar qalmış övladını, İbrahimi onun adına layiq, qəhrəman, igid bir oğlan kimi böyütməyə çalışır. İstəyir ki, övladı böyüyəndə atasının şərəfli yolunu ləyaqətlə davam etdirsin.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Gənc əsgərlərin andiçmə mərasimi keçirilib

**Dövlət Sərhəd Xidmətinin (DSX) birləşmə və hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib.**

DSX-nin Mətbuat mərkəzindən verilən məlumata görə, mərasimlərdə hərbi rituala uyğun olaraq hərbi hissələrin döyüş bayrağı sıra meydanına gətirilib.

Dövlət himninin səsləndirilməsi ilə başlayan mərasimlərdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.



Böyük Zəfərin 5-ci ildönümünə təsadüf edən andiçmə mərasimlərində çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində mətinliklə döyüşmüş sərhədçilərin dövlət sərhədlərinin toxunulmazlığını ən yüksək səviyyədə təmin etdiklərini xüsusi vurğulayıblar.

Gənc əsgərlər təntənəli şəkildə Hərbi Anda gətirildikdən sonra DSX-nin rəisi general-polkovnik Elçin Quliyevin təbrik teleqramı tədbir iştirakçılarına çatdırılıb.

Tədbirlərdə Vətənə, dövlətə sədaqət andı içən gənc əsgərlərin nümunəvi hərbi qulluqçu kimi dövlətə, xalqa və Müzəffər Ali Baş Komandana daim sadiq qalacaqlarına, Vətən sərhədlərini göz bəbəyi kimi qoruyacaqlarına əminlik ifadə olunaraq onlara müvəffəqiyyətlər arzulanıb.

Hərbi qulluqçuların valideynləri yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, övladlarını təbrik edərək Vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə ediblər.

Andiçmə mərasimləri gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatıb.

## *Çində yeni müqavilə imzalandı:*

# Ölkəmizdə dəmir zavodunun tikintisi və istismarı üzrə əsas mərhələ başlayır

**2025-ci il noyabrın 13-də Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində "Daşkəsən Dəmir Filiz" MMC-nin törəmə şirkəti "Azerbaijan Metal Company" MMC və Çinin "Sinosteel Equipment & Engineering Co., Ltd" şirkəti arasında illik 2 milyon ton istehsal gücünə malik isti briketlənmiş dəmir (İBD) zavodunun inşası üçün bank təyinatlı texniki-iqtisadi əsaslandırma sənədinin (TİƏ) hazırlanması üzrə müqavilə imzalanıb.**




Müqavilə "AzMC" MMC-nin baş direktoru Ceyhun Əliyev və "Sinosteel" şirkətinin baş direktoru Hua Guanglin tərəfindən imzalanıb. Sazişin ümumi dəyəri 1 510 000 ABŞ dolları təşkil edir.

Layihə çərçivəsində hazırlanacaq texniki-iqtisadi əsaslandırma sənədi Şəmkir rayonu ərazisində inşası planlaşdırılan isti briketlənmiş dəmir zavodunun tikintisi və istismarı üçün əsas mərhələ hesab olunur. Dörd ay müddətində tamamlanması planlaşdırılan sənəd, zavodun tikintisi layihəsinin maliyyələşdirilməsi istiqamətində beynəlxalq institutlar və banklar qarşısında əsas istinad sənədi rolunu oynayacaq. Hazırlanacaq TİƏ sənədi zavodun inşası üçün optimal texnoloji həllərin müəyyən edilməsini, tikinti və mühəndislik işlərinin planlaşdırılmasını, eləcə də tammiqyaslı işlənməsi üzrə növbəti mərhələlərin həyata keçirilməsini təmin edəcək.

Qeyd edək ki, "Sinosteel Equipment & Engineering Co., Ltd" metallurji xammalın emalı, tədarükü və metallurgiya texnologiyaları sahəsində ixtisaslaşmış Çin dövlətinə məxsus aparıcı "Sinosteel Group Corporation Limited" sənaye korporasiyasının əsas törəmə şirkətlərindən biridir. Dəmir filizi yataqlarının işlənilməsi və dəmir filizlərinin emalı sahəsində geniş təcrübəyə malik olan şirkət həm Çində, həm də başqa ölkələrdə müxtəlif sənaye layihələrini icra edib.

Bu şirkət, həmçinin dəmir filizinin emalı ilə bağlı müəssisələrin qurulması və idarə edilməsində avadanlıqların inteqrasiyası, yüksək texnologiyaların və elmi yanaşmaların tətbiqi üzrə xidmətlər göstərir. Şirkət texnoloji və ekoloji təhlükəsiz hasilat və emal üsullarından istifadə etməklə Türkiyə, Avstraliya, Cənubi Afrika Respublikası, Əlcəzair, Hindistan kimi ölkələrdə resursların səmərəli istismarını təmin edib.

Xatırladaq ki, "Azerbaijan Metal Company" MMC birgə müəssisəsi bu il sentyabrın 23-də "Azergold" QSC-nin törəməsi "Daşkəsən Dəmir Filiz" MMC və Qazaxıstanın "Fonte GreenMet Investments Fund OEIC Limited" şirkəti tərəfindən təsis olunub. Müəssisə illik 2 milyon ton istehsal gücünə malik İBD zavodunun maliyyələşdirilməsi, layihələndirilməsi, qurulması və gələcək istismarı üzrə fəaliyyət göstərəcək.

Şəmkir rayonu ərazisində tikiləcək zavodun 2029-cu ilin ortalarında istismara verilməsi nəzərdə tutulur. Müasir və ekoloji baxımdan təhlükəsiz texnologiyaların tətbiqi ilə həyata keçiriləcək layihənin ümumi investisiya dəyəri təxminən 700 milyon ABŞ dolları təşkil edir. Sözügedən layihə çərçivəsində ÜDM-yə illik 694 milyon ABŞ dolları həcmində töhfə gözlənilir və təqribən 1600 nəfərin birbaşa və dolayı şəkildə işlə təmin olunması planlaşdırılır.




## *Amerikalı ekspert:* "Azərbaycan regional ticarətdə alternativ istiqamətlər təqdimetmə qabiliyyətini artırır"

**"Azərbaycan coğrafi və logistik baxımdan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas mərkəzində yerləşir. Bu mühüm nəqliyyat şəbəkəsi Hind okeanını İran, Xəzər regionu və Rusiya üzərindən Şimali Avropa ilə birləşdirir. Azərbaycanın mərkəzi mövqeyi yalnız coğrafi amillərlə məhdudlaşmır. Ölkə bu üstünlüyü məqsədyönlü şəkildə inkişaf etdirdiyi infrastruktur layihələri ilə daha da möhkəmləndirib. Dəmir yollarının modernləşdirilməsi, gömrük sistemində inteqrasiyanın gücləndirilməsi və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyəti Azərbaycanın rolunu, sadəcə, tranzit ölkəsi olmaqdan çıxararaq onu regional ticarət və logistika mərkəzinə çevirib".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında amerikalı ekspert, siyasi icmalçı İrina Tsukerman söyləyib.

O bildirib ki, Bakı Şimal-Cənub layihəsinə praqmatik yanaşır. Azərbaycan özünü böyük güclər arasında passiv iştirakçı kimi təqdim etmək əvəzinə, bu dəhlizi həm ticarət tərəfdaşlarını, həm də diplomatik əlaqələrini şaxələndirmək üçün istifadə edir. Həmçinin Rəşt-Astara dəmir yolu bağlantısına və Xəzər dənizindən logistik əlaqələrə sərmayə qoymaqla yük daşımaları, konteynerlər və xüsusi mallar üçün etibarlı bir marşrut formalaşdırır. Dəhliz həmçinin Azərbaycanın enerji diplomatiyasını genişləndirir. Körfəzə çıxış vasitələri xam neft, emal olunmuş məhsullar, neft-kimya və kənd təsərrüfatı məhsullarının ixracı üçün əlavə imkanlar yaradır. Hər bir tamamlanmış seqment enerji təhlükəsizliyinin yalnız boru xətləri deyil, həm də təchizat zəncirləri ilə bağlı anlayışını genişləndirir.

"Şimal-Cənub" nəqliyyat marşrutu həm Avropa, həm də Asiya üçün ənənəvi Şərq-Qərb xəttində yarana biləcək mümkün pozuntulara qarşı etibarlı alternativ - bir növ "hedc mexanizmi" rolunu oynayır. Bu, Azərbaycanın regional ticarətdə alternativ istiqamətlər təqdim etmə və yük axınlarını diversifikasiya etmə imkanlarını əhəmiyyətli dərəcədə artırır. Eyni zamanda e-gömrük sistemlərinin tətbiqi, əvvəlcədən məlumat mübadiləsi və vahid tarif mexanizmlərinin yaradılması logistika əməliyyatlarını daha şəffaf, proqnozlaşdırıla bilən və etibarlı edir. Dəhliz təkcə iqtisadi deyil, həm də geosiyasi baxımdan mühüm əhəmiyyət daşıyır. Azərbaycan həm Rusiya, həm də İranla konstruktiv əməkdaşlıq münasibətlərini qoruyur, paralel şəkildə Qərb institutları ilə də açıq və balanslı əlaqələr saxlayır. Bu yanaşma ölkənin regionda praqmatik, sabit və neytral aktor kimi mövqeyini möhkəmləndirir.

Dəmir yolunun elektrifikasiyası və logistik parkların yaradılması göstərir ki, "Şimal-Cənub" dəhlizinin inkişafı yalnız tranzit imkanlarını genişləndirmir, həm də ölkə daxilində iqtisadi faydalar yaradır. Bu proses sənaye klasterlərinin formalaşmasını sürətləndirir, anbarçılıq, qida emalı və xidmət sektorunun inkişafına təkan verir. Bununla yanaşı, müəyyən çağırışlar da qalmaqdadır: müxtəlif tənzimləmə rejimlərinin fərqliliyi, sanksiya riskləri, tarif siyasətinin uyğunlaşdırılması və qonşu nəqliyyat şəbəkələri ilə koordinasiya məsələləri hələ də əlavə işlənməyə ehtiyac duyur.

Siyasi icmalçının fikrincə, "Şimal-Cənub" nəqliyyat dəhlizi bu baxımdan Azərbaycanın regional balanslaşdırıcı güc kimi strateji nüfuzunu artırır və ölkəni iqtisadi diplomatiyanın əsas mərkəzlərindən birinə çevirir.

Həmçinin COP29-un Bakıda keçirilməsinin Azərbaycanın beynəlxalq imici və regional liderliyi üçün əhəmiyyətindən danışan İ.Tsukerman deyib: "COP29-un Bakıda keçirilməsi Azərbaycan üçün enerjiyönümlü ölkə imicindən çıxaraq, ekoloji məsuliyyətlə bağlı yeni bir baxış yaratmaq baxımından əhəmiyyətlidir. Uzun illər ölkə əsasən neft ixracı və boru xətləri siyasəti ilə tanınırdı. Dünyanın iqlim konfransını paytaxt Bakıya gətirməklə Azərbaycan davamlılıq dialoqunda bir vasitəçi və sənayesi inkişaf edən ölkələrlə ədalətli keçid üçün körpü rolunu oynayır.

Bakının evsahibliyi diplomatik çevikliyə işarədir. Azərbaycan iqlim sahəsindəki müxtəlif bloklar arasında konsensus yaratmaq bacarığını nümayiş etdirdi. Konfrans, həmçinin ölkəni modernləşən iqtisadiyyat kimi göstərir və yenilənə bilən enerji, hidrogen və şəbəkə bağlantısı sahələrinə sərmayələri cəlb edir.

Beynəlxalq səviyyədə konfrans Azərbaycanın neytral dialoq platforması kimi rolunu gücləndirir. Eyni zamanda regionda ekoloji əməkdaşlıq ilə siyasi mübahisələrin alternativini təqdim edir. Konfrans xarici investisiyaları cəlb etməklə, iqtisadi diversifikasiyaya da xidmət edir. "Yaşıl istiqraz"lar, karbon ticarəti və dayanıqlı maliyyə alətləri Azərbaycan üçün yeni imkanlar yaradır. Daxildə isə COP29 institusional islahatları sürətləndirir, layihə idarəçiliyi və məlumat şəffaflığı bacarıqlarını artırır. Bu da Cənubi Qafqazın aparıcı diplomatik mərkəzi kimi Bakının mövqeyini möhkəmləndirir və enerji praqmatizmi ilə ekoloji diplomatiyanı birləşdirən model kimi nüfuzunu artırır".

Amerikalı ekspert əlavə edib ki, Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında əməkdaşlıq Avrasiyanın fiziki və institusional xəritəsini yenidən formalaşdırır: "Sovet dövründən miras qalmış şimalyönümlü infrastruktur artıq şaxələndirilir. Bu əməkdaşlıq Şərqdən Qərbə yeni marşrutlar yaradır və hər iki tərəfə müstəqillik və dayanıqlılıq təmin edir. Enerji inteqrasiyası - boru xətləri, elektrik xətləri və daşımalar şəbəkəsi birləşdirilir. Azərbaycan infrastrukturu idarəetmə təcrübəsini paylaşaraq Mərkəzi Asiya ölkələrinə ixrac imkanlarını genişləndirməyə dəstək olur. Liman, gəmi və dəmir yolu terminalına sərmayələr bu əməkdaşlığı əməli addımlara çevirir. Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında gömrük prosedurlarının və rəqəmsal izləmə sistemlərinin uyğunlaşdırılması yük daşımalarını sürətləndirir və investorlar üçün proqnozlaşdırıla bilən mühit yaradır.

"Azərbaycan qazdan elektrikə keçid sistemləri və bərpaolunan enerji sahələrində təcrübəsi ilə Mərkəzi Asiya ölkələrinə örnəkdir. Xəzərdən keçməklə enerji şəbəkələrinin birləşdirilməsi mövsümi mübadiləyə və regional balans bazarına imkan yaradır. Koordinasiya edilmiş infrastruktur standartları və tarif siyasəti, böyük xarici bazarlara qarşı kollektiv güc təmin edir. Logistika dəhlizləri depolar, anbarçılıq və xidmət sahələri formalaşdırır. Bərpaolunan enerji, hidrogen və külək enerjisi layihələri texnologiya transferinə və davamlı innovasiya ekosisteminə töhfə verir", - deyən siyasi icmalçı sonda əlavə edib ki, Azərbaycan və Mərkəzi Asiya əməkdaşlığı regionu dayanıqlı dəhlizə çevirir, ixrac və idxal marşrutlarını şaxələndirir və qlobal iqtisadi inteqrasiya üçün bazar yaradır.

## "COP29-la bağlı edilən tənqidlər, aparılan kampaniyalar bu gün real nəticələrin fonunda tamamilə iflasa uğrayıb"

**Rumıniyalı siyasi analitik Vlad Barza Braziliyada keçirilən COP30-un iqlim gündəmini təhlil edərək bildirir ki, dünya ictimaiyyəti bu konfransdan böyük gözləntilərə malik olsa da, hazırkı hazırlıq prosesi ciddi suallar yaradır.**




Onun sözlərinə görə, Belemdə keçiriləcək tədbir nə siyasi dinamizm, nə də liderlərin iştirak səviyyəsi baxımından əvvəlki zirvələrin səviyyəsinə yaxın deyil. Bu isə iqlim məqsədlərinin reallığı, qlobal məsuliyyət və ölkələrin ambisiyaları barədə narahatlıq yaradır.

Vlad Barza xatırladır ki, vaxtilə COP29-un Bakıda keçirilməsi qərarı elan olunanda bəzi dairələr Azərbaycanın rolunu kiçiltməyə, tədbiri "keçici və texniki" səviyyəyə endirməyə çalışırdılar. Hətta konfransa qədər və tədbir müddətində Azərbaycana qarşı məqsədli qarayaxma kampaniyaları aparılır, COP29-un əsas qərarlarının məhz Belem konfransında veriləcəyi iddia edilirdi. Lakin faktlar tam əksini göstərdi. Məhz Bakı konfransı zamanı Zərər və İtki Fondunun əməli fəaliyyətə başlaması, yeni maliyyə mexanizmlərinin formalaşdırılması, inkişaf etməkdə olan ölkələr üçün iqlim dəstəyi alətlərinin genişləndirilməsi kimi həlledici qərarlar qəbul edildi. Təmsilçiliyin genişliyi, qlobal iştirakçılıq və yekun sənədlərin əhatəliliyi COP29-u iqlim diplomatiyasının son illərdəki ən əhəmiyyətli toplantılarından birinə çevirdi.

Vlad Barza vurğulayır ki, COP30-da mənzərə tam fərqlidir. Dünya liderlərinin iştirakı minimaldır, gündəmdə konkret siyasi razılaşmalar yoxdur, konfransdan əvvəl, adətən, keçirilən yüksəksəviyyəli müzakirələr belə baş tutmayıb.

Analitik müqayisəni davam etdirərək qeyd edir ki, COP29-la bağlı aparılan tənqidlər, kampaniyalar və bəyanatlar bu gün real nəticələrin fonunda tamamilə iflasa uğrayıb.

O, həmçinin qeyd edir ki, Azərbaycanın COP29-dakı fəaliyyəti yalnız texniki təşkilatçılıq deyil, həm də regional liderlik, çoxtərəfli diplomatiya və qlobal iqlim siyasətində yeni nüfuz xəttinin başlanğıcı kimi dəyərləndirilir. Bakı həm inkişaf etmiş, həm inkişaf etməkdə olan ölkələr arasında balans yarada bildi, həm də real iqlim öhdəliklərinin formalaşmasına nail oldu.

Nəticə olaraq, analitik hesab edir ki, COP29-un uğurları qlobal iqlim prosesində Azərbaycanın rolunu gücləndirib, COP30 isə bu dinamikanı davam etdirmək əvəzinə hələlik qeyri-müəyyənliklə yadda qalır. Bu mənzərə Bakının əhəmiyyətini daha da qabardır və iqlim diplomatiyasında Azərbaycana qarşı propaqanda aparanların arqumentlərini tamamilə təkzib edir.

## *Paşinyan:* "Ermənistan Türkiyə ilə Azərbaycan arasında tranzit yükdaşımaları təmin etməyə hazırdır"

**"Ermənistan elə bu gün Maraqara və Kornidzor keçid məntəqələrindən Türkiyə ilə Azərbaycan arasında tranzit yükdaşımaları təmin etməyə hazırdır".**



AZƏRTAC xəbər verir ki, bu sözləri Ermənistanın Baş naziri Nikol Paşinyan İrəvanda təhlükəsizlik məsələlərinə həsr olunan konfransda çıxışında deyib. O bildirib: "Mən bu sözləri ona görə bəyan edirəm ki, biz buna hazırıq".

N.Paşinyan diqqətə çatdırıb ki, "Tramp marşrutu" Ermənistan ilə Birləşmiş Ştatların birgə yaradacağı şirkət tərəfindən idarə olunacaq. Buna baxmayaraq, şirkətdə əsas həlledici rol Ermənistana məxsus olacaq.

Ermənistanın Baş naziri, həmçinin qeyd edib ki, "Tramp marşrutu"nun Amerikaya 49 və yaxud 99 ilə icarəyə verilməsi məsələsi nəzərdən keçirilir. İcarənin müddəti ABŞ-nin buraya yatıracağı sərmayənin həcmindən və layihənin gəlirindən asılı olacaq.

# REGİONLAR



## Bu gün səpilən toxum sabahın çörəyidir

**Kəndlinin işi heç vaxt bitmir. Hər fəsildə qayğıları var. Pambıq əkilən rayonlarda yığım və kənd təsərrüfatının başqa sahələrində işlər davam edir, eyni zamanda taxıl əkini günbəgün sürətlənir.**

**Cəlilabad**

Cəlilabad əvvəldən taxılçılıq rayonu kimi şöhrət tapıb. Onun kəhrəba dənli buğdası 1941-1945-ci il müharibəsi zamanı insanların, əsasən də, cənub bölgəsi əhalisinin dadına çatıb, onları aclığın, səfalətin, ölümün pəncəsindən xilas edib.

Keçən əsrin 60-70-ci illərində rayonda taxılçılıq sahəsində daha çox göstəricilər əldə olunub. Buna görə Cəlilabada "Azərbaycanın Ukraynası" deyiblər. Əldə edilən uğurlara görə neçə-neçə zəhmət adamı o dövrün Sosialist Əməyi Qəhrəmanı kimi yüksək adına layiq görülüb, orden və medalları, böyük mükafatlarla təltif edilib. Sonralar burada kənd təsərrüfatının digər sahələri - üzümçülük, kartofçuluq inkişaf edib, çiyələk, noxud, lərgə, qarğıdalı, günəbaxan bitkilərinin əkinləri genişlənib.

Lakin bunlar taxılçılığın inkişafını kölgədə qoymayıb. Əksinə, Cəlilabadda bu qiymətli nemətin əkilib-becərilməsi daha da təkmilləşib. Yeni məhsuldar toxum sortlarının əkilməsi, müasir texnologiyaların tətbiqi nəticəsində cəlilabadlılar keyfiyyət və kəmiyyət göstəricilərini yaxşılaşdırmağa nail olublar. Hər bir fermer çalışır ki, daha çox məhsul əldə etsin. Bol məhsul isə xoş güzəran, firavan həyat deməkdir.

Cari il rayonda hər hektar buğda zəmisindən orta hesabla 35,6 sentner olmaqla, ümumilikdə 118 min 324 ton, arpa zəmilərinin hər hektarından orta hesabla 31,5 sentner olmaqla, ümumilikdə 42 min 335 ton məhsul götürülmüşdür. Fermerlərdən Lətif Ağayev, Xaqani Abuşov, Həsənxan Babayev və başqaları rayon səviyyəsindən çox - hər hektardan 38,5 sentner taxıl tədarük etmişlər. Bunlar onu göstərir ki, cəlilabadlılar öz ənənələrinə sadiqdirlər.

İşə belə münasibət növbəli əkin üçün də şərait yaradır. Bu il kartof, qarğıdalı, günəbaxan və digər bitkilər əkilən sahələrə növbəti il taxıl əkəndə yüksək məhsul əldə edilir və ya əksinə. Belədə həm də bitkilər xəstəliyə qarşı davamlı olur.

Rayonda gələn ilin taxıl məhsulu üçün hazırda qızğın iş gedir. Hər yanda traktorların işlədiyini, torpağa toxum səpdiyini görmək mümkündür. Hər kəs istəyir ki, şaxtalar düşməmiş bu mühüm kampaniyanı başa çatdırsın. Gələn ilin məhsulu üçün bu payız 65 min hektarda səpin aparılması nəzərdə tutulub. Təxminən 16 min fermer taxıl səpini işinin gedişi ilə məşğuldur. 50 min hektar sahədə buğda, 15 min hektarda arpa əkilməsi nəzərdə tutulur. İndiyədək 53 min hektarda əkin aparılmışdır. İmkanlı fermerlər torpaq altına kifayət qədər mineral və üzvi gübrələr vermişlər. Toxumla birlikdə sahəyə ammofos gübrəsi verənlər də var. Əkində, əsasən, "Bərəkətli-95", "Qobustan", "Əzəmətli-95" yerli toxum sortlarından istifadə edilir. Səpinə 300-ə yaxın traktor, 92 səpin aqreqatı, bir o qədər də mala və digər texnikalar cəlb olunub.

**Salyan**

Salyanın kənd təsərrüfatı işçiləri taxılçılığın inkişafına xüsusi diqqət yetirirlər. Bu həm çörəyin müqəddəs nemət, həm də taxıl əkilən sahələrin digər bitkilər, xüsusilə rayonda çox əkilən pambıq üçün sələf olmasından irəli gəlir. Növbəli əkin sistemini tətbiq etməklə onlar həm taxıl, həm də pambıq tarlalarından yüksək məhsul götürürlər.

Fermerlərdən Əli Novruzov, Cavidan Bəşirli, Mərdan Cəlilov, Qulu Novruzov keçən ilin payızında əkdikləri sahələrdən bu il 55-60 sentner buğda biçmişlər. Ümumilikdə cari ilin yayında 12 min 696 hektar sahənin hər hektarından orta hesabla 42,3 sentner məhsul götürülmüşdür. Ayrı-ayrılıqda isə 5 min 202 hektar buğda sahəsinin hər hektarından 48,5, 7 min 494 hektar arpa sahəsinin hər hektarından 38 sentner taxıl biçilmişdir ki, bu da əvvəlki illərdəkindən çoxdur.

Hazırda gələn ilin məhsulu üçün səpin aparılır. Rayondakı fermerlərin 9 min nəfəri 15 min hektar sahəyə buğda və arpa toxumu səpməyi qarşılarına məqsəd qoymuşlar. Son məlumata görə, 5 min hektara yaxın sahədə səpin işi başa çatıb. Arpa buğdadan daha çox əkilib ki, bu da aqrotexniki səbəblərlə bağlıdır. Arpa buğdaya nisbətən şaxtaya az davamlı olduğundan onun səpini də tez başa çatmalıdır. Sahələrə, əsasən, "Qarabağ-33", "Cəlilabad-19", "Qarabağ-22" arpa, "Qobustan", "Bərəkətli-95", "Aran" buğda növləri səpilir.

**Neftçala**

Bu payız Neftçalada 32 min 800 hektarda taxıl əkilməsi planlaşdırılıb. Onun 5 min 100 hektarı buğda, 27 min 700 hektarı arpadır. Artıq 21 min hektardan çox sahədə səpin aparılıb. 2 min hektar sahə isə səpsuvar edilib.

Oktyabr ayında yağan yağışlar əkilən sahələrin çoxunda toxumların cücərməsinə səbəb olub. İndi həmin sahələr yaşıl xalını xatırladır. Zəmilərə "Qarabağ-22", "Ramata", "İosif-2" arpa, "Qızılgül", "Qobustan", "Murov-2", "Bərəkətli-95", "Əzəmətli" buğda növləri səpilib. Səpin zamanı toxumla birlikdə torpağın hər hektarına 150 kiloqram ammofos gübrəsi verilib.

Neftçala fermerlərinin taxılçılıqda yaxşı təcrübəsi var. Onlar suvarılan sahələrdə olduğu kimi, dəmyə şəraitində də yüksək məhsul yetişdirməyin yollarına bələddirlər. Bu il keçən ilin payızında əkilən 32 min 706 hektardan 83 min 880 tondan çox məhsul əldə etmişlər. Taxılçı fermerlər gələn il daha yüksək nəticələrə nail olmaq üçün əkini daha keyfiyyətli aparırlar.

Taxıl elin sərvətidir. Bu sərvət nə qədər çox olsa, o qədər yaxşıdır. Taxıl bol olanda xarici ölkələrdən taxıl almağa ehtiyac qalmır. Alimlərimiz, elmi-tədqiqat institutlarımız bu sahədə daha səmərəli fəaliyyət göstərməli, qida sənayesi üçün lazım olan yeni, məhsuldar növlər yetişdirməlidirlər. Bunun üçün ölkəmizdə hər bir şərait var.

*Seyran CAVADOV, "Azərbaycan"*

## Cəbrayılda səyyar tibbi aksiya keçirilib

**Səhiyyə Nazirliyi işğaldan azad olunan ərazilərdə "Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində əhali arasında kompleks tibbi müayinələr, eyni zamanda sağlamlığın təşviqi ilə bağlı maarifləndirici aksiyaların keçirilməsini davam etdirir.**



Nazirliyin Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun həkim heyəti, o cümlədən artroloq, nevroloq, terapevt, pediatr, dermatovenerolog, ginekoloq, fizioterapevt-reabilitoloq və tibb bacıları tərəfindən Cəbrayıl rayonunda əhali üçün səyyar müayinələr keçirilib.

Aksiya çərçivəsində sakinlər arasında nevroloji, artroloji, dermatoloji, ginekoloji, fizioterapevtik, pediatrik reabilitasiya istiqamətlərində, eyni zamanda nevroloqlar tərəfindən EMQ (Elektromioqrafiya) müayinələri aparılıb. Bundan əlavə, müayinələr zamanı səhhətində problem aşkarlanan sakinlərə peşəkar tibbi məsləhətlər verilib və müvafiq müalicələr təyin olunub.

Ortayaşlı əhalidə onurğa, sinir, dayaq-hərəkət, mədə-bağırsaq, dəri-zöhrəvi, həmçinin ümumi serebrovaskulyar xəstəliklərin aşkar edilməsi, 16-65 yaş əhali arasında skolioz və digər vertebrogen problemlərin diaqnostika və bərpası, habelə 14 yaşa qədər uşaqlara pediatr baxışı üzrə müayinələr aparılıb.

Aksiya iştirakçılarına institutun fizioterapevt və reabilitoloqlar tərəfindən profilaktik tövsiyələr verilib. Bildirilib ki, fizioterapiya zamanı yaş, əsas və yanaşı gedən xəstəliklər və həyat fəaliyyəti nəzərə alınmalıdır. Eyni zamanda medikamentoz terapiya ilə yanaşı, fizioterapiyanın həm təbii, həm də süni fiziki faktorlarını fərdi olaraq təyin etməklə, sağlamlığın erkən əldə olunmasına köməklik etdiyi diqqətə çatdırılıb.

Aksiya zamanı 220-yə yaxın vətəndaş müayinələrdən keçirilib.

Qeyd edək ki, Səhiyyə Nazirliyi tərəfindən işğaldan azad edilən digər ərazilərdə də davamlı olaraq maarifləndirici tədbirlərin və müayinə aksiyalarının keçirilməsi nəzərdə tutulub.

## Qəbələyə səfər edən yerli turistlərin sayında 26,5 faiz artım qeydə alınıb

**Bu ilin yanvar-oktyabr aylarında Qəbələ rayonundakı hotel və mehmanxana tipli müəssisələrə 78 min 486 nəfər yerli və əcnəbi turist yerləşdirilib. Onların 38 min 4 nəfəri və ya 48,4 faizi Azərbaycan, 40 min 482 nəfəri və ya 51,6 faizi xarici ölkə vətəndaşıdır.**

Bu barədə AZƏRTAC-a Qəbələ Rayon Statistika İdarəsindən məlumat verilib. Bildirilib ki, yanvar-oktyabr aylarında Qəbələnin hotel və mehmanxana tipli müəssisələrinə yerləşdirilən yerli turistlərin sayında keçən ilin müvafiq dövrü ilə müqayisədə 5 min 75 nəfər və ya 26,5 faiz artım, əcnəbi turistlərin sayında isə 14 min 639 nəfər və ya 26,6 faiz azalma qeydə alınıb.

## Tovuz: ilin sonu yaxınlaşsa da, işin sonu görünmür

**Son illər dünyanı rahatsız edən məsələlərdən biri də ərzaq təhlükəsizliyidir.**







Bu sahədə mövcud olan problemlər ölkələrdən həmin istiqamətdə əsaslı dönüş yaratmağı tələb edir. Bu baxımdan, Azərbaycan da istisna deyil.

Ölkə üzrə bu istiqamətdə həyata keçirilən islahatlar Tovuzda da uğurlu nəticələr verir. Xüsusilə son illər kənd təsərrüfatı məhsulları istehsalı sahəsində əldə olunan nailiyyətlər bunu deməyə əsas verir.

Payızın, necə deyərlər, oğlan çağıdır. Qarşıdan qış gəlir. Belə bir vaxtda əkinçilər yetişdirdikləri kənd təsərrüfatı məhsullarını qısa vaxt ərzində yığıb başa çatdırmaq üçün əllərindən gələni əsirgəmirlər. İli uğurla yola salmaq əzmində olan tovuzlular bu il də yüksək göstəricilər qazanırlar. Aldığımız məlumata görə, cari ilin ötən dövrü ərzində rayonda kənd təsərrüfatı məhsulları istehsalının faktiki qiymətlərlə dəyəri 310 milyon 616,8 min manat olmuşdur ki, onun da 70 milyon 947,5 min manatlığı heyvandarlıq, 239 milyon 669,3 min manatlığı bitkiçilik məhsullarının payına düşür. Əvvəlki illərdə olduğu kimi, bu il də kənd təsərrüfatı bitkilərinin becərilməsinə diqqət artırılmış, aqrotexniki tədbirlər optimal müddətdə başa çatdırılmış, xəstəlik və ziyanvericilərə qarşı mübarizə tədbirləri vaxtında aparılmışdır. Bunların hesabına sahələrdən 38 min 802 ton buğda, 7 min 500 ton arpa, 8 min 950,7 ton dən üçün qarğıdalı, 485,4 ton dən üçün günəbaxan, 27 min 729,8 ton tərəvəz, 1 min 129,7 ton bostan, 24 min 28,5 ton yem bitkiləri istehsal olunmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə buğda istehsalı 5 min 30, arpa istehsalı 73, dən üçün günəbaxan istehsalı 7,8 ton çox olmuşdur.

Rayonda heyvandarlıq məhsulları istehsalı da əvvəlki ilə nisbətən xeyli artmışdır. Son məlumata görə, qoyun və keçilərin sayı 122,3 min, qaramalın sayı 14,4 min başa çatmışdır ki, bu da keçən illə müqayisədə 15,2 faz çoxdur. İlin ötən dövrü ərzində ət istehsalı (diri çəkidə) 6 min 31,6, süd istehsalı 25 min 610,3 tona, yumurta istehsalı 15 milyon 53 min ədədə çatmışdır.

Tovuzda kartofçuluğun da inkişafına diqqətlə yanaşılır. Ölkənin böyük kartof istehsalçılarından olan Tovuzda bu il 136 min 803,1 ton kartof yığılmışdır ki, bu da əvvəlki ildəki göstəricidən çoxdur. Hər hektarın məhsuldarlığı 300 sentnerə yaxın olmuşdur. İstehsal olunan kartofun saxlanmasında da elə bir problem yaşanmır. Rayonda 22 min 500 ton tutumu olan soyuducu anbar kompleksi var. Logistik mərkəz kimi fəaliyyət göstərən bu obyekt rayonda kartofçuluğun inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Üzümçülüyə də maraq çoxdur. Hazırda rayonda 1150 hektar üzüm bağı var ki, onun da 20 hektarı keçən il salınıb. Elə ötən il bağlardan 30 min 441,5 ton məhsul götürən bağbanlar cari ildə bu rəqəmi xeyli artırmış, hər hektardan 284,5 ton üzüm yığmışlar. İstehsal olunan üzümün emalı və satışının təşkili istiqamətində də bir sıra işlər görülmüşdür. Məsələn, Aşağı Quşçu kəndində 3 min tonluq üzüm emalı müəssisəsi istifadəyə verilmişdir.

Hazırda iqtisadiyyatının əsasını aqrar sahə təşkil edən Tovuzda növbəti kənd təsərrüfatı ilinə geniş hazırlıq işləri görülür. Məhsulu yığılmış sahələr şumlanır, əkin aparılmış sahələrə müxtəlif mineral gübrələr verilir.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## Kəndlinin güvən yeri - aqrar sığorta

**Məlum olduğu kimi, dünyada baş verən iqlim dəyişikliyindən ən çox əziyyət çəkən sahə aqrar sektordur. Bu sahədə inkişafın təməlində duran başlıca faktor havaların əkinçilik üçün yararlı olmasından asılıdır. Aşırı yağışlar, quraqlıq və digər təbiət hadisələri dünyada məhsuldarlığın aşağı düşməsinə səbəb olur.**

İqlim dəyişikliyi səbəbi ilə fermerlərə dəyən ziyan bu sahənin rentabelliyinə mənfi təsir göstərir. Bu üzdən əkinçiliklə məşğul olanların məhsul yetişdirməsinə maraq azala bilər. Belə hal dünyada olan ərzaq çatışmazlığını daha da gərginləşdirir. Digər tərəfdən, ərzaq qiymətlərinin daha da bahalaşması insanların normal qida ilə təminatını çətinləşdirir.

Dünyada dövlətlərin ən çox subsidiya və digər güzəştlərə ayırdığı sahə aqrar sektordur. Ölkəmizdə də bu sahənin inkişafı dövlətin diqqət mərkəzindədir. Azərbaycan dünyada kəndliyə ən çox güzəştlər tətbiq edən ölkələrdəndir. Belə ki, ölkəmizdə aqrar sektorda çalışanlar torpaq vergisindən savayı bütün növ vergilərdən azad olunub və bununla yanaşı, çoxsaylı güzəştlərdən də istifadə edirlər.

Dövlətin fermerlerə etdiyi güzəştlərdən biri də onların aqrar sığortaya cəlb olunmasıdır. Azərbaycanda fermerlərə sığorta haqqının 50 faizi dövlət tərəfindən ödənilir. Kəndli də yaradılan imkandan istifadə edib təsərrüfatını sığorta edir ki, bu da onun qarşılaşa biləcəyi ziyandan qorunmasına güvən verir. Belə olan halda fermerlər əmindirlər ki, bütün hallarda onlara dəyən ziyan növbəti il üçün yenidən əkib-becərməyə mane yaratmayacaq.

Dövlət dəstəyi fermerlərin aqrar sığortaya marağını ildən-ilə artırır və bu sektorda yüksək dinamika müşahidə olunur. Hazırda dövlət dəstəyi ilə tətbiq olunan sığorta mexanizmi ümumilikdə 41 növ bitki və bitki məhsulunu əhatə edir.

Aqrar Sığorta Fondu 2025-2026-cı illər əkin mövsümü üzrə meyvə bağlarının sığortalanma dövrünün başlandığını bildirir. Aqrar Sığorta Fondu meyvə bağlarını çoxsaylı risklərdən - dolu, qasırğa, fırtına, sel və subasma, leysan, şaxtavurma (donvurma), normadan artıq yağan qar yağıntıları, üçüncü şəxslərin hərəkətləri, yanğın, dolu yağması nəticəsində keyfiyyət itkisi kimi risklərdən sığorta edir. Bununla yanaşı, aqrar sığorta meyvə bağlarını bitki xəstəlikləri, zərərvericilər və xüsusi təhlükəli ziyanvericilərin yayılması, habelə zəlzələ, torpaq sürüşməsi, ildırım nəticəsində yarana bilən risklərdən qoruyur.

Meyvə bağında hər hansı bir hadisə nəticəsində dəymiş zərər müstəqil aqrar sığorta ekspertləri tərəfindən müəyyən edilir və Aqrar Sığorta Fondu fermerlərə dəymiş zərəri qarşılayır.

Meyvə bağlarını sığorta etmək olduqca sərfəlidir. Məsələn, 1000 manatlıq meyvənin baza zərfi ilə sığortalanması üçün fermerdən tələb olunan məbləğ meyvədən və regiondan asılı olaraq 10-25 manat arasında dəyişir. Bu hesabla, məsələn, bağda 10 min manatlıq məhsul varsa, həmin bağın sığortası fermerə təqribən 100-250 manata başa gəlir.

Qeyd edək ki, Aqrar Sığorta Fondunun sığortaladığı meyvə bağları üzrə sığorta ödənişləri sürətlə artmaqdadır. 2023-cü ildə meyvə bağları üzrə cəmi 39 min manat ödəniş edilmişdisə, 2024-cü ildə bu məbləğ 720 min, bu ilin ilk 9 ayında isə 159 min manat təşkil edib. Ümumilikdə Azərbaycanda meyvə bağları üzrə aqrar sığorta ödənişləri 1 milyon manata çatıb.

Meyvə bağları üzrə ödənişlər alça, alma, armud, badam, ərik, fındıq, gavalı, gilas, xurma, qoz, limon, nar, naringi, nektarin, portağal, şaftalı, üzüm bağları üzrə həyata keçirilib. Ən böyük sığorta ödənişləri üzüm, gilas, şaftalı-nektarin, badam, armud, ərik, alma və alça bağları üzrə aparılıb.

Üzüm bağlarına dəymiş zərərlər üzrə indiyədək 168 min manat, gilas bağlarına dəymiş zərərlər üzrə 136 min, şaftalı-nektarin bağları üzrə 110 min, badam bağlarına dəymiş zərərlər üzrə isə 93 min manat sığorta ödənişi həyata keçirilib. Müxtəlif hadisələrdən zərərçəkmiş alma və alça bağlarına müvafiq olaraq 77 min manat və 67 min manat sığorta ödənişi edilib.

*Rüstəm KAMAL, "Azərbaycan"*



## "İnvestisiya səyahəti"nin növbəti ünvanı Şamaxı olub

**Regionlarda fəaliyyət göstərən sahibkarlar kapital bazarının imkanları barədə məlumatlandırılır.**



Şamaxıda Mərkəzi Bankın, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA), Bakı Fond Birjasının və investisiya şirkətlərinin iştirakı ilə "İnvestisiya səyahəti" layihəsi çərçivəsində tədbir təşkil olunub.

Tədbirdə regionda fəaliyyət göstərən biznes subyektləri üçün kapital bazarının imkanları, bölgədə bu sahəyə marağın artırılması və biznes ictimaiyyətinin kapital bazarına yönəldilməsi, Bakı Fond Birjasının Listinq Məsləhət Proqramı, "CFI Financial"ın alternativ maliyyə cəlbi imkanları, qiymətli kağız buraxılışında anderraytinq xidməti barədə təqdimatlar keçirilib, sualları cavablandırılıb.

Qeyd edək ki, bu, sayca on altıncı belə tədbirdir. Regionlarda mütəmadi olaraq keçirilən "İnvestisiya səyahəti" tədbirlərinin məqsədi bölgədə çalışan biznes subyektlərini alternativ maliyyələşmə mənbəyi olan qiymətli kağızlar bazarı barədə məlumatlandırmaq və ondan istifadəyə təşviq etməkdir.

Şənbə söhbəti

# Xəbər axtarırıq

## Amma doğru, etibarlı, ictimai əhəmiyyəti olan xəbər



**Keçmiş zamanlarda televizora çox baxırdıq. Çünki o vaxtlar babat verilişlər göstərirdilər. Heyif ki, bu xoşbəxt günlərimiz uzun sürmədi. Kim bilir, bəlkə də gözə gəldik. Gərək babat verilişlər göstərən telekanallarımızı bəd gözlərdən və pis sözlərdən qorumaq üçün tez-tez üzərlik yandaraydıq. Yandırsaydıq, bəlkə də başımıza sonrakı işlər gəlməzdi.**

Son vaxtlar televizora baxa-baxa hiss edirdik ki, deyəsən, babat verilişlər bir-bir aradan çıxır. Elə bil ekrana cinşeytan girib baxımlı verilişləri çırpışdırıb aparır. Buna görə də getdikcə telekanalların zayı çıxırdı, baxılası verilişi-zadı qalmırdı. Biz də əvvəlki verilişlərin xiffətini çəkə-çəkə hirslənirdik.

Bir-iki dəfə çox hirslənəndən sonra istədik ki, telekanalların dərdini öyrənək. Bilək ki, niyə son vaxtlar belə zay-zay verilişlər göstərirlər? Amma nə qədər əlləşsək də, çalışsaq da, öyrənə bilmədik. Bütün cəhdlərimiz alınmadı və o üzdən öyrənə bilmədik ki, nədən əvvəllər gül kimi verilişlər yayan telekanallar dönüb olublar bugünkü gündə?! İndi nə biz onları tanıyırıq, nə də onlar bizi. Bilmirik hirsimizdən nəyə baxaq, hara baxaq, kimə baxaq?!

Hirsli günlərimizdə əlimizə haradansa bir qəzet düşdü. Onun da ora-burasına baxanda gördük ki, bir babat savadı olan televiziya mütəxəssisindən müsahibə alıblar. Müsahibənin ora-burasından 3-4 cümlə oxuyan kimi hiss etdik ki, bu mütəxəssis də bizim təki telekanallardan yanıqlıdır, onların mənasız-mənasız "manıs verilişləri"ndən "sosial şou"larından, xala-bala, ər-arvad, gəlin-qayınana davalarından, həkim təriflərindən narazıdır. Həmin mütəxəssis oxuculara üz tutub deyirdi ki, özünə hörmət edən adam belə "veriliş"lərə baxmaz.

Bu cümləni oxuyandan sonra hirsimiz bir az soyudu. Biz də başqalarına baxanda az-çox özünə hörmət edən adamlar kimi həmin gündən televizordan üz döndərib meylimizi yavaş-yavaş qəzetlərə, saytlara və sosial şəbəkəyə saldıq. Bala-bala baxmağa yox, oxumağa başladıq.

Bəri başdan sizə bir sirr açaq, amma xahiş edirik ki, bunu heç kimə deməyin. Vallah, əksəriyyətində heç oxumağa fərli bir xəbər tapa bilmədik. Çünki bəzi qəzetlər, saytlar, sosial şəbəkələr oxucu kütləsi toplamaq üçün bəzən elə şeylər yazırlar ki, yazmasalar ondan yaxşıdır. O günləri oxuyuruq ki, Çində bir nəfər başdan xarab mədəsini müalicə etmək üçün benzin içir. Braziliyada iki nəfər böyrəyindəki daşı parçalamaqdan ötrü inək minir. Amerikada yaşayan dörd ağdərili isə öd kisəsindəki daşı salmaq üçün mayallaq aşa-aşa gəzir. Avstraliyada subay qızlar tez ərə getmək üçün boyunlarında kenquru gəzdirirlər. Ərəb ölkələrində yaşayan bəziləri boylarını uzatmaq üçün dəvənin quyruğundan sallanırlar. İngiltərədə yaşayan 8 nəfər vərəm xəstəliklərini müalicə etmək üçün dal-dala yeriyir. İspaniyada da bir qisim camaat ayaqlarının ağrısı azalsın deyə qazyerişi gəzir, arada şıllaq da atır.

Bir anlıq təsəvvür edin, çıxırıq şəhərə və görürük ki, kimsə inək çapır, bir başqası boynunda kenquru gəzdirir, üçüncüsü mayallaq aşa-aşa yanımızdan keçir və s. Bu mənzərə nəyə oxşayar? Ona görə də gərək hər oxuduğunuz xəbərə inanmayasınız. Fikirləşəsiniz ki, bu cür xəbərlər ən yaxşı halda yüngülvari bir zarafatdır. Maraq xatirinə yazırlar ki, qəzetləri satılsın, saytları oxunsun, tıklayanları artsın.

Bu fikirləri beynimizdə götür-qoy edə-edə gözümüz smartfonda qəzet köşkünə yaxınlaşırıq. Xəbər axtarırıq. Amma doğru, etibarlı, ictimai əhəmiyyəti olan xəbər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

BEYNƏLXALQ HƏYAT

# İran ABŞ və İsraildən təzminat tələb edib

## Tehrandan BMT-yə müvafiq müraciət ünvanlanıb

**İranın xarici işlər naziri Abbas Əraqçi iyun ayında ölkənin nüvə obyektlərinə endirilən zərbələrdən sonra BMT-dən ABŞ və İsrailə qarşı tədbir görməsini istəyib.**



Nazir bildirib ki, Prezident Donald Tramp və digər ABŞ rəsmiləri cinayət məsuliyyəti daşıyırlar. Çünki Tramp ötən həftə İsrailin iyunun 13-də İrana ilk zərbəsini "əsasən idarə etdiyini" bildirib. Bu barədə İsrailin mignews.com saytı xəbər verib.

Məlumata görə, BMT-nin Baş katibi Antonio Quterreşə və Təhlükəsizlik Şurasına göndərdiyi məktubda Əraqçi müvafiq təzminat və dəymiş ziyana görə kompensasiya tələb edib. Əraqçi bildirib ki, Trampın açıqlaması ABŞ-nin İran və İsrail arasında 12 günlük hava müharibəsinə nəzarət etdiyini təsdiqləyir. "Bu, İsrail rejimi daxilində müharibə cinayətlərinin törədilməsini əmr edən, törədən, kömək edən, təşviq edən və digər şəkildə kömək edən şəxslər də daxil olmaqla, bütün şəxslərin fərdi cinayət məsuliyyətini azaltmır", - deyə Əraqçi qeyd edib.

# Fransızların 68 faizi antisemitizmin geniş yayıldığını düşünür

**Fransada keçirilmiş rəy sorğusunun nəticələrinə görə, fransızların 68 faizi ölkədə antisemitizmin geniş yayıldığını düşünür. Bu rəqəm əvvəlki sorğularla müqayisədə azdır.**



Eyni zamanda respondentlərin 66 faizi son illər antisemitizm səviyyəsinin artdığını və 27 faizi onun əhəmiyyətli dərəcədə daha geniş yayıldığına inandığını bildirib. Sorğu həmçinin respondentlərin 61 faizinin Fransada yaşayan yəhudilərin rahatsızlıqlarını haqlı hesab etdiyini müəyyən edib. Bu rəqəm 2014-cü ildəki 35 faizdən 2024-cü ildə 64 faizə qədər artıb.

Fransızların əksəriyyəti antisemitizmlə mübarizə üçün kifayət qədər iş görülmədiyinə inanır. Sorğuda iştirak etmiş respondentlərin 46 faizi əlavə tədbirlərə ehtiyac olduğunu, 33 faizi görülən tədbirlərin kifayət etdiyini, 21 faizi isə həddindən artıq çox iş görüldüyünü düşünür. Bundan başqa respondentlərin əksəriyyətinin fikrincə, antisemit cinayətlərə qarşı qanunlar ya kifayət qədər sərt deyil, ya da səhv tətbiq olunur. Yalnız 13 faizi bunun əksini düşünür.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *“Azərmətbuatyayımı” ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *“Qaya” firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *“Region Press” MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *“Səma-M” MMC* | (012) 594-09-59 |
| *“Ziya” LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *“Pressinform” MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *“City press” MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Azərbaycanda müxtəlif dinlərin və xalqların nümayəndələri bir ailə kimi dinc və sülh şəraitində yaşayırlar
“Azərbaycan ilə Özbəkistan arasında münasibətlər ən yüksək - müttəfiqlik səviyyəsindədir”
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibə verib
Təvazökar, ədalətli, prinsipial və xalqın içində olun
Prezidentin yerli icra orqanları rəhbərlərindən tələbi budur
Hərbi gücümüz artır
Yaxın gələcəkdə Azərbaycan şirkətləri hərbi təyinatlı modern məhsullar istehsal edəcəklər
Azərbaycan COP29 irsini davam etdirir
Bu dəfə Braziliyada keçirilən COP30-da

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Bilmək istəyirəm

**İpoteka yolu ilə ev almaq istəyirəm. Güzəştli ipoteka kimlərə şamil olunur və bu imkandan yararlanmaq üçün hansı tələblər və sənədlər lazımdır?**

*Lamiyə SALAHZADƏ,*
*Ümid qəsəbəsi*

- Sualınızla bağlı nəzərinizə çatdırırıq ki, güzəştli ipoteka kreditləri Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına, yalnız qanunvericilikdə müəyyən olunmuş güzəştli kateqoriyaya aid şəxslərə verilir. Güzəştli kateqoriyaya aid olmaq üçün şəxsin bu statusunu təsdiq edən sənəd təqdim olunmalıdır. İpoteka krediti almaq üçün əsas tələblər bunlardır: şəxsiyyət vəsiqəsi, nikah (və ya nikahın pozulması) haqqında şəhadətnamə, ailə tərkibi barədə sənədlər, iş yeri və gəlir barədə arayış, fərdi sahibkarlar üçün vergi bəyannaməsi, kredit tarixçəsi və sosial sığorta ödənişləri barədə məlumatlar, ipoteka qoyulan əmlakla bağlı dövlət reyestrindən çıxarış və güzəştli kateqoriyaya aid olmanı təsdiq edən sənəd. Sənədlər elektron sistem vasitəsilə təqdim edilir və müraciətlərə növbəlik əsasında baxılır. Əgər elektron sistemdə sənəd əldə etmək mümkün deyilsə, həmin sənəd birbaşa banka təqdim olunmalıdır. Müvəkkil bank 3 iş günü ərzində qərar qəbul edir və nəticəni elektron sistemdə yerləşdirir. Güzəştli ipoteka yalnız qanunvericilikdə nəzərdə tutulan şəxslərə şamil olunur və bu şəxslərin dairəsi, eləcə də tələb olunan sənədlər müvafiq qaydalarda dəqiq göstərilmişdir. Qaydalara əsasən, güzəştli ipotekadan aşağıdakı kateqoriyadan olan şəxslər yararlana bilərlər:

a) Gənc ailənin üzvü olan aşağıdakı şəxslər: şəhidin övladları; Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanının övladları; Azərbaycanın Milli Qəhrəmanının övladları; məcburi köçkün və ya ona bərabər tutulan şəxs; ən azı 3 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs; ən azı 3 il dövlət ümumtəhsil müəssisəsində müəllim işləyən şəxs; fəlsəfə doktoru elmi dərəcəsi olan şəxs; idman sahəsində xüsusi xidmətləri olan şəxs (fəxri bədən tərbiyəsi və idman xadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışların mükafatçısı (I, II və ya III yer); ən azı 5 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxs.

b) Elmlər doktoru elmi dərəcəsi olan şəxs;

c) Ən azı 15 il dövlət qulluğunda qulluq edən şəxs, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs;

d) Ən azı 3 il hərbi xidmətdə olan (müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulardan başqa), həmçinin ehtiyata və istefaya buraxılmış Azərbaycan Respublikasının hərbi qulluqçuları;

e) Ən azı 3 il daxili işlər orqanlarında xidmət keçən xüsusi rütbəsi olan şəxs;

f) Ən azı 3 il elmi vəzifədə işləyən elmi işçilər;

g) Ən azı 15 il dövlət ümumi təhsil müəssisəsində müəllim işləyən şəxs;

h) Ən azı 15 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxs;

i) Şəhid ailəsinin üzvü (əri/arvadı);

j) Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı (özü, əri/arvadı).

k) Azərbaycanın Milli Qəhrəmanı (özü, əri/arvadı).

Güzəştli ipoteka kreditindən istifadə etmək hüququ olan ailə və ya şəxs bu hüquqdan yalnız bir dəfə istifadə edə bilər.

**Anamın pensiya yaşına az qalıb, amma bu günə qədər heç bir yerdə işləməyib, sığorta stajı yoxdur. Atam 3 il əvvəl vəfat edib, təqaüdə çıxa bilməsə də, fərdi hesabında müəyyən vəsait var. Belə halda anamın pensiyası necə hesablanacaq və ümumiyyətlə, pensiya almaq hüququ yaranacaqmı?**

*Sabir BİLALOV,*
*Oğuz rayonu*

- Sualınıza cavab olaraq bildiririk ki, əgər ananızın sığorta stajı yoxdursa və heç bir yerdə işləməyibsə, yaşa görə əmək pensiyası almaq hüququ yaranmır. Yaşa görə əmək pensiyası üçün qanunvericilikdə müəyyən edilmiş pensiya yaşına çatmaq və ən azı tələb olunan sığorta stajına malik olmaq şərtdir. Sığorta stajı olmayan şəxslərə əmək pensiyası təyin edilmir və bu halda Dövlət Sosial Müdafiə Fondu tərəfindən pensiya təyinatından imtina edilir. Atanız vəfat etdiyindən və şəxsi hesabında müəyyən vəsait toplandığından, ananızın yalnız ailə başçısını itirməyə görə əmək pensiyası hüququna baxıla bilər. Lakin bunun üçün də vəfat etmiş şəxsin (atanızın) sığorta stajı olmalıdır. Əgər atanızın sığorta stajı yoxdursa, ananızın ailə başçısını itirməyə görə əmək pensiyası almaq hüququ da yaranmır. Bu halda, ananız yalnız sosial müavinət almaq hüququna malik ola bilər. Qanunvericiliyə əsasən, əmək pensiyası hüququ üçün əsas şərt sığorta stajının olmasıdır və bu şərt yerinə yetirilmədikdə əmək pensiyası təyin edilmir. Təcrübədə belə şəxslərə sosial müavinətlərin verilməsi nəzərdə tutulur.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Azərbaycanın beynəlxalq dərəcəli həndbol hakimləri təyinat alıblar




Azərbaycanın beynəlxalq dərəcəli həndbol hakimləri Emil və Ernest Ağakişi qardaşları növbəti dəfə təyinat alıblar.

AZƏRTAC xəbər verir ki, onlar kişilər arasında Avropa Kubokunun üçüncü mərhələsinin "Nilüfer Bələdiyyəspor" (Türkiyə) -"Red Boys"(Lüksemburq) matçında ədaləti təmsil edəcəklər.

Qarşılaşmada Avropa Həndbol Federasiyasının (EHF) nümayəndəsi yunanıstanlı Konstantinos Katsikis olacaq.

Görüş noyabrın 16-da Bursa şəhərinin "Nilüfər Bələdiyyə" İdman Kompleksində keçiriləcək.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri Firudin Hacıyev ailəsi ilə birlikdə Rəşid İbrahimova oğlu

**EMİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin daimi nümayəndəsi Aydın Cəfərov ailəsi ilə birlikdə Rəşid İbrahimova oğlu

**EMİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Ağsaqqallar Şurasının sədri Eldar Quliyev, Əhliman Əmiraslanov, Eldar İbrahimov, Ağalar Vəliyev, İsa Həbibbəyli, Vaqif Şadlinski və Vahid Novruzov Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4034**
**Sifariş 2321**

**Qiyməti 60 qəpik**